MİRVARİD DİLBAZİ

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"LİDER NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab "**Mirvarid Dilbazi**. Öpün bu qanlı torpağı"*
*(Bakı, Çaşıoğlu, 2000) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Redaktor: **Vüqar Vüqarlı**

**894.3614 - dc 21**
**AZE**
**Mirvarid Dilbazi. Seçilmiş əsərləri**. Bakı, "Lider nəşriyyat", 2004, 280 səh.

Xalq şairi Mirvarid Dilbazinin bu kitabına son illərdə yazdığı şeirləri və poemaları daxildir. Şeirlərin əksəriyyətində və poemalarda zaman-zaman xalqımızın başına gətirilən müsibət və fəlakətlərdən söhbət açılır. Kitab 8 bölmədən ibarətdir. Hər bölmə bitkin bir poetik əhval-ruhiyyəni səciyyələndirir.

**ISBN 9952-417-11-8**

© "LİDER NƏŞRİYYAT" 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## BİZ OD ÜSTÜNDƏ DOĞULDUQ

Mən ölümlər və sürgünlər, qadağanlar, milli qırğınlar və soyğunlar, milli təhqirlər, milli əsarət görmüş nəslin nümayəndəsiyəm. Uşaqlığım zəhərə batırılmış badam içinə oxşayır. Gəncliyim, ahıllığım, qocalığım kəşməkəşli illərdən keçib. Atamın şəhid olmasıyla doğma kəndimizdən, buz bulaqlı meşələrimizdən ayrılıb, anamızın göz yaşlarını qəlbimizə axıda-axıda bacımla mənim Daş Salahlı və şəhər həyatımız başlayıb.

Lakin milli dərdlərimiz daha böyük olub. Müsavat hökumətinin qurulduğu günlərin sevinci, süqutunun kədəri, 20-ci ildə kəndlərimizə qəfil erməni hücumları, az ömürlü, iztirablı qaçqın günlərimiz bir-birini əvəz edib.

Toplu-tüfəngli "qızıl" ordunun işğalıyla kəndlərimizdə dəyişən həyat tərzi, sinfi mübarizə şüarı altında həbslər, sürgünlər, kütləvi ölümlər, dağıdılan əmlaklar, 37-ci ilin fəlakətli günləri, gecələr döyülən qapılar, 18 yaşlı dayımın aparıldığı qara maşının arxasınca tökülən göz yaşlarımız, onun Sibir cəhənnəmindən gələn məktubları, babamın həbsi, daha nələr... nələr...

Bunların hamısının ağrısı mənim uşaqlıq və gənclik illərimdən – ürəyimdən keçib. Anamın yanında gəncliyə yenicə qədəm qoyan iki qızı ilə hazırladığı xörəyi, paltarı qoca, günahsız məhbus atasına vermək üçün dəniz qırağındakı həbsxananın qapısı önünə səhər gedib, axşam qayıtması...

Yaşadığımız o səksəkəli illər, aylar bir daha geri dönməsin.

30-cu illərin "təmizləmə" dövründə babamı da güllələnməlilərin siyahısına saldılar. Lakin xeyirxah camaat qocanın ağ saqqalını qana bulanmağa qoymadı. Onu ölümə verilənlərin doldurulduğu damdan çıxardılar, sürgündənsə saxlaya bilmədilər. Onun 18 yaşlı oğlu ilə birlikdə qəbri Qazaxıstan çöllərində qumlar altda qaldı. Ağbirçək nənəm ordan tək qayıtdı. Ziyalı dayılarımın qəbirləri Türkiyənini Amasiya şəhərində bir dağ ətəyində, anamın, nənəmin qəbirləri Bakıdadır.

Beləcə, böyük bir ailənin üzvlərindən heç birinə doğma kənd torpağında, nənə-babalarının, ata-analarının yatdığı torpaqda yatmaq qismət olmadı.

Sonra ikinci dünya müharibəsinin xalqımıza gətirdiyi məhrumiyyətlərlə qarşılaşdıq. Cəbhədə yarım milyon oğul itirən anaların fəryadı, dərdli göz yaşları, çətin güzəranları, cəbhəçi qızlarımızın taleyinin acısı yenə ömrümdən keçdi.

Mənim yaradıcılıq yolum da elə asan olmayıbdı. Çox çətinliklərlə üzləşsəm də, bu vaxtlar qələmdən, əməkdən, qeyrətdən, xalqıma, sənətimə olan məhəbbətdən başqa köməkçim olmayıb. O dəhşətli illərdə, bir sinif kimi ləğv olunmuşların övladlarına kim kömək əli uzada bilərdi?



Biz iki bacı ali məktəbi də daima qovulmaq qorxusuyla bitirdik. Bunun üçün də biz, arasında boy atdığımız kənd camaatımıza borcluyuq. Aldadılmış, qorxudulmuş bu camaat öz milli xeyirxahlıq duyğularına sadiq qalıb, "mərkəz"dən göndərilən suallara bizim xeyrimizə cavab vermişlər. Biz bu xeyirxahların köməyi ilə asfaltı yarıb göyərən ot kimi çətinlikləri yarıb keçdik, öz varlığımızı, etiqadımızı saxlaya bildik. İçərişəhərdə bizim kiçik bir otağımız vardı. Onun alçaq pəncərəsinin taxtası mənə yazı stolunu əvəz edirdi. Nəvainin "Fərhad və Şirin" əsərinin tərcüməsi, 1941-ci ilə qədər nəşr olunan şeir və poemalarım həmin pəncərə qarşısında yaranıb.

Bu yazdıqlarım o kəşməkəşli illərdə çəkdiyimiz sarsıntıların, tökdüyümüz göz yaşlarının bir damlası belə deyil. Ömrümün bu çağındasa yenidən erməni xəyanətilə üzləşmək dəhşətdir. Bütün insani keyfiyyətlərini itirmiş erməni onların babalarına sığınacaq, çörək verən xalqa vurduğu zərbələr bəşər tarixində bir xəyanət və cinayətdir.

Mərdin mərdlə vuruşuna nə var! Dəhşət mərdlərin namərdlərlə döyüşüdür. Humanizmdən dəm vuran erməni yazıçıları, şairləri, alimləri, görəsən, yetirmələrinin törətdikləri bu faciələrdən sonra hansı humanist duyğudan söz açacaqlar?

Qoy, bu erməni "yetirmələri"nin babalarına sığınacaq, od-ocaq, çörək verən xalqımızın başına gətirdikləri faciələr, torpağında erməni məskən salan bütün xalqlara ibrət dərsi olsun.

Gözəlliyinə heyran olduğum, şəninə silsilə şeirlər həsr etdiyim Qarabağ torpağı, meşələrinin nəğməsini dinlədiyim, dağlarının havasını udduğum, buz bulaqlarının suyunu içib, qoynunda dincəldiyim Ağdam, Şahbulaq, Abdal Gülablı cənnəti üzərinə yağdırılan raket, top mərmilərinin ağrısı mənim ürəyimdən keçir.

Gənclikdə gəzdiyim Vətən yollarını qocalıq bağlayan günlər təsəllim yenə də qələm oldu. Yurd-yuvalarından didərgin düşən başıbəlalı qaçqınlarımıza həsr etdiyim "Ağla, kamanım ağla", "Qoymayın ağlayım məni", qanlı Yanvar günlərində yazdığım "Öpün bu qanlı torpağı", "Şəhidlər qəbiristanında", "Qanlı Yanvar bayatıları" və bir sıra başqa şeirlərim "Odlar yurdu", "Ədəbiyyat və incəsənət" habelə xarici qəzet səhifələrində nəşr olundu, "Azadlıq" radiosunda səsləndi.

Mənim milli dərdimizə, milli ordumuza, qəhrəman oğullarımıza həsr etdiyim bu əsərlər torpaq fəryadı, xalqımızın mətanəti və ordumuzun qəhrəmanlığının tərənnümüdür.

Hər qaranlıq gecənin bir işıqlı səhəri var. O işıqlı səhərdə yetişən yeni, ziyalı nəsillər rahatsız günlərimin, yuxusuz gecələrimin məhsulu olan bu "torpaq" fəryadını xalqımıza çatdıracaq fəryad dolu bu kitabın bir nüsxəsi isə məzarım üstünə qoyulacaq.

*Yanvar, 1998*

## QANLI YANVAR

Mənə deyirlər ki, ağlama, bəsdi!
Necə ağlamayım, millət ağlayır.
Başımız üstündən tufanlar əsdi,
Xalqıma edilən zillət ağlayır.

Bizim haqlarımız tank təkərləri
Altında əzilib, qana batıbdır.
Qırılıb vətənin igid ərləri,
Bu torpaq altında mərdlər yatıbdır.

Qan qızıl boyadı qara torpağı,
Düşdü gənc oğullar nahaq qırğına.
Bir xalqın köksünə çəkdilər dağı,
Ey dünya! Nə üçün dözürsən buna?

Bu qanlı torpağı öpməyə gəlin,
Siz ey torpağına qan çilənənlər!
Eşidin səsini tək qalmış elin,
Ey vətən yolunda oğul verənlər!
Gəlin, ey gözləri odlar görənlər!

*1990*

## NİGARANLIQ İÇİNDƏYƏM

Bir qaranlıq içindəyəm,
Nigaranlıq içindəyəm,
Kimsə bilmir nə gündəyəm...
Sinəmdə silah lüləsi
Vətəndə ya sürgündəyəm
Şəhərim güllə yaralı,
Divarları deşik-deşik,
Küçələrdə silahlılar



Bozüzlülər çəkir keşik.
Qırılıbdır oğullarım,
Qanla boyanıb yollarım,
Dilim yenə susdurulub,
Bağlı qalıbdır qollarım,
Biz belə dərd görməmişik,
Belə qurban verməmişik.
Belimi qoymayın büküm.
Gözümün yaşını töküm
Qan tüpürüm, ahlar çəkim,
Tapdalanım ayaqlarda,
Düzəldin sınmış belimi.
Sürünməyim torpaqlarda.

*1990*

## QIZIL ORDU – ANA FƏRYADI

Ey şəninə şer yazıb,
Nəğmə qoşub,
Yollarına al çiçəklər tökdüyümüz,
Adlarını ipəklərə bükdüyümüz
"Qəhrəmanlar!"
Nədir tökdüyünüz qanlar?
Dar ayaqda, çətin gündə,
Faşistlərlə ölüm-dirim döyüşündə
Sizə arxa, dayaq olan,
Cavanları, qocaları
Zavodlarda sübhə kimi oyaq olan
Bir millətə nədir bunca
Verdiyiniz ittihamlar!
Nədir tökdüyünüz qanlar?
Nədir bizim günahımız?
Biz nə zaman bir millətin
Sərhədinə basqın edib,
Torpağını zəbt etmişik?
Biz nə zaman qonşumuza

Qəsd etmişik?
Biz ki daim "qardaş" olduq,
Dar ayaqda yoldaş olduq
Millətlərə.
Bununçünmü düşürük bu zillətlərə?
Nədir bu tökülən qanlar?
Mən bir ana fəryadıyla
İndi sizi, dərdimizi
Dinləməyə çağırıram
Ey insanlar!
Ey insanlar!

*1990*

## ŞƏHİDLƏR QƏBRİSTANINDA

Qəhrəmanlıq abidəmiz
Ey şəhidlər qəbristanı!
Torpağına qəm çökməmiş
Millət hanı?
Dövran bizə qəm üstündən
Qəm yüklədi dönə-dönə...
Biz ha qaçdıq, o qaniçən
Qapımızı döydü yenə.
İndi bu qəm havasını
Hansı sazda çalaq, ellər?!
Yaraların ağrısını
Hansı sözlə alaq, ellər?!
Oğul! – deyən anaların göz yaşına
Göz yaşımı qatıram mən!
Qəm selində batıram mən!
Batıram mən!
Bir səs deyir: – Dur! Ağlama
Düzəlt qəddi-qamətini!
Dərdə, qəmə səsləmə sən
Dərddən güclü millətini!
Dur! Ağlama!



Ağladıqca kiçilmişik,
Zəmi kimi biçilmişik,
Bölünmüşük para-para!
Dur! Ağlama! Nəsil böyüt
Əvəz olsun vətəninə
Qurban gedən oğullara!
Rəhmət sizə, ey igidlər!
Ey şəhidlər!
Ey azadlıq qurbanları!
Ey vətən qəhrəmanları!
Ölmədiniz, yaşadacaq sizi zaman.
Qəhrəmanlıq abidəmiz
Olacaqdır bu qəbristan!

*1991*

## ŞƏHİDLƏRİN İLDÖNÜMÜ

O sitəmli günlərin,
Dərdli, qəmli günlərin
Üstündən gözüyaşlı
Gəldi bir il də keçdi.
Bu günlərin acısı
Min-min könüldən keçdi.
Divarları, daşları
Güllə yaralı evlər
Durub o cinayətin
Qanlı şahidi kimi.
Qələmimdən qan damır,
Necə yazım dərdimi?
Necə deyim qırdılar,
Mənim min-min mərdimi.
Yudu yağan yağışlar
Bakı küçələrinə
Axıb sellənən qanı.
Ziyarətgaha döndü
Şəhidlər qəbristanı.
Çıx bu qəmdən, bu yasdan,

Sən ey Odlar elimiz!
Qoy silinsin üzlərdən
Qəm yaşları selimiz!
Matəm ili deyildir
Qəhrəmanlıq ilimiz.
Ayaq üstdə möhkəm dur,
Nə qədər ki, sən varsan!
Yıxılsan tapdanarsan!
Ey od, işıq məbədi!
Bu işığın, odunla
Döyüşdəsən əbədi.

*1991*

## SƏNGƏRLƏRİ SİNƏLƏRDƏN QURDULAR

Fırtınalı dənizdə bir gəmi var,
İçindəki mənəm, yoxdur avarım,
Ürəyimdə bir dünyanın qəmi var,
Yaralıdır mənim Odlar diyarım.

Nə təbib var yarasını sarmağa,
Nə silah var "vuranını" vurmağa,
Nə insan var bir məsləhət sormağa,
Haray mənim kimim, kimsəm, simsarım!

Xəncər salıb yarasını oydular,
İçib-içib nə qanından doydular.
Babam demiş: "Nə kəsdilər dilini",
Nə səsini çıxartmağa qoydular.

Oğul gərək vətəninə dar gündə,
İgid gərək dursun düşmən önündə.
İgidlərim yalın əllə durdular,
Səngərləri sinələrdən qurdular...
Top, qılıncla gəldi zalım ordular
Su yerinə torpaq qanla sulandı,
Qan töküldü... zülüm ərşə dayandı.



Göy kişnədi, yer ağladı bu dərdə,
Bir milləti saxladılar kədərdə.
Rəhmət sizə, ey igidlər, şəhidlər!
Yurd uğrunda şücaətlə ölənlər!
Ağlayacaq, bu hökmüdür zamanın, –
Bu gün bizi ağladaraq gülənlər.

*1990*

## AĞLAMA GƏLİNİM, QIZIM, AĞLAMA

*Qanlı Yanvar günlərinə*

Ağlama kamanım, sazım, ağlama!
Sil bu göz yaşını, gözüm, ağlama!
Gəlinim ağlama, qızım, ağlama,
Dərddən güclüləri dərd əyə bilməz!

Aç qara örpəyi, gülüm, başından,
Çaylar bulanmasın qoy göz yaşından,
Körpən qəm əmməsin ana döşündən,
Göz yaşı tökdürən, göz yaşı silməz.

Demə ki, yurdunda töküldü qanlar,
Biz dağıq, dağlarda gurlar tufanlar,
Zirvədə püskürər odlu vulkanlar,
Təpələr düzənər, dağlar əyilməz!

Qırılan ağacın yerində müdam
Təzə ağac əkər qüdrətli bağban,
Təzə nəsil böyüt, ey dərdi ümman!
Oğulsuz millətə, millət deyilməz!
Dərddən güclüləri dərd əyə bilməz.

*Qanlı yanvar günləri*

## HAQQ SEVƏN ORDUMUZA

Yurda mərdlər verənim!
Gözün aydın, gözü tarix boyu odlar görənim,
Yaralanmış, paralanmış, qana batmış vətənim!
Gələcək son günü yurdunda o qanlar tökənin.
Ayları, illəri ey qanlı döyüşlərdə keçən,
Geydi əsgər libası mərdlərin, ey şanlı vətən!
Ordumuz haqqı sevən millətimin ordusudur,
Topu, təyyarəsi xalq eşqi, vətən duyğusudur.
Nəvələr geydi döyüş paltarını əcdadının,
Qoymasın sönməyə gur məşəlini yurd odunun.
Ordumuz haqqı sevən millətimin ordusudur,
Yürüşü, andı onun yurdu xilas duyğusudur.
O gedir, son qoyacaq bunca olan zülmə, şərə,
Haqq sevən ordumuzu çatdır, ilahi, zəfərə!

*1992*

## İNSAN OLMAZ MƏN DÖZÜMDƏ

Qalmışam əlim üzümdə,
Ulduzlar batdı gözümdə,
İnsan olmaz mən dözümdə
Millətini talan görsün.

Yoxdur gecəm, gündüzüm də,
Fikirdən gülmür üzüm də,
İnsan varmı mən dözümdə
Yurdunda bunca qan görsün.

Susub söhbətim, sözüm də,
Dünya dəyişib gözümdə,
İnsan varmı mən dözümdə
Bunca ölən cavan görsün.

Təkik millətim də, mən də,
Yurda sərhəddir sinəm də,
Yox, qalmarıq biz bu qəmdə,
Bizi qəmə salan görsün.

*1991*



## OD SÖNDÜ, KÜLÜM QALDI

Dilim var, sözüm hanı?
Adım var, özüm hanı?
Ocağım, közüm hanı,
Od söndü, külüm qaldı.
Ürək qan, sinəm yara,
Sözümü deyim hara?
Torpağım para-para,
Bölündü, dilim qaldı.

Eşit, igidim, eşit!
Elin öyüdün eşit,
"Qurd basar arxalı it!!
Arxasız elim qaldı.

Düşmənə dağlarımız,
Meyvəli bağlarımız,
Sərin yaylağlarımız,
Bizə də zülüm qaldı.

Viran oldu bir yanım,
Düzəldi qəbristanım...
Ay dili bağlı canım,
Sənə də ölüm qaldı!

*1988*

## QORXMAZ

*Qarabağın gənc müdafiəçisinə*

Bu necə hekayət, necə nağıldı,
Oldu para-para yurdlar dağıldı!
Öldü döyüşlərdə, çünki oğuldu!
Qaldı ürəklərdə dərdi Qorxmazın!

Vətən, dar ayaqda mərd oğul istər,
Əgər oğulsansa dur, hünər göstər!
Döyüşdə sınanır qəhrəman kəslər,
Ey vətən, cəsurdu, ərdi Qorxmazın!

Köksüylə qorudu o Qarabağı,
Dəyməsin bu yurda düşmən ayağı.
Öldü o, başında kişi papağı,
Ölkə hünərini gördü Qorxmazın!
Göz dikmə, ey cəllad, sən bu torpağa,
Çörəkli arana, çiçəkli dağa,
Yurdun oğulları durmuş ayağa,
Tapdanmaz heç zaman yurdu Qorxmazın.
Amansız düşmənlə o mərd döyüşdü,
Qanı çiçəklərə, güllərə düşdü,
Gözəl Qarabağda dillərə düşdü
Adı, o mərdlərin mərdi Qorxmazın!

*1992*

## İNSAN ADLI ƏCİNNƏLƏR

*Ermənistanda yandırılan*
*Azərbaycan uşaqlarına ithaf*

Ürəyimdə min ağrı var,
Öldürmədi biri məni.
Gəl, ölümüm gəl, cəlladlar
Parçalayır bu vətəni!

Dəmir turba ağzı qara,
Qəbir oldu uşaqlara.
O çığırtı səslərinə
Necə dözdün, qəlbi qara?

İnsan donlu əcinnələr,
Sizə haqdan ölüm dilər
Dəmir turbalar içində
Yandırdığınız körpələr.

*1988*



## 20 NOYABR QURBANLARINA AĞLAYANLARA

Tökmə göz yaşlarını, dərdlərinin qurbanıyıq,
Çatma gəl qaşlarını, düşmanın duşmanıyıq.
Köksü atəşlə dolu bir uca dağ vulkanıyıq,
Püskürüb od saçarıq, zülm evini yandıraraq,
Xalqımın kimliyini ev, yıxana qandıraraq.
Ağlamaq vaxtı deyil, sil o gözün yaşlarını,
Qaya tufan da tökür başlara öz daşlarını,
Yurda qurban verən ey oğlunu, qardaşlarını!
Qəzəbin məhv eləsin torpağına qan tökəni,
Ey şəhidlər anası, dur, görək üsyanda səni!

Bir şəhid qəbridi bil, torpağının hər qarışı,
Burda bizdən də əzəl hey... tökülübdü göz yaşı.
Dinlə, bir gör nə deyir cərgələnən o başdaşı:
Ağlamaq vaxtı deyil, dur ayağa, dur, ana, dur!
Sənə, mərd nəslinə son qurtuluş ancaq ki, budur!

Anası sənsən, ana, köksünü səngər edənin,
Qəhrəman nəsli o mərdanə Cavad xan dədənin,
Yurdunu tarac edər, torpağına göz dikənin,
Ağlama, qeyrətinin, ismətinin qurbanıyıq,
Qeyrəti, isməti satqın olanın düşmanıyıq.

Ağlama, islanar, ey gül, o şəhidlər məzarı!
Bitirər qəm çiçəyi göz yaşının damlaları.
Bürünər qəm gülünə, ağlama, Odlar diyarı!
Bəsdi, geydik daha biz bunca kədər, qəm libası,
Olmamış, olmayacaq, göz yaşı yurdun xilası!

Közərir odları köksümdə yanan kəndlərimin,
Vətənin köksünə sancılmış o qəm xəncərinin
Ağrısından xəbəri yoxdumu ya rəb, bəşərin?
Qara yellər uçurur kəndlərimin boz külünü,
Tək qalan millətimə sən uzat ey Haqq, əlini!
Geyin ismətli qızım, sən də döyüş paltarını,

Düşmənə vermə aman, tapdalaya namus, arını,
Ana sərgərdə! Yenə topla vətən qızlarını!
Get, qoşul sən də igid, cəbhəçi qardaşlarına,
Kül ələ torpağına qan tökənin başlarına!

*Ananın çox yaralar bağladı bir vaxtlar əli,*
Geydi əsgər libası yurdumuzun hər gözəli.
Qarı düşmən yıxa bilməz belə möhkəm təməli!
İgid oğlanları, mərd qızları dönməz vətənim!
İndi başlarda gəzən bayrağın enməz, vətənim!
İlimiz sülh ili olsun uca göylərdə duran,
Bunca göz yaşaları tökdük, daha yetməzmi bu qan?!
Yoldan azğınları sən düz yola döndər, Yaradan!
Al qərənfilləri toy məclisinə göndər özün!
"Şər"i hər yerdə, ilahi, xeyirə döndər özün!

*1991*

## TƏKİ ARADA QAN OLMASIN

Sel kükrəsə çaylar daşar,
Fəlakət həddini aşar,
El-eldən küsər, barışar,
Tək arada qan olmasın!

Dayanın siz, ey bədxahlar!
Çəkilməsin bunca ahlar.
Bağışlanar çox günahlar
Yel əssin, tufan olmasın!

Qonşusuna "qardaş" deyən
Xalqa xain çıxdın nədən?
Dağılmasın iki vətən
Tək yurdlar viran olmasın!

Anadır çağıran sizi,
Müqəddəsdir ana sözü.
Aramızda qan dənizi,
Göz yaşı ümman olmasın!



Qoy qılıncın qında qalsın,
Dostluq hissi zəfər çalsın,
Umu-küsü olur, olsun,
Tək şər hökmüran olmasın.

Nədir bu tökülən qanlar,
Bu dağılan xanımanlar?
Dayanın, ey şər yayanlar!
Gənclər pərişan olmasın!

*1989*

## BAŞ VƏ DİL

Söz söyləyən zamanda
Dil yaman dolaşırdı,
Kəlmələr arasından
Çox kəlmələr düşürdü.
Fikirlər dəyişirdi.

Eşidənlər kimisi:
Ona "pəltək" deyirdi,
Biri "gödək" deyirdi,
Biri "kötük" deyirdi,
Biri "ütük" deyirdi.
Dil dedi: – Ey insanlar!
Nə kötüyəm, nə ütük,
Nə pəltəyəm, nə gödək,
Bunu biləsiz gərək:
Deməyin bu nöqsanlar
Ancaq mənim işimdir,
Fikirlərə dəyişik
Don geydirən başımdır!

*1989*

## BAŞ VƏ AYAQLAR

Ayaqlar gücdən düşdü
Şah damarlar büzüşdü,
Hey fəryad etdi bədən:
– Ayaqdan dustağam mən!

Ayaqlarımdır məni
Belə xəcil edən də,
Yoxsa nə var ki məndə.
İşdən, gücdən qalım mən
Ev dustağı olum mən?

Bunları eşidəndə
Ayaqlar dedi: – qafil,
Bilmirsənsə eşit, bil:
Hər bəla başdan gəlir,
Başlar işləməyəndə
Ayaqlar işdən qalır.
Bilmirsənmi, ey əfəl,
Başın iflic olubdur
Bizdən lap çox-çox əvvəl.

*1989*

## BU ÖLÜMDÜ, YA HƏYATDI

Nənə, baba duasıyla,
Doğma vətən havasıyla,
Ürəyimin sevdasıyla,
Yetmişim səksənə çatdı.

Durmuşam yol üstdə naçar,
Bu bağlı yolu kim açar?
Burda qanlı axır sular,
Torpağımız qana batdı.

Toplu, tüfəngli ordular,
İgidlərimi qırdılar.
Bizi arxadan vurdular,
Cəlladlar eli ağlatdı.
Mənə ömür-gün bəxş edən
Neyləyirəm bu ömrü mən.
Mənim ki, bağlıdır qapım
Açarını hardan tapım?
Dövran məni oda atdı,
Yaşatdı, məhbus yaşatdı.
Bu ölümdü,
Ya həyatdı?

*1992*



## VƏTƏN QƏHRƏMANLARI

Bir canım var sizə qurban,
Azərbaycan oğulları!
Mərdliyi unutmur dövran,
Mərd keçdiz qanlı yolları,
Ay vətən qəhrəmanları!
Düşmən yurdda yurd salmasın,
Yurdlar düşmənə qalmasın,
Vətən oğulsuz olmasın!
Azərbaycan aslanları!

Hər ölkədə adımız var,
Hər ocaqda odumuz var,
Nəbimiz, Fərhadımız var,
Tarix unutmur onları.

İsrafilim ilk ad aldı,
Mehdim dünyaya səs saldı,
Gəray öldü, adı qaldı,
Axdı xalqlarçün qanları.

Od yurdunun Ziyası var,
Qələmilə sirlər açar,
Mənə səs versin insanlar!
Yazaq dostluq dastanları.
Adım şair, özüm ana
Mən yazıram yana-yana...
Qan salanı düşsün qana,
Qana saldı cavanları.
Bir canım var sizə qurban,
Azərbaycan oğlanları!

*1988*

## MƏN ANAYAM

Oğul deyib mən sinəmi dağlaram,
Ağ başıma qara yaylıq bağlaram,
Ağlayanda gizlin-gizlin ağlaram
Düşmən mənim göz yaşımı görməsin!

Mən anayam, səsim düşsün hər yana,
Bəlkə yatmış kor vicdanlar oyana!
Yarəb, batsın qan tökəni o qana!
Xain düşmən burda dövran sürməsin!

Yer götürməz qəlbimdəki hüzünü,
Yamanların yaman gördük üzünü.
Qoy saxlasın insanların düzünü,
Yamanına Allah meydan verməsin!

*1992*

## DÜŞMƏNİNƏ QARDAŞ DESƏN

Düşməninə qardaş desən
Evində kəsər başını,
Süfrəsində sən aş yesən,
Yemə, zəhərlər aşını.

Alar yatdığın yatağı,
Tutar tikdiyin otağı,
Olar torpağın ortağı,
Mənimsəyər yurd daşını.
Düşmənə açsan süfrəni
Yeyər, içər, danar səni.
İstər ki, bölsün vətəni,
Çəkər üstünə qoşunu.

Qardaş demə qəsbkara,
Vurar sənə min bir yara.
Yurdun olar para-para
Axıdarsan göz yaşını,
Səni qılınclar böləndə,
Doğmalar, dostlar öləndə,
Gəlib üstünə güləndə
Tanıyarsan "qardaş"ını.

*1988*



## TƏK AĞAC

*Xalqıma ithaf*

Buludlar çaxnaşır göyün üzündə,
Parlayır şimşəyin odu gözündə,
Yıxılma, tək ağac, çölün düzündə
Yoxdur söykənməyə bir tayın sənin,
Çatmaz heç bir kəsə harayın sənin.
Kömürü çatmayır "kömürçülərin",
Yandırıb səni də "kömür" edərlər.
Kökünü torpağa dərin at, dərin!
Hər zərbədən bil ki, yıxılmaz ərlər.

Sən tək böyümüsən əzəl yaşından,
Nə qədər tufanlar əsib başından,
Halısan dünyanın haqsız işindən,
Nə olsun, tək ağac, səhrada təksən,
Sən bu tufanlara köks gərəcəksən!

*1989*

## NİGARANAM

Şiə, sünnü söhbətləri
Xəzər dənizini aşır,
Genə dillərdə dolaşır...
Nigaranam –
İki məzhəb ayrılığından.
İslam dinin sarsılmasın –
Ya rəbbim bundan!
Budur bizə peyğəmbərin vəsiyyəti:
Bütün müsəlman ümməti –
Bir vəhdətdir.
Siz pozmayın bu vəhdəti!
Bu vəhdət pozulsa əgər:
İslam dini əldən gedər.
Ey şiələr!

Ey sünnülər!
Bir allahlı,
Bir dinlilər!
Dini İslam əmanəti!
Siz qoruyun bu vəhdəti!
Şiə, sünnü təbliğatı –
Pozmasın birliyimizi.
Yarəb! Sən təkləmə bizi.

*1994*

## TƏKLƏNMİŞ MİLLƏTİM

Qoçaqların şan-şöhrətin,
Qorxaqların baş töhmətin
Olan, təklənmiş millətim!
Qoçağa, qorxaq deyilməz,
Heç zərbədən dağ əyilməz.

Qalx, ey adı oğul olan,
Torpağı düşmənə qalan,
Meşələrdə donan balan
Qısasa çağırır səni,
Qalx, qurtar doğma vətəni.
Kömək gəlir yad ellərdən,
O günü ağlayıram mən,
"İanəyə" qaldıq nədən?
Qəhrəmanım, gir döyüşə,
Düşmənlərlə dur döş-döşə.
Hanı o naz-nemət dolu,
Açıq süfrən, vətən oğlu?
Səadətin var bir yolu:
O, namus, qeyrət yoludur,
Düşmənə nifrət yoludur.

Laçının qəhrəmanları,
Kəlbəcərin aslanları
Şuşanın bəy cavanları,
Qubadlının, Zəngilanın,



Ay Ağdamın tərlanları
Barlı bağlar, ağ saraylar –
Sizi o torpaq haraylar.
Qalx ayağa, dağ vüqarım!
Qayıt yurda, namus, arlım!
Gəncim, qocam, başı qarlım!
Qalx, silaha sarıl daha
Qalx, and verirəm Allaha!

*1993*

## HIÇQIRA-HIÇQIRA

Doğma yurdda yollar keçdim
Hey xəyallar qura-qura
Qarşıladı məni düzlər,
Dağlar hıçqıra-hıçqıra.

Seyrə çıxdım səhər-səhər,
Qarşıladı bənövşələr,
Məni nərgizli meşələr,
Bağlar hıçqıra-hıçqıra.

Yaratdığım bu nəğmələr
Bu torpaqdan, eldən gələr.
Gördüm gümüş şəlalələr
Çağlar hıçqıra-hıçqıra.

Etdim eli ələk-vələk,
Yeddi param hanı görək?
Hanı kəndlərim deyərək,
Sinəmdəki yeddi yaram:
Barxudarlım, Əskiparam,
Ağlar hıçqıra-hıçqıra.

*1997*

## AZADLIQ QURBAN VERİR

Oğul! Bağlı gözünü
Aç, o gözünə qurban!
Güllə harandan dəyib?
Özüm, özünə qurban!

Yaran hardan qan verir
Dərin yarana qurban!
Azadlıq qurban verir,
Axan o qana qurban!

Köksü qızıl qan oğul,
Yatıbsan, oyan, oğul!
Haqq bilir yerdə qalmaz
Haqsız axan qan, oğul!

İllər belə dolanmaz,
Ürəklər oda yanmaz,
Oğul, vətən torpağı
Heç zaman parçalanmaz!

Oyan, gözünə qurban,
Özüm, özünə qurban!

## BÖLÜMDƏ QALDIQCA VƏTƏN TORPAĞI

Yasəmən gül açıb, bəzəyib bağı,
Qönçəylə dolubdur gülün budağı,
Bölümdə qaldıqca vətən torpağı
Mən bu gözəlliyi duya bilmirəm.
Bahar sevincinə uya bilmirəm.

Sarmaşıb çəməndə yenə gül-gülə,
Nəğməli quşlar da gəliblər dilə,
Mən elə qəmliyəm, qəmliyəm elə,
Bu gözəllikləri duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.



Şuşam, Qarabağım, dağlar maralı!
Siz də yaralısız, mən də yaralı,
Elim düşən gündən sizdən aralı
Bu gözəllikləri duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.

Sinəmdə dağı var Əskiparanın,
Ağrısı azalmır heç bu yaranın,
Düşmənlərə qalan dağım, aranım,
Sizsiz gözəlliyi duya bilmirəm,
Bahar sevincinə uya bilmirəm.
Gün doğub, ürəyim işıqlanmayır,
Könlümdə çıraq yox, şam da yanmayır,
Çoxdandır saçlarım xınalanmayır,
Ürəyim şəhidlər qəbristanıdır,
Gözlərimdən axan göz yaşı deyil,
Şəhid qanıdır.

*1998*

## VƏTƏN DƏRDİ

Vətən dərdi, vətən dərdi!
Şəhid etdi neçə mərdi!

Məni yaş əyə bilməzdi,
Vətən dərdi əyməsəydi,
Şəhidlərə dəyən güllə
Ürəyimə dəyməsəydi.

Əyildi qəddi-qamətim,
Köçkün olanda millətim.
Şuşam yadlara qalanda,
Ağ sarayda yaşayanlar
Boz çadırlara dolanda.

Qəfil Xocalı dəhşəti
Ağladanda bir milləti
Kəlbəcərim veriləndə,

Ağ sürülər düşmən elə
Sürüləndə,
Yanar dağa döndü sinəm...
Dedim: sən ey, yurdu düşmənlərə verən:
Kabablığa gedən qoyun
Sənsən, mənəm!

Tarix boyu müti olduq,
Həlim olduq,
Buna görə:
Belə dilim-dilim olduq.
Nə dedilər bəli dedik,
Boyun olduq,
Axır xain qonşulara
Biz kabablıq qoyun olduq.

Laçın dağdı, təpələndi,
Orda da qan ləpələndi.
Ağ evlərdə yaşayanlar
Boz düzlərə səpələndi.
Naxçıvana, Qazaxa da
Uzandı erməni fəndi...
Orda məsum körpələr də
Bələyində güllələndi.
Zəbt olunmuş şəhərlərin,
Kəndlərin ağ külü qaldı.
Erməni minnətdarlığı
Duz-çörəyə belə oldu.
Saçlarımın hər telini
Bu dərdlərlə ağartdım mən.
Qanım halal olsun
Bir gün adını çəkməsəm.
Gözüm kor, dilim lal olsun
Şad günləri qəmli ötən,
Bənövşəsi qanlı bitən
Vətən! Vətən!

*1993*



### QAZ BALASI

Gah çox olduq, gah az olduq,
Dərdimizi qanmaz olduq,
Elə yoldular ki bizi
Elliklə başı daz olduq.
Uca dağdıq, partlatdılar
Yumşalıb çınqıl, toz olduq.
Qartaldıq, endik zirvədən
Çevrilib körpə qaz olduq.
Gəldilər bizi tutmağa,
Kəsib qazana atmağa.
Biz qışqırdıq, qaqqıldaşdıq,
Tutanın üstünə qaçdıq.
Elə ki qazanda bişdik,
Səhvimizi başa düşdük.
"Can" dediklərimiz gəlib,
Bizi süfrələrə bölüb,
İştahla yeyib – içdilər,
Bizim bu "qəflət"imizə
Qəhqəh çəkib gülüşdülər.
Budur sözümün qısası:
Biz olduqsa, ay balalar
Siz olmayın qaz balası!

*1990*

### DÜNYADA TƏK ADLAR QALIR

Düşünməyir bunu bir an
Getmək üçün gələn insan:
Biri cahil,
Biri loğman,
Biri doğru, biri yalan,
Biri qatil, biri nadan
Gah qan içib,
Gah töküb qan,

Boxçasında xeyir və şər,
Olub gah bəd, gah xoş xəbər,
Gümüş yığıb, qızıl yığıb,
Səksən, doxsan, yüz il yığıb...

Bəzən ayıq, bəzən sərxoş,
Özü çılpaq, süfrəsi boş,
Köçüb öz son mənzilinə
O haqq-hesab elinə.
Dünyada tək adlar qalıb,
Nə yaxşılar, nə yamanlar
Nə qəmginlər, şadlar qalıb.
Getmək üçün gəlib insan,
Dərk etməyir qafil bunu,
Burda qonaq olduğunu.
Burda qoyub gedəcəkdir
Halal, haram sərvətini,
Həm yalançı şöhrətini.

*1993*

## SİLVA KAPUTİKYANA AÇIQ MƏKTUB

Dilimdə ən əziz olan kəlamla
Sözə başlayıram haqqı-salamla.
Bir adın – şairə,
Bir adın – ana!
Niyə sığışmırsız Ermənistana?
Ya ölüm!
Ya da ki:
"Bölüm!" deyirsiz.
Qonşu torpağına "elim" deyirsiz.
Buna necə gəlir, necə diliniz?
İşıqlı qəlbinə cavanların siz –
Qərəz toxumları səpərsiz nədən?
Niyə fitva verdin bu qərəzə sən!



Şerinə yamaqmı sənin haqq sözü,
Dilini yandırır bu torpaq sözü.
Biz sizə dost dedik,
"Torpaq!" dediniz!
Naxçıvan,
Qarabağ,
Qazax dediniz.
Dediniz sizinmiş Təbrizə qədər
Bizim o türbələr, qədim məbədlər.

Silva! Torpaq deyən şair sənmisən,
Öz şair zirvəndən hara enmisən?
Tarixi vərəqlə, bir də sal nəzər,
Gör nə günə qaldı o "cahangirlər"
Napoleon Rusiyaya qoşun yeritdi,
Rusiyadan qoşunsuz,
bayraqsız getdi.
Hitler Avropanı zəbt etdi, ancaq –
Sovetlər elindən bir ovuc torpaq
Qopara bilmədi o torpaq acı,
Tək zəhər içməyə qaldı əlacı.
Etdi Almaniyanı o para-para
Budur son qənimət qəsbkarlara!

Qonşunu qardaşdan irəli bilən
Xalqımın adından söz açıram mən;
Üç qədim qonşuyuq Zaqafqaziyada,
Bu qədim dostluğu verməyək bada.
Nə qədər erməni zəhmətkeşinə
Xalqım tarix boyu açıbdır sinə.
Siz niyə od atıb qonşu mülkünə
Yandırıb, müqəssir sayırsız bizi?
Qırğına verirsiz gənclərimizi?

Tarix belə yazıb taleyimizi,
Bizi qonşu edib əzəldən bəri.
Haraya köçürək kəndi, şəhəri,

Qəbir daşlarını əcdadımızın?
Şairsən, bunları bir düşün özün.
Haqdan, ədalətdən dəm vuran şair,
Sənin bu yalançı ədalətində
Neçə oğul ölür, ana ağlayır.
Qəbirlər düzləyib, məbədlər yıxmaq
Sizə tarix boyu bir adət olmuş.
Qonşu torpağını qəsb etmək meyli
Hansı qəsbkara səadət olmuş?
Niyə yaddan çıxıb dostluq illəri,
Qana batırırsız bu dost elləri?
Xalqı xalqa qarşı qoyanların siz,
Yaman aqibətin yaxşı bilirsiz...
Qıymayın erməni cavanlarına,
Bizim xalqımızın oğlanlarına!
Onların toy-nişan yaşıdır, şair!
Onlar təzə açmış gülə oxşayır.

Ey şair qələmli oğul anası!
Toy məclislərinə salmayaq yası!
"Qığılcımdan alov törəyər"sə siz
Bu odu nə üçün üfləyirsiniz?

Çıxdı xalq önünə dünən bir qansız,
Sən "bacı" dediyin fitnəkar bir qız,
Qışqırdı araya qan salmaq üçün,
Göz yaşı tökdürüb can almaq üçün:
Tələsin, qardaşlar!
Bu ermənilərin kökünü kəsin!
Özgəsi deyiləm, mən, mən də – sizəm.
Sizin namusunuz, qeyrətinizəm!
Bizim alçaldırlar qeyrətimizi,
Gəlmişik köməyə çağıraq sizi
Tələsin, qardaşlar!
Bəsdir, tələsin!
Bu ermənilərin başını kəsin!
Mən də qurban verrəm iki balamı.



Gör necə uydurdu bu qız yalanı.
Erməni qızıymış, sən demə bu şər!
Onu məhkum etsin qoy ermənilər!
Fitnəymiş bu şərin hər sözü, andı,
Bir çox fəlakətlər belə yarandı...

Qoymadıq Bakıda o gün qan olsun,
Erməni fitnəsi evyıxan olsun.
Biz dosta dost olduq,
Düşmənə düşmən.
Tamah xəncərini gəl qına qoy sən,
Silva! İki "taxtın" sultanıyıq biz,
Şairə və Ana!
Bizim hökmümüz
Gərək qərəzlərin yolunu kəssin.
Analar dostluğa, sülhə tələssin!
"Qonşunu qardaşdan irəli" bilən
Bu nəcib xalqımın eşit səsini!
Tamah qılıncıyla o torpaq bölən
Xəbislərin gördük faciəsini...

Bu nifaq salanlar bilmirmi məgər,
Ancaq xalqa dəyir dəyən zərbələr.
Dağılır minillik yurdlar, yuvalar,
Kədər içindədir ellər, obalar.
Qəbirdən dursalar müdrik babalar
Kəsərdi bu torpaq deyən dilləri,
Qonşu torpağına gizli uzanan
O murdar əlləri,
Həris əlləri...

Bizim xalqımızın öz varlığını
Qorumağa qadir oğulları var.
Qılınclar kəsməsin deyə qınını
İstərik dostluğa uzansın yollar!
Fəlakət bağında bülbüllər ötməz,
Qəsbkar bir xalqın tüstüsü tütməz.

Qonşuluq haqqını tapdayanların,
İdealsız, məsləksiz o insanların
Hakim ol, özün qur məhkəməsini!
Eşit bir illərin dalından gələn
Baban Abovyanın müdrik səsini.
Oxu bizim o böyük Mirzə Cəlilin
Xatırla "Kamança" hekayəsini.

Od-ocaq qonşusu ola-ola biz,
Niyə düşmən olsun nəsillərimiz?

Zəhmətlə, əməklə çörək qazanan,
Soyuqda üşüyən, istidə yanan,
Əlləri qabarlı zəhmətkeşlərin
Bu köçhaköçündən varmı xəbərin?
Yuvası dağılmış zəhmətkeşlərə
Qıymayaq, son qoyun bu zülmə, şərə.
Xalq fitva verməyir qırğına, qana,
Buna nə deyirsən, ey şair ana?!
Bilirsən bu dünya yazlı, qışlıdır,
Xeyir, şər özü də iki, başlıdır.

*1989*

## MİLYONÇUNUN YOXSUL QIZI

*Milyonçu Hacı Zeynalabdin*
*Tağıyevin qızı Sara xanıma ithaf*

Milyonçunun "yoxsul" qızı
Hakimlər əvvəlcə saymayıb bizi
Sonradan verirlər qiymətimizi...
Biz ucuz oluruq,
Qəbrimiz əziz.
Dəfn mərasimi neçə şirin söz,
Neçə odlu nitqlə çıxış edirlər,
"Milli borc'larını verib "əyanlar"



Sonra təşəxxüslə çıxıb gedirlər.
Mərhum əziz olur ancaq bircə gün.
Sonra yadlarından çıxır büsbütün,
Qəbir də, qəbirdə adsız yatan da.

Sənin fəlakətin sığmayır sözə:
Acı təhqirlərə sən dözə-dözə
Köhnə çantan dolu sənədlər ilə
Hey qışı, yazı,
Min-min qapı açdın, ey vətən qızı!
Çox sərt üzlər gördün, sözlər eşitdin,
Atanın haqqını dananlar ilə
Sən qəhrəman kimi döyüşə getdin.
Saçların ağardı,
Belin büküldü,
Üstünə nə qədər sərsəri güldü.
Qəbul otaqları qarşısında sən
Oturub aylarla qəbul gözlədin.
Ədalət hökmünü verəcək, dedin.
Ədalət özü də onda qan qusdu,
Zindanlar güncündə o da məhbusdu.
Gah qəbul etdilər səni salamsız,
Oldular dediyin sözə inamsız.

Atdılar üstünə sənədlərini
Dedilər: – Sən kimsən, bil öz yerini
Milyonçu qızısan, bir utan barı,
Dərin basdırmışıq milyonçuları.

Danışdın, sözünü dinləmədilər,
Hara getdinsə də yox-yox dedilər,
Hakim aqil olsa el dolandırar,
Nadanı milləti oda yandırar.
O zaman danıldı nə qədər haqlar,
"Stol ağaları" bizim qorxaqlar
Atanın haqqını belə dandılar,
Əliqanlılara çox inandılar.

Elə ki dövranın hökmü dəyişdi,
O əliqanlılar zirvədən düşdü
Çıxdı əsarətdən yazıq insanlar,
Çıxdı "qadağandan adlar, ünvanlar",
Dar gündə xalqına kömək olanlar
Tanındı kim imiş milyonçu atan,
Yetmiş il torpaqda o adsız yatan.
Ey əzablar çəkmiş qəhrəman qadın!
Bunu eşidəndə güldün, ağladın.
Sevincdən ağzında titrədi dilin,
Sənin dərdlərini unutmaz elin.
Xanım doğulmuşdun sən doğulanda,
Öldün xanım kimi yenə son anda.
Yoxsulluq hissini heç duymadın sən
Çünki zənginlərdən zəngindin mənən.
O zəngin ruhuna min rəhmət sənin!
Unutmaz heç zaman səni vətənin.
Qəbrinin üstünü güllər bəzəyir,
O sərtüzlülər yox, ellər bəzəyir.

*1992*

## DÜNYA DƏRDİ

*Melor Sturuanın "Tot bezumnıy mir"*
*kitabını oxuyub, şəkillərə baxarkən*

Səhnədə oyun başlanıb,
Gözlər səhnəyə tuşlanıb,
Döyüşür iki boksyor.
Qalib qıcıyıb dişini
Məğlubun gözünü oyur.

Məğlub bərk-bərk yapışmışdır,
Qalibin biləklərindən.
Ancaq qanlı sular axır,
Üzünə bəbəklərindən.



Qapanıb həris dodaqlar,
Uzun dırnaqlı barmaqlar
Bəbəkləri eşir... eşir...
O gözlərdən gilə-gilə,
Qanlı damlalar sürüşür.

Nə kimsə köməyə gəlir,
Nə kimsə həyəcana düşür.
Dollar-sərvət ehtirası
İnsanı belə dəyişir.

Oyun deyil, bu dəhşətdir,
İnsanlığa fəlakətdir.
Dizim üstə düşüb birdən
Sağ ol deyirəm bəxtim, sən!
O dəllallar ölkəsini
Eləmədin mənə vətən!

*1987*

## HAQQ VƏ ƏDALƏT!

Bu bəlkə bir quru sözmüş,
İnsan dar ayaqda ədalət gəzmiş.
Demə: fərmanları yazanlar üçün,
Xalqın biri "doğma", biri – "ögey"miş.
"Doğmalar" öldürür, hey çalır, çapır,
Yenə qanunlarda "bəraət" tapır.
Ölən haqsız olur, öldürən "haqlı"
Ögeylər məhbəsdə qolları bağlı
Ədalət deyirlər, ədalət hanı?
Tökülüb çoxdandır onun da qanı...
Bölüb tikə-tikə Azərbaycanı.
Qoymurlar of! Deyib səsi çıxmağa.
"Doğmalar" dalını söykəyib dağa,
Sən ey fərmanlarda "ögey" olanım!
Qoy dönüm başına min yol dolanım!
Xalqlara od verən, işıq verənsən –
Bizim planetin şöhrəti – sənsən!

Bu dövran əxlaqsız qadına oxşar,
Onu həmi almaq, həm satmaq olar.
Çətindir almaq da, satmaq da səni
Sən ey qəhrəmanlar, mərdlər Vətəni!
Mənim odlar yurdum, Azərbaycanım!
Qoy durum, başına bir də dolanım!

*1989*

## VƏTƏN OĞUL İSTƏYİR

Döymür sinəsinə hər an "mən" deyə,
Uca kürsülərdən "el-vətən"!- deyə,
Vermir boş sözlərdən nisyə hədiyyə -
Vətən oğulları vətənə qardaş!

Eldə sədaqətin öz meyarı var,
O, şöhrət hissindən uzaqda yaşar,
Heç kəs inanmayır, etmir etibar,
Sözünün qüvvəsi itənə, qardaş!
Qıraqda dolanıb, ortada yeyib,
Qeyrətdən dəm vurub, özünü öyüb,
Nə deyim, gen gündə oğulam, – deyib,
Dar gündə aradan itənə, qardaş!

Xalq oğul istəyir mərd, etibarlı,
Zəkası işıqlı, namuslu, arlı,
Uca dağlar kimi başı vüqarlı
O, elə, el ona güvənə, qardaş!

El kimin itirmiş haqqı-sayını?
Vermiş yaxşıların hörmət payını,
Mən necə qurum bu söz sarayını
Çatdıraq vətəni xoş günə, qardaş!

Çıxıb sınaqlardan bizim oğullar,
O canım oğullar, gözüm oğullar!
Göstərib döyüşdə dözüm, oğullar.
Bir səngər olubdur hər sinə, qardaş!



## TOPXANA DƏRDİ

Dağıtdılar Topxananı
Gördün burda nə qan oldu?
Azərbaycan gülüstanı
Talan oldu? Talan oldu

Yürüş etdi "dəmir" atlar
"Sürücüləri" bədzatlar,
Görənin ürəyi çatlar
Burda qan oldu, qan oldu!

Topxana el abidəsi,
Gəlir ordan fəryad səsi,
Hanı bu yerin yiyəsi?
Varlığımız yalan oldu!

Torpaq yandı, daş ağladı,
Yuva uçdu, quş ağladı,
Durna, qaranquş ağladı,
Elin dərdi kalan oldu!

Bədzatlar başladı işə,
Deyib, gülüşə – gülüşə,
Hanı o nəğməli meşə?
Bura çöl, biyaban oldu.

Yurdu oğulları saxlar,
Yığıldı mərdlər, qoçaqlar
Bizim "abidə" torpaqlar
Yenə gül-gülüstan oldu.

*1988*

## SULTANBUD DƏRDİ

Sultanbudun bülbülləri
Hara uçub?
Hanı o nəğməli səslər?
Sultanbudun çiçəkləri
Hara köçüb?
Hanı kölgəli vələslər?

Hanı o yaşıl talalar,
Yuvada ətcə balalar,
Hanı yemlikli talalar?
Hanı o nəhəng palıdlar?
Quşlar köçüb,
Güllər solub,
Gur bulaqlar quruyubdur,
Yeri qəhər bürüyübdür,
Nə göyünə bulud gələr,
Meşələri talan olmuş
Bu "səhraya" yağış çilər.

Bu meşələr zalımların baltasıyla
Kəsilibdir, talanıbdır,
Köksündə od qalanıbdır,
Göy buludsuz,
Yer çiçəksiz,
Quş yuvasız qalıb burda.
Kim qəsd etdi, kim bu yurda?
Sultanbudun adı qalıb,
Ürəklərdə odu qalıb.
Sultanbudun fəryadını
Eşitməyən qulaqlara
Pambıq tıxansın!
Sultanbudun fəryadını eşitməyəm
Alçaqların ürəyi yansın!

*1988*

## ORDU QƏZETİ

*Üçillik yubileyinə ithaf*

Üç yaşın mübarək, ordu qəzetim!
Anandır bu Odlar yurdu qəzetim!

Doğuldu sinəndə Qarabağ dağı...
Doğulduğun gündən vətən torpağı –
Səni cəbhələrdə döyüşçü gördü,



İgid övladları qoruyar yurdu.
Ağılda müdriksən,
Yaşda uşaqsan.
Ancaq qəhrəmansan,
Mərdsən,
Qoçaqsan!
Qələmin – süngüdür,
Sözlərin – güllə!..
Sən onu düşmənin köksünə zillə!
Səni sinəsində gəzdirən ərlər
Sözümüzü xalqa çatdır! – deyirlər.
Sən ey mərdlərimin cəbhə yoldaşı!
Bu adı daima vüqarla daşı!
Anan Odlar yurdu – Azərbaycanın
Səni təbrik edir, körpə tərlanım!
Mənim də bu şerim olsun güldəstə,
Qoyulsun söz dolu sinənin üstə!

*1995*

## TƏRCÜMEYİ HALDAN PARÇA

Nə ağlamağa gücüm var,
Nə gülməyə həvəsim,
Nə qışqırmağa səsim,
Nə də yük çəkməyə sinəm.
Gəl, məndən əl götür, ey qəm!

Ana babam Mustafa ağa,
Getdi yolsuz bir uzağa.
Səyalı xanım – nənəm də:
Getdi, bizi qoyub qəmdə.

O, sözü şəkərlim, ballım
Anam – o incə xəyallım
Getdi xanım Cəvahir də,
Qatdıq qəmi, dərdi dərdə.

Atam Paşaağa igitdi,
Bizi uşaqkən tərk etdi.
Bu yükləri çəkmir sinəm,
Gəl, məndən əl götür, ey qəm!

Getdi, dayılar da getdi,
Gül bağında tikan bitdi.
Xalalar bizi tərk etdi
Bu yükləri çəkmir sinəm,
Gəl, məndən əl götür, ey qəm!

Yaqutum, ay bircə bacım,
Ay hər dərdimə əlacım!
Qoy mən gedim səndən qabaq.
Həlim torpaq,
Zalım torpaq,
Mən ağrını alım, torpaq!
Qoy mən gedim ondan qabaq,
Aparsan da məni apar,
Yoxsa, lap qiyamət qopar!

*1985*

Getdin, qiyamət qopmadı,
Yaşayıram,
sinəmdə bir həsrət odu.
Onu torpaq söndürəcək,
Ruhun məni dindirəcək.

Getdin, ay anam əvəzi,
Ay atamın müdrik qızı
Könlüm olub qəm dənizi...
Çalxalanıram bu dəryada
Səni hər an salıb yada...

*1994*





## MUSTAFA KAMAL ATATÜRK

Gözündəki hiddətinə,
Əzab çəkmiş millətinə,
Sənin oğul qeyrətinə
Qurban olum!

Yenilməz döyüş əzminə,
Millətini işğallardan
Qurtardığın böyük günə,
Vətən, millət, xalq eşqinə
Qurban olum!

Ey Türk oğlu!
Ey yurdda sülh!
Cahanda sülh!
Deyən millət qəhrəmanı!
Sən istiqlala.can atan,
Bununçun qanlara batan
İnsanlığın övladısan.
Məzlumların dayağısan,
Sönməz ocaqlar odusan.

Sənin kişi vüqarına,
İşğallardan qurtardığın
Azad, zəngin diyarına,
Müqəddəs Türk torpağında
Məbəd olan məzarına
Qurban olum!

*1990*

## QƏRİBLƏRİM

Qaçqınlarım,
Qəriblərim,
Ey mənim müştəriblərim!
Siz dəryanın o tayında,
Ayrılığın harayında
Bu tayda ağlayan mənəm.

Aymı buludda ilişdi,
Aramıza zülmət düşdü,
Bu necə gəliş – gedişdi?
Su verən yox, yanır sinəm.

Dövran bizi biçdi getdi,
Bir tərəfim uçdu, getdi,
Bir tərəfim köçdü getdi,
Öldürməzmi məni bu qəm?

Yazımız beləymiş əlbət,
İstərəm ömürdən möhlət,
Bir də görüşə ya qismət?!
Mən də daha batan günəm.

*1990*

## TÜRKİYƏYƏ GEDƏN YOLLAR

Türkiyəyə gedən yollar,
Məni məftun edən yollar
Həm yaxındır,
Həm uzaqdır.
Bir tərəfi Qara dəniz,
Arxası meşəli dağdır.
Biz yol getdik sübhə qədər,
Ürəyimdə sevinc, kədər,
Həm həsrətli xatirələr...
Qara dəniz yol boyunca
Yaşıl rəngli qumaş kimi
Sərilmişdi.



Göy sulara ağ ulduzlar
Hörülmüşdü.
Yetmiş bir il bundan qabaq,
Bu yollarla mühacirət dünyasına
Sürgün, qaçaq
Gedənləri yada saldım.
Ürəyimi oda saldım.
Yanır hələ tüstülənə-tüstülənə...
İnanmıram bir vaxt sönə.

*1991*

## TÜRK ELLƏRİ

Sənə mərdlər yola saldım,
Ağır dərdlər yola saldım,
Gedib, qayıtmayanları
Durnalardan xəbər aldım
Türk elləri! Türk elləri!

Əziz babam oğulları
Qaçaq keçdilər yolları.
Hey baxdılar yurda sarı...
Qara saçlara düşdü dən.
Vətən oldun onlara sən
Türk elləri! Türk elləri!

Bayrağına səcdə qıllam,
Qəribləri səndə bullam.
Mərdlərinə qurban ollam
Türk elləri! Türk elləri!

Qanlı qadağan ilində,
Qara dəniz sahilində
Çağırdım doğma dilində
Türk elləri! Türk elləri!

Atatürkün vətənisən,
Şərqin gülü-gülşənisən.
Heç el dərdi görməyəsən
Türk elləri! Türk elləri!

Mən bir pozulmaz yazıyam,
Odlar yurdunun qızıyam,
Sənə məftun Dilbaziyəm.
Türk elləri!
Türk elləri!

*1984*

## YAŞIL İRMAK

Yaşıl İrmak!
Yaşıl İrmak!
Gəl Araza qoşul irmak!
Ürək həsrət,
Yollar uzaq...
Solmamış ömrün gülşəni,
Əzizləri yetir mənə
Biz bir gülüb,
Bir ağlayaq.

Yaşıl İrmak!
Yaşıl İrmak!
Araz çaya qoşul, İrmak!
Solur çiçək,
Solur yarpaq,
Bir dön, bizim yerlərdən ax!
Bir qayığa götür məni!
Döndərib dağ çiçəyinə
Sahilində bitir məni!

*1991*

## SARP

Bir qılıncla ikiyə
Bölünmüşdür bir bədən.
Bu bölgünü görəndə
Ürəkdən ağladım mən.



Bir ah çəkib inlədim
Ahım göyə ucaldı...
Göyün yeddi qatına
Bu ah vəlvələ saldı:
Buludları ağlatdı...
Mənim də göz yaşımı
Axan sellərə qatdı
Bu sel, bu göz yaşları
Axdı Qara dənizə,
Mənim bu fəryadımı
Çatdırmaq üçün sizə
Mənim kimi torpağı
Bölünmüş ölkənizə.

*1991*

## AĞPİNAR

Ağpinar, qara pinar,
Çəkildim dara, pinar!
Bir məni ara, pinar
Düşdüyüm nə halətdir?

Ağpinar, qara pinar,
Yol gedir hara, pinar?
Yurd qalsa sara pinar
Gör, bu nə qiyamətdir!

Ağpinar, qara pinar,
Qövr edir yara, pinar,
Gəl eylə çara, pinar!
Gəlişin səadətdir.

Neçə qəsbkar əli
Uzanıb bura, pinar,
Bizim odlar gözəli
Düşübdür dara, pinar
Gör bu nə fəlakətdir!

## BOZ KÜLÜMDƏN

Aramızda Qara dəniz
Görünmür ucu, bucağı,
O yanda sizin ölkəniz –
Qədim, şanlı türk torpağı.
Bu yanda bir həsrətli var
Qarşısında Qara dəniz,
Arxasında uca dağlar...
Uzalı qalıb əlləri...
Sarp dağlarının döşündə
Ney çalır payız yelləri.
O həsrətli dağ döşündə
Oturubdur bir daş üstə
Həsrətindən daşa dönmüş...
Necə dəfə yanıb, sönmüş...
Boz külünü əsən yellər
Qoy dağıtsın iki yana
O yanda sizin ellərə,
Bu yanda Azərbaycana –
Qara dəniz sahilindən...
Bizim vətən torpaqları
Ağ gül açsın
Boz külümdən.

*1991*

## ÖZÜM DÖNDÜM BAŞDAŞINA

Xəyalımda yaşatdığım,
Həsrətilə boy atdığım
Amasiya!
Torpağına basdım qədəm,
Açılmadı könlüm nədən?
Əzizlərin görüşünə
Gəldim qəbirlər başına
Heyrətimdən elə dondum,
Özüm döndüm "başdaşı"na...
Kirpiklərim həsrət qaldı
Bir damlacıq göz yaşına.



Elə yandım,
Elə yandım,
Tüstümü görən olmadı.
Torpaq lal, daşlar soyuqdu,
Mənə səs verən olmadı.

Mənim bu qəmli halıma
Göydə buludlar ağladı.
Yağış yağdı narın-narın,
Bu mənim göz yaşlarımdı,
Yudu burda yatanların
Soyuq mərmər daşlarını,
Mən belə görüşə gəldim
Anamın qardaşlarını.

*1991*

## O QATAR NƏ QATARDI

O qatar nə qatardı:
Canı candan qopardı,
Sizi aldı apardı,
Gözdə göz yaşı qaldı.

Bu gecə nə gecəydi,
Həsrəti məni əydi.
Sinəmə bir ox dəydi,
Üzdə göz yaşı qaldı.

Bu necə ayrılıqdı
Könül mülkümü yıxdı.
Qarşıya hicran çıxdı,
Sözdə göz yaşı qaldı.

Gəldiniz, siz gedəndə
Duydum, qəribəm mən də,
Elə sandım sinəmdə
Bir həsrət daşı qaldı.

Ürək görüş eşqində
Görüşdük bir xoş gündə,
Getdiniz, od içində
Bir simurq quşu qaldı.

*1990*

## SƏN GEDƏNDƏ

*Dayım Yasin bəyin xatirəsinə*

Sən gedəndə mən uşaqdım,
Arxanca hey baxdım, baxdım.
Bilmirdim gedirsən niyə,
Azərbaycan deyə-deyə?

Sən gedəndə yaz fəsliydi,
Bağçalar bülbül səsliydi,
Gəlmişdi köçəri quşlar,
Eyvanında qaranquşlar
Qəmli-qəmli ötüşürdü,
Evə qəmli səs düşürdü...

Sən gözümdən uzaqlaşdın,
Bizim kənd yolunu aşdın,
Nal səslərini eşitdim,
Gözü yaşlı evə getdim.
Sənin anan,
Mənim nənəm
Gözündə yaş
Üzündə qəm
Namaz üstə sənə dua eyləyirdi,
Dodaqları asta-asta
Bu sözləri söyləyirdi:
-Ey arxamın dağı oğul,
Get, allaha əmanət ol!
Daş üstündə çiçək bitir,
Qayıt, cənəzəmi götür.



Cənazəni götürmədi
Anasını son mənzilə
Ancaq oğul ötürmədi,
Günlər aya,
Aylar ilə
Dönə, dönə
Ömür getdi,
Görüşünə inam itdi.
Ananın qəbri üstündə
Həsrət çiçəkləri bitdi...

Sən gedəndə mən uşaqdım,
Arxanca hey...
Baxdım-baxdım...
Nə biləydim bunu ancaq:
Bu yollar həsrət yolları,
Qürbət yolları olacaq.

*1989*

## YOLUNU GÖZLƏDİKLƏRİM

Qışın növrağı pozular,
Çəməndə otlar quzular,
Taledən görüş yazılar,
Gələnə qurban olaram.

Buludun bağrı sökülər,
Torpağa inci tökülər,
Həsrətin beli bükülər,
Könlü çıraqban olaram.

Sizdən bir xoş xəbər ola,
Karvanınız çıxa yola,
Könlüm eşqlə dola-dola,
Karvana sarban olaram.

Açılar ağ yasəmənlər,
Əlvan geyinər çəmənlər.
Gələrsiz gönlüm sevənlər,
Misirdə sutan olaram.

Başı dumanlı bir dağam,
Gəlin, nə qədər ki sağam.
Bu gün – sabah boz torpağam
Gözlərdən pünhan olaram.

*1990*

## GÖZÜ YOLDA QALANLARIM

Qürbət elə səpələnib,
Gözü yolda qalanlarım,
Dəniz kimi ləpələnib,
Dərdiümman olanlarım!

El həsrəti hər gün canda-
Sizi yaxıb-yandıranda,
Ağlayırıq biz bu yanda,
Qürbətdə qocalanlarım!

Sərhədlərin yolu bağlı,
Yaşadınız könlü dağlı,
Vətən qızı, vətən oğlu,
Qəm mülkündə sultanlarım!

Dövran bizə dağlar çəkdi,
Gül bağında tikan əkdi,
Qansızlar hey... qanlar tökdü
Hardasız, qəhrəmanlarım?!

Qoyun mələr, quzu mələr,
Yüzü ağlar, yüzü mələr,
Özü gəlməz, sözü gələr
Adı qərib olanlarım.

Bu həsrətlə öldü nənəm,
İncə belini bükdü qəm,
Eşidin! Ağlayan mənəm!
Qürbət eldə qalanlarım!



Bir canım var, olsun o da,
Qəriblərim, sizə fəda!
Od yurduna gəlin oda,
Ürəyi pərişanlarım!

*1989*

## KAMAL KARAN

*Anamın dayısı*
*alim Məhəmməd əfəndi oğlu*

Kök – soyu uludan ulu,
Ürəyi atəşlə dolu,
Yolu – Türk xalqının yolu,
Alim Məhməd əfəndinin
Vəkil oğlu!
Adı – Atatürkün adı.
Ürəiyndə:
O ürəyin sönməz odu...
Qanı-qanıma qarışıq,
Haqqa, ədalətə aşıq
Sözü qılıncdan kəsərli,
Cəsarətli, həm hünərli
Kamal Karan!
Ürəyim sizə həsrətdir.
Bü qəlbimdə cocuqluqdan
Yaşadığım məhəbbətdir.

*1991*

## ORXAN

*Türkiyədə doğulan*
*dayım oğlu Orxan Karana*

Getdin Yapon ellərinə
Azərbaycana gəlmədin!
Dözdük həsrət illərinə,
Azərbaycana gəlmədin!

Vədə verdin şirin dilnən,
Dedin: – Darıxmayın, gəlləm!
Biz gözlədik səni elnən
Azərbaycana gəlmədin!

Çoxlarımız "gedər" oldu,
Çox arzular hədər oldu,
Qismətim də kədər oldu,
Azərbaycana gəlmədin!

Aman ayrılıq əlindən,
Yaman ayrılıq əlindən,
Gül dərdin yadlar elindən,
Bu gülüstana gəlmədin!

Hanı bizim ər dayımız?
Hanı məhəbbət payımız?
Orxan! Azaldı sayımız...
Azərbaycana gəlmədin!

*1992*

## QƏRİB RƏHMAN

Qarmonunda dərdimizi çalırsan
Yanır oda dinləyən də, çalan da.
Ürəklərə həsrət odu salırsan,
Oğul orda, ana qalıb bu yanda,
Tufan olur göy buludla dolanda

Qarmonunda sən qəmimi çalırsan,
Fəryadımı, sitəmimi çalırsan,
Gəl amandı belə çalma, Rəhmanım!
Bir yanım – od, buzluqlardır bir yanım
Sən çalanda alovlanır hicranım
Qürbət eldə qalan qərib Rəhmanım!



Aramızda hey... qılınclar sıyrılıb,
Can bədəndən, bədən candan ayrılıb,
Oğul dedi son nəfəsdə analar,
Məzarına oğul torpaq atmadı.
Tək qocaldı qaragözlü sonalar,
İki sevgi bir-birinə çatmadı.

Tərsə dönsün çərxi belə zamanın,
Dad əlindən belə qanlı dövranın,
Belə dərdli çalma, qərib Rəhmanım!
Külə dönür gözü yolda qalanlar,
Qürbət elə oğul yola salanlar.

Yandı... yandı, illər boyu bu qəmdə,
Oğulları qərib olan nənəm də.
Son nəfəsdə oğul dedi, nə çarə,
Yad oğullar qoydu onu məzarə.
Çərxi dönsün belə zalım dövranın,
Qarmonunu belə çalma, Rəhmanım!

Qövr eləyir ürəklərdə yaralar,
Tərlan uçsa yuvasını sar alar,
Qürbət eldə qəbirlər də qəribdir,
Zaman bizə gör nə dərdlər veribdir?
Belə çalma, oğul yaram qan verir,
Oğul orda, ana burda can verir,
Biz ümmanıq, sinəmizdə tufanlar,
Canım qurban sizə, qərib Rəhmanlar
Mən qəmliyəm, uçulubdur dörd yanım
Qarmonunu belə çalma, Rəhmanım.

*1989*

## RƏQİBİN VARSA

Rəqibin varsa da:
Deməк, sən varsan.
Ancaq o, özünə bərabər olsun.
O, nəcib olarsa sən bəxtiyarsan,
Xəbis olsa, sənə bu kədər olsun.
Əgər kamildirsə, bu kamilliyi
Görməyə özündə qoy hünər olsun,
Rəqibin olsa da, olsun, qoy ancaq,
Olmasın o xain,
Bir də ki, nadan,
Xain üzə gülər, vurar arxadan,
Nəciblik, kamililk adi söz deyil,
İgid basdığını kəsməz heç zaman,
Rəqiblə rəqiblik etmək istəsən:
Öz sənət eşqinə ibadət et sən.
Təsdiq etsin səni inkar edənlər,
Bircə an vaxtını itirmə hədər.

*1984*





*Bu silsilədə gedən şeirlər dünya şöhrətli Azərbaycan oğluna – Heydər Əliyevə duyduğum iftixar hissindən yaranmışdır.*

## AQİL MÖTƏBƏR

Bir xalqın başında aqil, mötəbər,
Tədbirli bir başçı durmasa əgər,
O xalqı qurd nədir,
Tülkülər yeyər.

Bir xalqın başında xalq, millətcanlı,
Dönməz, cəsarətli, təmiz vicdanlı,
Xalqlar arasında şöhrətli, şanlı
Bir başçı durmasa, sözündə kəsər
O xalqın başını düşmənlər əyər
Onu ac tülkülər, çaqqallar yeyər.

Aqilə, cahilə fərq qoymayanlar,
Yeyib xalq malını heç doymayanlar,
Bunu hardan bilər o kor vicdanlar
Bir xalqın başında bir ər oğlu – ər
Durmasa əgər,
O xalqı tülkülər, çaqqallar yeyər.

Sən ey Ər oğullar böyüdən millət,
Sənə min təzim!
Sənə min hörmət!

*1996*

## OĞUL QEYRƏTİ

*Əziz oğlumuz*
*Heydər Əliyevə ithaf*

Cavidi vətənə gətirən oğul,
Onu öz xalqına yetirən oğul,
Xalqının misilsiz qayğılarını
Öz çiyni üstünə götürən oğul,
Var olsun bu oğul qeyrətin sənin!

Böyük işlər gördün böyük hünərlə,
Bəzədin vətəni abidələrlə,
Cavidlə görüşdük, bu şad xəbərlə
Çoxaldı bir daha hörmətin sənin!

Sağ ol xalqımızın igidi, mərdi!
Bu bir şücaətdi, bu bir hünərdi:
Getdi sinəmizdən Cavidin dərdi,
Unutmaz bu haqqı millətin sənin.

Tarix nə üz görür, nə rüşvət alır,
Tarixdə tarixi həqiqət qalır.
Adın həqiqətlə birgə ucalır,
Xalqına xidmətdir-şöhrətin sənin.

Əhsən kamalına, əqlinə əhsən!
Bir xalqın oğlusan, demirəm təksən,
Sən xalqa endikcə, yüksələcəksən,
Adi xidmət deyil, xidmətin sənin.

Aqillər unutmur bu haqq-sayı:
Cəfərin türbəsi, Vurğun sarayı.
Vaqif məbədinin hardadır tayı?
Xalqına şöhrətdir qüdrətin sənin.

*1982*



## ŞÜCAƏTLİ ƏZİZİM

*1969-1983-cü illərdə*
*respublikamıza rəhbərlik etmiş*
*hörmətli Heydər Əliyevə ithaf*

Vətənimiz də birdir,
Torpağımız da bizim.
Üstü mavi zolaqlı
Bayrağımız da bizim.

Ocaqlara od verən
Bir ocağın oduyuq,
İnamlı, etiqadlı
Bir xalqın övladıyıq.

Bizim yolumuz çətin,
İradəmiz sarsılmaz,
İnamımız da birdir.
Bu yol ağır savaşlı
Bizim bu günümüzdən
Aydın sabaha gedir.

Bu yüksəliş yoluyla
Gedir xalqımız bizim.
Qabaqda sən gedirsən
Şücaətli əzizim!

İkiüzlü olanı
İki yandan vurursan,
İkisözlü olanı
Bir sözlə susdurursan.
Sən düşmənsən yalana,
Əliəyri olana.

Yaxşı divan tutursan
Vəzifələr başında
Hər gün haram pullarla
Ciblərini dolduran
Millətə ot yolduran

Qansız rüşvətxorlara,
Acgöz nankorlara.
Eşq olsun qüdrətinə,
Milli cəsarətinə.

Qanı doğma qanımız,
Milli qəhrəmanımız!
Xalqımızın Ər oğlu!
Millətə rəhbər oğlu!

*1974*

## QURTARDIN BÖLÜMDƏN AZƏRBAYCANI

*Torpağa tökülən*
*Bircə damla qan*
*Bahadır dünyanın*
*Sultanlığından.*

*Sədi Şirazi*

Başın göyə dayaqdır,
Ayağın yerə.
Gərib dağ sinəni sərt zərbələrə
Çiyinlərin üstə vətən torpağı,
Torpaqdan güc aldın "Antey"sayağı,
Qoymadın tökülsün sən qardaş qanı.
Qurtardın bölümdən Azərbaycanı!
Sən ey ağlıümman,
Ürəyi incə!
Sən həyat bəxş etdin minlərlə gəncə.
Açıb xəyanətin sən iç üzünü,
Silməkçün torpaqdan bu qan izini
Çağırdın, səs verdi sənə millətin.
Xalqı məğlub etmək çətindir, çətin!

*Bu şeir 1994-1995-ci illərdə*
*daxildəki çevriliş*
*cəhdləri vaxtı yazılıb.*



## SƏN DEDİN DÜNYAYA KİMDİR QƏSBKAR

*Sülh carçısı əziz*
*Heydər Əliyevə ithaf*

Erməni fitnəsi,
Erməni şəri
Qan töküb, aldadan zaman bəşəri
Sən dedin dunyaya həqiqətləri:
"Pambıq"la baş kəsən erməniləri
Sən sülhə səslədin, eşitmədilər.
Haqq yola çağırdın, ar etmədilər –
Böhtandan, şərdən.
Etdikləri qanlı cinayətlərdən...

Ey ağlı, zəkası xalqıma vüqar!
Sən dedin dünyaya, kimdir qəsbkar.
Kim qan tökür,
Kimin tökülür qanı?
Kimdir talan edən Azərbaycanı.
Var hansı millətdə bu qədər köçkün,
Qaçqın azarı?
Qəbirstanlarında uşaq məzarı?

Bizim anaların gözündən axan
Göz yaşı deyildir,
Şəhid qanıdır.

Məharətə baxın:
Görün kim, kimi
Dünyaya qəsbkar kimi tanıdır.
Döyüş tarixlərində
Bu həqiqətdir:
Qəsbkar qazancda
Ölən millətdir.
Dunya qərq olmamış qan dənizində
Dedin: Qəsbkarın yolunu kəsin!
Tələsin, insanlar!
Sülhə tələsin!

Qoruyaq dunyanın ehtişamını.
Dünya alqışlayır, ey sülh carçısı
Ölümsüz, qırğınsız sülh məramını.
Qoy versin Yaradan sənin kamını.

*1998*

## VƏTƏN OĞLU

Canında canımız,
Qanında qanımız olan oğul!
Oğullar arasında
Şəklinə baxdım neçə yol
Gözlərim işıqlandı...
Oğul qarşısında
Ana dayandı.
Dərin kamallı,
İncə xəyallı,
Böyükürəkli,
Ucaboylu,
Enlikürəkli
Dünya qarşısına çıxan mərdim!
Sənə bir çələng hörərdim
El məhəbbətindən olardı çiçəkləri.
Zaman soldurmayır
El qoyduğu çələngləri.

*1977*

## TƏBƏSSÜM VƏ TƏFƏKKÜR

Hər bir mübarək işdə
Təfəkkür də yaraşır,
Sifətinə gülüş də.

Gülüş günəş rəmzidir
O, buludu parçalar.
İnsanların qəlbini
Nura-işığa calar.



Təfəkkür axtarışdır –
İnsan səadətinə
Nurlu yol axtarışı.
Zülmətlərə yol açar
Təfəkkürü işıqlı
Bir oğul axtarışı.

Xalqa oğul olmaqsa
Elə asan iş deyil.
Xalq sevgisi, qayğısı
Sadə göstəriş deyil.

Xalq öz varislərini
Çətində, darda sınar.
Sınaqlarda qazanar
Bu şərəfi oğullar.

## MÜDRİKLİK

Ona dərd söyləsən danışma uzun,
Yazılı kitabdır onunçün üzün.
Oxuyar fikrini o bir baxışda,
Bilər bahardasan, ya da ki, qışda.

Duyar qəhərlənmiş tutqun səsindən,
Gözündə kirpiyin titrəməsindən.
Qayğısız ötənlər olmuş yanından,
Tək çıxa bilmirsən dərd ümmanından.

Təbiət insanı yaratmayıb tək,
İnsanı insana göndərib kömək.
Sən varkən, onunçün söz nəyə gərək!
O sözsüz oxuyur canlı kitabı.
İnsan iztirabı, insan əzabı
Onda əks etməsə göz nəyə gərək?
Çapmır o hər yana söz səməndini,
Bir sözlə, yüz sözün açır bəndini...

Ömürdən bizlərə verilən illər,
Mənasız keçməsin qoy heç bir anın.
Böyüdək vətənə müdrik nəsillər,
Müdriklər elidir Azərbaycanım!

*1978*

## VƏTƏN OĞULSUZ OLMASIN

*Yaxşıları öldürməyə*
*Xəbislərin çatır hiyləsi.*
*Nərimanın susduruldu illərlə səsi.*
*Bu səsi xalqa qaytardı öz yetirməsi.*

Dolaşıram şəhəri ürəyim ağrıyanda,
Nəriman bir tərəfdə, Əzizbəyov o yanda,
Baxıb gözüm dolusu qranit heykəllərə,
Qəlbimdəki ağrını sovuram yellərə.

İllər dözümlü illər!
Yarım yüzil insanlar qəlbində gəzdirdiyi
Ey qranit heykəllər!
İndi doğma Bakının nurlu sinəsi üstə,
Dayanın iftixarla!
Burdan mavi Xəzəri,
Sizə həsrət şəhəri seyr eləyin vüqarla!

Polad çiyinlər üstə,
Polad sinəli mərdlər
Babaları qaldırıb,
Qoydular dağın üstə.
Siz ey igidlər, ərlər!
Oğullu bəxtəvərlər!
Dayanmısız əzmlə doğma torpağın üstə!

Sınaqlardan keçirib tarix bizi hər zaman,
Şərqin qoca kahini xəbislərin felilə
Öldürülmüş Nəriman!



Oğlun döyüşdə öldü,
Oğulsuz qalmadın sən.
Sənə başqa oğullar böyütdü ana vətən.

Oğul həsrətli könlüm!
Qoy sənin də gözlərin
Buludlanıb dolmasın,
Təki vətən oğulsuz,
Xalq oğulsuz olmasın!

*1977*

## ALTI YÜZ İL

*Nəsimini yüz illərin zülmətindən çıxarıb, ədəbi irsini yaşadan varis hörmətli vətən oğlu Heydər Əliyevə ithaf.*

Altı yüz il tarix üçün
Nə çox deyil, nə az deyil.
Ancaq məhbus sənətkarçün
Yüzillərin ümmanları
Dayaz deyil...
Yüzillərin ümmanını
Keçib gələn böyük sənət
Əsrlərin keşməkeşli
Yollarında çəkdi möhnət...
Nəsil gərək, Varis gərək
Oğul gərək burda əlbət:
Hökümlərin, ehkamların
Qarşısında dura bilsin!
Prometey zəncirini
O, qollardan qıra bilsin!
Ey Nəsimi!
Ey Ənəlhaq!
Varisini yetişdirdi
Sənə vətən olan torpaq.
Topladılar yüzillərin

Yollarına səpələnmiş
Şerlərin hər sətrini,
Misraların gül ətrini,
Tonqalların atəşində
Gül olmayan ilhamını.
Yaşatdılar Ənəlhaqqın
İnsanlara "allah" deyən kəlamını.
Əsrlərin yolu uzaq,
Ümmanların suyu dərin...
Yüzillərə körpü saldı
Sənin igid nəsillərin.
Bağban olaq el bağında
Açılan güllər solmasın.
Vətən oğulsuz olmasın!

*1978*

## UNUDULMAZ ZƏRİFƏ XANIMIN ƏZİZ XATİRƏSİNƏ

O ağıl, o kamal, sədaqət rəmzi
Bənövşə fəslində tərk etdi bizi.
Üstünə tökülən güllər ağladı,
Ona ana deyən dillər ağladı.
Analıq etdiyi neçə oğul, qız,
Parlaq istedadlar qaldı anasız.
O qüdrət timsalı, böyük sərkərdə
Ağladı, dözməyib bu acı dərdə.
Tabutun üstünə əyilib başı,
Güllərə qarışdı onun göz yaşı.
Kişilər ağlasa ağlayar vətən,
Zəriflər zərifi, Zərifəmiz sən –
Nə ülvi qadındın, nə zəngin xilqət,
Sənsiz gözü yaşlı qalan məhəbbət
Sənin şöhrət oldu təmiz adına
Eşq olsun qüdrətli o sərkərdənin
Qəlbini fəth edən müdrik qadına!

*1985*



## ANA XEYİR – DUASI

Dərin kamalından olaraq xoşhal
Özündən xəbərsiz xəyalımda mən
O vətən oğlundan eylədim suval:
– Haradan almısan bu əzəməti,
Bu vətən eşqini, bu şücaəti,
Bunca müdrikliyi, bunca kamalı,
İşıqlı zəkanı, dərin xəyalı?!
– Elin adətinə oldum vəfalı,
Zəhmətlə yüksəldim, işdə ucaldım,
Kişilik dərsini mən eldən aldım.
Elin yolu oldu getdiyim yollar,
Mənə miras qaldı zəngin ağıllar...
Dedim: – Mən anayam, müdrik oğullar!
Xeyir-dualardan başqa nəyim var?!
Xeyir-dualarım sizə yar olsun,
Adınız vətənə iftixar olsun.
Xalqdan aldığınız mükafatlar da,
Sizə inam olsun, etibar olsun.

*1975*

## VƏTƏN OĞULSUZ OLMASIN

İgid oğul istəyir
Vətən hər dar günündə
Şücaətlə dayansın
Mərdim düşmən önündə
İgid oğul, ər oğul
Vətənin şöhrətidir
Tədbirli Rəhbər oğul
Xalqın səadətidir.

Gül üstə gül bitirir
Övladın fərliləri.
Vətən tarixi olur
Elin hünərliləri.

Sizə uğurlu yollar
Şücaətli oğullar
Vətənin qartalları!
Qədirbilən xalqımız
Bəzəyəcək güllərlə
Keçdiyiniz bu çətin,
Bu əzablı yolları!

*1977*

## ÖLKƏ-ÖLKƏ

Ey dünya şöhrətli mərdim!
Yüklənib el-vətən dərdin:
Sən neçə bulud örpəkli,
Qar örtüklü, buz bələkli
Neçə-neçə qışlı-yaylı,
Dəli tufanlar haraylı,
Dağ zirvələri aşırsan,
Çılğın ümmanlar keçirsən?
Qaçqınını, köçkününü –
Görmək üçün şən, bəxtiyar
Dolaşırsan ölkə-ölkə,
Diyar-diyar...
Üzündəki yorğunluğa
İşıq saçır:
Geniş alnındakı vüqar.

*1998*





## BİR ÖMÜR YAŞADIM

Bir ömür yaşadım ahlı, amanlı,
Bir ömür yaşadım başı dumanlı,
Bir ömür yaşadım xalqım sitəmdə,
Analar göz yaşlı, körpələr qəmdə.
Bir ömür yaşadım, bu ömür deyil,
Ölsün o şair ki, xalqı hürr deyil!
Bir ömür yaşadım daim zülümdə,
Torpağım, sərvətim, xalqım bölümdə.
Batır göz yaşına qələm əlimdə.
Yazmaqla qurtarmaz dərdlərim mənim,
Cəsur igidlərim, mərdlərim mənim,
Qanlı döyüşlərdə düşdülər qana,
Nə dağlar çəkildi Azərbaycana!...
Kaş, belə dünyada doğulmayaydım,
Doğuldumsa, kaş ki, qız olmayaydım,
Oğul doğulaydım nə olardı mən!
Milli hünərimi görəydi düşmən.
Qeyrət qılıncını alıb əlimə,
Qoymayaydım düşə xalqım bölümə.
Ordusu yenilməz igid olaydım,
Ölüm haqdır, ölsəm şəhid olaydım.
Şəhid məqamına yüksələydim kaş,
Gözü odlar görmüş şair vətəndaş!

*1994*

**AZƏRBAYCANIM**

Torpağı – türbət,
Suları – şərbət,
Günəşi – məlhəm,
Ayrılığı – qəm
Azərbaycanım!

Aranı, dağı,
Tərlan oylağı,
Könlüm çırağı,
Qızılgül bağı
Azərbaycanım!

Ana nəfəslim,
Qaranquş səslim,
Ellim, obalım,
Dağlar havalım
Azərbaycanım

Qızları dilbər,
Oğulları ər,
Odum, ocağım,
Ana qucağım,
Qalsam həyatım,
Ölsəm torpağım
Azərbaycanım!

*1987*

**BAKI**

Ocağım, odum
Kədərlim, şadım,
Sonsuz sərvətim,
Dünya şöhrətim
Bakı, can Bakı!



Fəxrim, vüqarım,
Odlar diyarım,
Sevincim, dərdim,
Yaralı mərdim
Qəhrəman Bakı!

Ey sərvət kanım,
Qədim ünvanım!
Şəhidlər şəhrim,
Ey qəhri-qəhrim
Pərişan Bakı!

Şöhrətim, şanım,
Ürəyim, canım,
Azərbaycanın
Çarpan ürəyi
Gülüstan Bakı!

**SAZLI-SÖZLÜ QARABAĞ**

Dağları bürüyən duman
Çənlibeli gizlətmə sən!
Həzin-həzin ötən kaman
Şahbulağı inlətmə sən!

Qırılar könlüm telləri,
Qəmli görsəm bu elləri,
Qarabağın bülbülləri
Qəmli-qəmli gəl ötmə sən!

Ey göz dikən bu torpağa,
Qorx ki, üstünə od yağa...
Sazlı-sözlü Qarabağa
Top səsləri dinlətmə, sən!

Bu torpağın mərdləri var,
Gəlsən başına od yağar...
Yol verməz sənə bu dağlar,
Çəkil yoldan, ey yolkəsən!

Kafər, göz dikmə bu yurda,
Verməyək quzunu qurda.
Qorx ki, qəbrin qalar burda
Bir də geriyə dönməzsən!

Qonşusuna xain çıxan,
Tutar səni tökdüyün qan,
Xəyanətə yoxdur aman,
Elə yanarsan sönməzsən!

*1988*

## YURD DEYİB AĞLAMA

Yurd deyib ağlama, gözünə qurban!
Orda nə yurd qalıb, nə ocaq daşı.
Orda düşmənlərin tökdükləri qan,
Orda nalələr var, orda göz yaşı...

Doğma yurd deyəndə niyə yanırsan?
Ora uçmaq üçün qanadlanırsan.
Orda torpağın da ahı dumandır,
Ağlama yurd deyib, anam, amandır!

Yurdu talan olur ağlayanların,
Hanı sarayların, xanımanların?
Al intiqamını axan qanların
Amandır, ağlama, mərdlər anası!
Sıyır qılıncını dərdlər anası!

*1995*

## QARABAĞ ŞİKƏSTƏSİ

Gurlayan toppuz səsidir
Qarabağın şikəstəsi.
Koroğlunun nərəsidir
Qarabağın şikəstəsi.



Qəhrəmanlıq himnimizdir,
Təlatümlü bir dənizdir,
Babalardan töhfəmizdir
Qarabağın şikəstəsi.

Xalqımızın nəfəsidir,
Elin sənət türbəsidir,
Bülbülün zənguləsidir
Qarabağın şikəstəsi.

O, müzəffər bir ordudur,
Qarabağ onun yurdudur,
Zirvədən çağlayan sudur
Qarabağın şikəstəsi.

Məşəl kimi yana-yana
Od verir o ruha, cana,
Biz dönürük qəhrəmana
Dinlədikcə bu gur səsi.
Can Qarabağ şikəstəsi!

*1989*

## ŞERİ QILINCLA YAZ

Deyir bizə qanla sulanan torpaq:
Şeri qələmlə yox, qılıncla yazaq.
Olsun hər misrada qılınc kəsəri,
Gəzsin qanad açıb, o cəbhələri...
Orda nə göz yaşı, nə də ah olsun!
İgidlər əlində o silah olsun.
Ucaldıb, ey qafil, fəryad səsini,
Oxuyub Qarabağ şikəstəsini
Gəl, belə zarıma düşmən önündə.
Doğma torpağını qaytaran gündə
Oxu o havanı, qoy əksi-sədan
Obalara düşsün, ellərə düşsün!
Şadlıq səsimizi dünya eşitsin!

*1996*

## NİYƏ AZƏRBAYCAN DİLİM-DİLİMDİR

Babam!
Necə dözdün bu ağrılara
Qılınclar ikiyə böləndə sizi?
Nənəm!
Neçə dəfə çəkildin dara,
Yadlar həll edəndə taleyinizi?
Belə ayırardı kim candan-canı
Olsun bir millətin iki ünvanı?
Bir yan – "cənub" olsun,
O bir yan - "şimal".
Prometey taleli olsun istiqbal?
Azadlıq zəncirdə boyansın qana;
Baş bir yana düşsün,
Ürək bir yana.
Ana bu tərəfdən –
– Oğul hey!... desin,
Oğul o tərəfdən –
– Ana!... can ana!...
Baş bir yana düşsün,
Ürək bir yana...
Olsun bir millətin iki sərhədi.
Bu zülmün, sitəmin yoxdurmu həddi?
Bölsə bir milləti iki qəsbkar,
Ey Tanrı!
Demə ki, mərhəmətin var!
Mərhəmətin varsa, bu nə zavaldır?
Bəlkə gözümüz kor, dilimiz laldır?
Şanlı bir millətin,
Qədim bir elin
Niyə fəryadını duyan olmadı?
Bir xalqı ikiyə bölən əllərin
Niyə zülmü sənə əyan olmadı?

Qədim körpülərin qırıldı tağı
Oldu bir millətin iki bayrağı.



Yarəb! Bu nə sitəm,
Bu nə zülümdür?
Niyə Azərbaycan
Dilim-dilimdir?!

*1989*

## QOYMAYIN AĞLAYIM MƏNİ

Mən ağlasam düşmən gülər,
Qoymayın ağlayım məni!
Ulduzlar yerə tökülər,
Qoymayın ağlayım məni!

Mən ağlasam daş ağlayar,
Göydə uçan quş ağlayar,
Yurdu dağılmış ağlayar,
Qoymayın ağlayım məni!

Mən ağlasam ağlar elim,
El ağlasa sınar belim,
Ərşə dayandı bu zülüm
Qoymayın ağlayım məni!

Arxam yağı, önüm yağı,
Bölünməz mərdlər torpağı!
Ay ellər, döyüşqabağı
Qoymayın ağlayım məni!

Biz nə qorxaq, nə naçarıq,
Bağlı qapılar açarıq,
Düşmən üstə od saçarıq.
Qoymayın ağlayım məni!

*1988*

## AĞLA, KAMANIM, AĞLA

*Ermənistandan köçkün azərbaycanlıların söhbətlərindən*

Buzovlar mıxda qaldı,
Sürü otlaqda qaldı,
Gündələr taxtın üstə,
Saclar ocaqda qaldı.
Ağla, kamanım, ağla!
Ağım-amanım, ağla!

Dağlar, dumanın hanı?
Sürü, çobanın hanı?
Kəsibdir dörd bir yanı,
Qəsbkar quyruq eşər,
Ac körpələr mələşər...
Ağla, kamanım, ağla!
Ahım, amanım, ağla!

Qapını düşmən aldı,
Eli didərgin saldı.
Köhlən atlar cilovda,
İtlər zəncirdə qaldı.
Ağla, kamanım, ağla!
Ahım, amanım, ağla!

Ey aşıq, bəndəm himə,
Toxunma sarı simə,
Daha mənim heç kimə
Gəlmir gümanım, ağla!
Ağım, amanım, ağla!

*1988*

## KƏRİM BABA

İcazə ver xəbər alım:
"Köçkün" olanda mahalın,
Kərim baba, ağ saqqalın
Göz yaşında islandımı?



Həsrətin var doğma kəndə,
Doğma yollar düşdü bəndə.
Sən yurdunu tərk edəndə
Axar sular dayandımı?

Bu nə ahdı, nə amandı,
El köçdü, yurdlar talandı,
Körpü sındı, yol bağlandı,
Axan sudumu, qandımı?

O zirvəsi duman dağlar,
Çiçəkləri ümman dağlar,
At sürdüyün göy yaylaqlar
QƏSB ELİNƏ calandımı?

Bağban oldun, bağlar saldın,
Qəsbkara barı qaldı.
Bənna oldun, evlər tikdin
Əlində qabarı qaldı,
Namərd bundan utandımı?

Mərd qonşu olsa namərdə,
Dərd üstündən düşər dərdə,
Orda qalan qəbirlərdə
Yatanların oyandımı?
Hanı sizin Zəngibasar?
Düşmən yola çəkdi hasar
Sən ey saçı, saqqalı qar!
Bu bir ani ayrılıqmı
Ya əbədi hicrandımı?

*1989*

## OĞUL OLANDA DA OLASAN QOÇAQ

*Zəngibasarda 10 kəndin camaatını ölümdən qurtaran Ələddin Cəfərova ithaf*

Kişisən, deyilsən içi boş papaq,
Sənə güc vermişdir anamız torpaq.
Oğul olanda da olasan qoçaq,
Qoçaq oğullara analar qurban!

Kişi var, boş qalsın onun papağı,
Düşmənə döyüşsüz verir torpağı,
Qurtardın ölümdən eli, oymağı,
Belə igidlərə sonalar qurban!

İnsan hünəriylə qazanır adı,
Elin dar ayaqda səni sınadı
Aciz, fərsiz olsa vətən övladı
Gələr canımızdan can alar düşmən.

Ev uçar çürüksə onun dirəyi,
Oğullar köksündə aslan ürəyi –
Vurmasa, xalqının duzu, çörəyi,
Yediyi, içdiyi qan olmazmı, qan?!

Dar olmuş daima "Şərin" meydanı,
Nahaq qan tökənin tökülər qanı.
Çağırılsın adın el qəhrəmanı
Belə oğullara analar qurban,
Gözəllər, göyçəklər, sonalar qurban!

*1988*

## QANADI QANLI QARANQUŞ

Qəmli-qəmli cikkildəmə
Qanadı qanlı qaranquş!
Gəldim, yuvam hanı demə,
Yazı tufanlı qaranquş!

Gəl, qəmli ötmə amandı!
Göy bulud, burda yer-qandı...
Köksün harda yaralandı
Yolu dumanlı qaranquş?

Harda düşdün bu tufana,
Qanadların batdı qana?
Baxma dağılmış yuvana
Ahlı, amanlı qaranquş?



Gəl oxu bahar havanı,
Şadlandır eli, obanı!
Ağ eyvanda qur yuvanı
Bahar ünvanlı qaranquş!

*1992*

## SAVALANIN TƏSBEHİ

Qardaş!
Sənin təsbehin
Bir sap üstə düzülmüş,
Niyə bizim xalqımız
Öz sapından üzülmüş?
Səpələnmiş hər yana:
Hində, Çinə, İrana,
Milyon kəndli, şəhərli,
Milyon yollu cahana.

Ay qardaşlar, bizə ki,
Süd vermişdir bir ana,
Bir ocağın oduyuq,
Bir xalqın övladıyıq,

Qılınclı qanunların,
Zalım hökmdarların
Zərbəsiylə dəyişib
Adımız, ünvanımız.
Dəyişməyib, min şükür
Bizim doğma qanımız,
Neçə dillər içində
Bu yüzillər içində
Dilimiz, imanımız.
Dünya dəniz kimidir:
Onun qabarması var,
Onun çəkilməsi var,
Ürəkdən ağlaması,

Yalandan gülməsi var,
İnşaallah birləşər
Bizi ayıran yollar
Mən bunu görməsəm də,
Yaxşı bilirəm ancaq!
Bunu mənim yatdığım
Lal torpaqlar duyacaq.

*1991*

**ÜMİD YOLU**

Sinəm – qranit dağı...
Hey döyürlər sinəmə
Bir qəlpəsi düşməyir.
Çağırıram hey... sizi
Səs sizə yetişməyir.
Fələk yaman fələkdir,
Hökmünü dəyişməyir.
Siz qürbət eldə qərib,
Mənsə sizsiz qəribəm.
Ah elə müztəribəm!
Ah elə müztəribəm!
İllərlə parçalandıq,
Biz yadlara calandıq.
Axtardıq ümid yolu...
Ey qərib vətən oğlu!
Bu yolla dönsən geri
Gəl qəbrimin üstünə
Gətir bu şad xəbəri.
Biz həsrətdə yaşadıq,
Sizdən uzaq olmasın
O azadlıq günləri!

*1989*



**QÜDRƏTİMİZ, QEYRƏTİMİZ**

Qüdrətimiz, qeyrətimiz
Ey cəbhə qəhrəmanları!

Bir ana fəryadı, ana harayı,
Ana məhəbbəti çağırır sizi!

Həcərin, Tomrisin, Tütibikənin
O kişi qeyrəti çağırır sizi!

Özü gülləsini köksünə sıxan
Qızların isməti çağırır sizi!

Köksünü tanklara sipər eyləyən,
Mərdlərin milləti çağırır sizi!

Bizim Odlar yurdu Azərbaycanın
Basılmaz şöhrəti çağırır sizi!

Bir ana fəryadı, ana üsyanı,
Şəhidlərin qanı çağırır sizi!

*1992*

**AĞLAR ELSİZ QALAN DAĞLAR**

Qarabağdan durna uçdu,
Qanadını qırıq gördüm.
Yuvalardan köçhaköçdu,
Arada ayrılıq gördüm.

Durnasız zirvələr ağlar,
Ağlar elsiz qalan dağlar,
Dağlarda al boyanıb qar,
Qövr elədi köhnə dərdim.

Ellərimiz qəhrəmanlı,
Mərdlər yatır köksü qanlı,
Çağırdım ahlı, amanlı,
Oyanmadı yatmış mərdim.

Üz döndərdim fələklərdən,
Daşa dönmüş ürəklərdən,
Qana batmış çiçəklərdən
Şəhidlərə çələng hördüm.

*1992*

## SON ZƏFƏR GÜNÜNƏ QƏDƏR

Günlər gəlir,
Aylar gedir...
Ömrümüzü talan edir.
Düşünürəm axşam, səhər:
Qarşıda mənim nə qədər
Görən ömür payım qalıb,
Sanlı günüm, ayım qalıb?

"Səksən, doxsan, bir gün yoxsan"
Mən üç nəslin nənəsiyəm,
Bu gün, sabah gedəsiyəm.
Ancaq getmək istəməzdim
Ürəyimdə bu qəm, kədər.
Ya rəb! Mənim millətimin
Son zəfər gününə qədər
Sən ömrümə ömür cala!
Son zəfər şerimi yazıb,
İntizarsız çıxım yola.

*1992*

## GÜLABLIYA MƏKTUB

Zərxara, hardasan?
Səsimə səs ver!
Bir şad xəbər göndər,
Mənə nəfəs ver!
And olsun bizi xəlq edən qüdrətə,
And olsun ondakı bu ülviyyətə,



Xalqıma duyduğum bu məhəbbətə,
And olsun, bir an
Sizi unutmadım!
Bilir Yaradan.
Çıxarmı yadımdan
O cənnət bağı,
Gülablı yaylağı,
Abdal bulağı.
O başı dumanlı
Koroğlu dağı.
Ömrümün tez keçən o illərini,
Qarabağın dilbər gözəllərini –
Sizi and olsun ki, unutmamışam,
İndi neyləyim ki, bir qarlı qışam.
Ürək – o ürəkdir,
Bəs qanad hanı?
O dağlar vurğunu, könlü şad, hanı?
Uçub, bir də görəm o gülüstanı
Gəzib o yerləri hey... qədəm-qədəm
Müqəddəs torpağı ziyarət edəm.

Necədir bir zaman gördüyüm yerlər,
Bu vurğun könlümü verdiyim yerlər,
O qarlı zirvələr, dərin dərələr,
Dumanı yeddi rəng o mənzərələr?
Deyməsin oraya düşmən ayağı,
Basıram köksümə mən Qarabağı –
Onun dərdlərini
və mərdlərini...
Alanda zəfərin şad xəbərini
Könlüm dağa dönür, cavanlaşıram.
Fikrən cəbhələri hey... dolaşıram...
Mənim salamımı,
Xeyir-duamı,
Çatdır vətən andlı qəhrəmanlara
Düşmən bağrı yaran o cavanlara.
Atalar yurdunu oğullar saxlar,
Kişisiz vətəni düşmən ayaqlar.

## ŞUŞADA DAĞLAR DUMANDI

Şuşada dağlar dumandı
Allah, sən saxla amandı!
Halımız sənə əyandı
Qoy qapılar bağlanmasın!

Qonşu verdin bizə xain,
Necə yaşayaq arxayın?
Ver xainin özün payın
Torpaq qanla sulanmasın!

Şuşanın soldu gülləri,
Didərgin düşdü elləri,
Qurtar, ey həsrət illəri!
Ürəyimiz dağlanmasın!

Ey dağların xan çobanı,
Naxırın, ağ sürün hanı?
Al tütəyi, çal havanı
El bizi məğlub sanmasın!

Körpələr, gəlinlər, dullar,
Çağırır o dərdi bollar,
Şuşaya açılan yollar
Ya rəb, bir də bağlanmasın!

Açılar bağlı qapılar,
Qapını açan tapılar.
Ev yıxan özü yıxılar
Qoy o buna inanmasın!

*1992*

## DURNAM, DAĞLARA XOŞ GƏLDİN

Köç eyləyib köçən durnam
Durnam, dağlara xoş gəldin!
Uzaq yollar açan durnam
Durnam, dağlara xoş gəldin!



Qaqqılda dağlar oyansın,
Bu ölüm, qırğın dayansın.
Uç, könüllər havalansın!
Durnam, dağlara xoş gəldin!

Gəlibdir fəslin baharı,
Meşələr geyinib sarı,
Uç buludlardan yuxarı
Durnam, dağlara xoş gəldin!

Gəldi, çatdı ömrün qışı,
Dərdlə ağartdım bu başı.
Könlümün köhnə sirdaşı
Durnam, dağlara xoş gəldin!

Şuşanın ağlar dağları,
Uçun buluddan yuxarı.
Var könlümün intizarı
Durnam, dağlara xoş gəldin!

*1992*

## QARABAĞDAN KÖÇƏN QUŞLAR

Qarabağdan köçən quşlar,
Yuvaları dağılmışlar,
Yurd yerində qalan daşlar!
Üstünüzü ot basdımı?

A düşmənə qalan dağlar,
Zirvənizdə bulud ağlar!
Elləri "köçkün" yaylaqlar
Köçkünlərindən küsdümü?

Qoynunuzda, ay meşələr,
Yaralı ceyranlar mələr.
Boynubükük bənövşələr
Cəlladlar yolu kəsdimi?

*1997*

## ŞƏHİD ANASI

Oğul payım, şəhid mərdim,
Səni yurda qurban verdim.
Balam, sinəndə qan gördüm
Sinəndəki qana qurban!

Oyan, yurdun qəhrəmanı!
Çağıran anandır, tanı!
Yudum sinəndəki qanı
Göz yaşımla, sənə qurban!

Mərd oğul ana ağlatmaz,
Döyüş vaxtı igid yatmaz!
Düşmən gəlir, tələs bir az,
Dur, gözünə ana qurban!

Dur, silahlan, mərd oğlu, mərd!
Od qılıncla gəlir namərd.
Bizi yenə bilməz bu dərd
Qılınc girməz qına, qurban!
Dur, gözünə ana qurban,
Köksündəki qana qurban!

*1992*

## HƏSRƏTƏM SİZƏ

Ey gözümün yaşı,
Sinəmin dağı,
Gözəl Qarabağın
Cənnət yaylağı –
Gülablı! Həsrətin sinəmi dağlar!
Başımda saçımın telləri ağlar.

Ey ballı qayalar,
Meşəli dağlar!
Ey otu, çiçəyi dərman yaylaqlar!
Moruqlu dərələr
Həsrətəm sizə!



Nərgizi, laləsi, reyhanı dizə
Çıxan talalar,
Dumanlı zirvələr,
Qədim qalalar
Həsrətəm sizə!

Koroğlu məskəni,
Qızılgül bağı,
İgidlər oylağı –
Şahbulaq dağı
Həsrətəm sənə!
Tanrı çatdırarmı ömrümü görən
Sizi mərdlər azad etdiyi günə?!

*1996*

## BU MİLLƏT SONSUZ DEYİL

Başı əsgər papaqlı,
Üstü əskər yaraqlı
Harda oğul görsəm mən,
İstəyirəm ki, öpəm
İşıqlı gözlərindən.
Al dəstələr bağlayam
Vətənin güllərindən,
Tutam o oğulların
Qüdrətli əllərindən
Deyəm: – qarı düşmən bil:
Bu millət sonsuz deyil!
Eşit kar dünya sən də:
Dağ uçmaz sel gələndə.

*1994*

## OD ƏLƏNƏR

Göyərməz qovrulmuş buğda,
Bar verməz bağbansız bağ da.
Səhrada tək qalmış dağ da
Enə-enə təpələnər.

Ovulsa qayanın döşü,
Alçalar onun da başı,
Dönüb olar çınqıl daşı
Dərələrə səpələnər.

Tufanlar döysə sinəni,
Dağım! Təpə görsəm səni,
Xəzan vursa bu gülşəni
Göz yaşlarım ləpələnər,
Yer üzünə səpələnər.

Hər damladan bir qanlı gül
Açar orda fəsil-fəsil.
Qəzəbimdən od ələnər,
Qəsbkarın torpağına
Səpələnər, səpələnər...

*1989*

## DANKO KİMİ

Vurğun, indi bizə elə gərəkdin
Qasırğa önünü kəsən dağ kimi.
Xalqının önündə sən gedəcəkdin
Ordu qabağında bir bayraq kimi.

Vurğun, indi bizə elə gərəkdin
Qaranlıq gecənin sabahı kimi.
Şərin qarşısını sən kəsəcəkdin
Sən müqəddəs xeyir allahı kimi.

Vurğun, indi bizə elə gərəkdin
Səsin ölkələrdən gələydi, qardaş!
Qısa həyatında sən nələr çəkdin...
Başqa bir zamanda doğulaydın kaş!

Filosof məntiqlim, bu yatış nədir,
Oyan qəhrəmanım! Yurd əldən gedir!
Oyan! El çağırır köməyə səni!
Dərdini dünyaya deməyə, səni!



El oğlu! Sən eldən əsirgəməzdin
Onun dar günündə öz köməyini.
Xalqının önündə məşəl edərdin
Sən də Vurğun kimi öz ürəyini.

*1989*

## İSTİQLAL NƏĞMƏSİ

Tez gedib,
Gec gələnim
Milli azadlığım mənim!
Xoş gəlibsən vətənə!
Döşənib yollarına gör nə qədər qanlı sinə:
Bölünüb torpağımız, qəsb olunur sərvətimiz,
Ah çəkib, qan tüpürüb millətimiz
Sən gedəli!
Uzanıb yurdumuza gör nə qədər düşmən əli.
Eşit, ey yurda fəda, Kürdə qəbirsiz yatanım!
Ey ölümsüz şühəda! Dəryada məskən tutanım!
Eşidin şad xəbərin fəryadı ərşə çatanın:
Sancılıb bayrağımız köksünə azad vətənin!
Haqsevən xalqı kimi məhbus olan bayrağımız,
Ona həsrət gözümüz, millətimiz, torpağımız.
Sizlərin gözləri ilə ona baxdıqca gülür,
Ulduzundan bu qaranlıqlara nurlar tökülür...
Göz gülür, qəlb açılır, hey baxıb ayparəsinə
Döşənib yollarına gör nə qədər qanlı sinə!

Qanlı köynəklərini mavi sular yuyanlarım!
Milli azadlığımın qurbanı qəhrəmanlarım!
Tökülən qanlarımız axmadı, mərdlər, havayı,
Qanlı sellərə batıb, uçdu o zülmün sarayı!
Siz təməl daşlarısız xalqımın azadlığına,
Ruhunuz gəlsin azad xalqımızın şadlığına:
Eşidin sözlərimi, ey şəhid övladları, siz:
Gör nə mərdlər yetirib, həm itirib millətimiz!
Bunu bilsin daha qoy yurdumun hər bir cavanı:
Vətən övladlarının hey tökülüb burda qanı...

Bu igidlər arasında görəcəksən babanı.
Boyanıb bayrağımın bir zolağı bax o qana!
Saldı dövran bizi hər anda tufandan-tufana,
Millətim qanla yazıb qurtuluşun fərmanını,
Halal etsin vətənə qoy o igidlər qanını!

*1991*

## QAFQAZIN QARTALI

*Qafqazın mərd oğlu general*
*Cövhər Dudayevə ithaf*

Yurd düşmənlərini məhv edə-edə,
Qafqazın Qartalı öldü zirvədə.
Gərdi qanadını dağların üstə,
Bizim dağlar!... deyə,
Zirvələr!... deyə,
Elə bir qiy vurdu o son nəfəsdə,
Dağlar silkələndi, sellər çağladı...
Bu ölümə min-min millət ağladı.
Sizdən nə gizlədim, ağladım mən də,
Yenilməz Qartallar dağı sinəmdə.

Zirvədə doğulan dərədə ölməz!
Zirvələrdən gəlir onun da səsi...
Qarğa – quzqunlara yem ola bilməz,
Qartallar, Şahinlər, Ərlər ölkəsi!

*1996*

## KİMDİR BU DAĞ ÇƏKƏN AZƏRBAYCANA

*Mart çevrilişi qurbanlarına*

Anayam, başımda illərin qarı,
Solğun yanağımda göz yaşları var.
Pərişan fikrimdə yurd ağrıları,
Sinəmdə elə bil duz daşları var.



Öldü oğulları Azərbaycanın,
Ölən də biz olduq, öldürən də biz.
Verin cavabını bu axan qanın,
Ey mənsəb, ey şöhrət hərislərimiz!

Düşmənə tuşlanan bu silahları,
Gənclərin köksünə kim tuşladı, kim?
Kim etdi bu zülmü, bu günahları?
Analar ağlatdı bu qanlı hökm.

Vəzifə illəti, şöhrət illəti,
Odlara salıbdır bütün milləti.
Kimin fitnəsiylə qardaş-qardaşı,
Öz qardaş əlilə boyayır qana?
Kimdir bu dağ çəkən AZƏRBAYCANA?

Sizin gözünüzdən axan göz yaşı,
Mənim gözlərimdən axır, analar!
Sizin qəlbinizi yandıran odun,
Tüstüsü başımdan çıxır analar.

Qadınam, anayam, şairəm mən də
Odlanır dərdlərin odu sinəmdə.
Yaşlı gözləriniz mənim bu dəmdə
Qəmli gözlərimə baxır, analar!

*1994*

## KÖRPƏLƏR

Bilgəh qəbiristanında
Muncuq kimi düzülüb
Yumruq boyda "təpə"lər
Bura bulud göz yaşı
Günəş bura nur ələr.
Bura sinəsi dağlı
Dərdli analar gələr
Göz yaşının selləri

Axar, daşları dələr.
Baxdım heyrət içində
Burda yatır dedilər:
Torpaqları bölümdə
Xalqı hərbi zülümdə
Olan bizim körpələr.

Bir qəmli layla çaldım
Qəbirlərin yanında
Ürəyim parçalandı
Könlümün üsyanında...

Laylay, yaralı xalqım!
Laylay, yumruq təpələr!
Bu təpələr qoynunda
Yatan məsum körpələr!

*1995*

## ƏFQAN TORPAĞINDA QALANLARIM

Getdi cavanlarım, dönmədi geri,
Uzaq səhralarda qəbirlər qaldı.
Çaldı qapıları ölüm xəbəri,
Torpağın altında gənclər qocaldı.
Qərib qəbirlərin üstündə hər an
Səhra küləkləri əsib, ağladı.
Başdaşlarını da insafsız zaman
Əyib yanı üstə tez torpaqladı.
Qaldı torpaq altda adlar, ünvanlar,
O səngər sinəli cavan oğlanlar
Gedib gəlmədilər bir daha geri
Çaldı qapıları ölüm xəbəri.

Əfqan torpağında tökülən qanlar
Ana göz yaşıdır, oğul qanıdır.
Bu qəmli günlərin şahidi olan
Şairlər, dünyanın pərişanıdır.

*1990*



## VEDİNİN YANI DAĞLAR

Vedinin yanı dağlar
Göz görməz, ürək ağlar,
Çiçəyi əlvan bağlar,
Yaylaqlar kimə qaldı?

Sinələrə dağ vuruldu,
El öz yurdundan ayrıldı,
Nəğmə susdu, saz qırıldı,
Fəryad sarı simə qaldı.

Yaz ərimez quzey qarı,
Gülü tər, nərgizi sarı,
Vedinin uca dağları
Ellər köçdü, qəmə qaldı.

Bu dərdlə yandı fərmanlar,
Su gətirin, ey insanlar!
Töküldü göz yaşı, qanlar
Neçə dağlı sinə qaldı.

El sözüdür: axar sular,
Axan yerdən bir də axar,
Aman, şair! Bizim dağlar,
Bizim yurdlar kimə qaldı!

*1988*

## ERMƏNİ HİYLƏSİ

Sağal, erməni "illət"i,
Çəkdirirsən, çək zilləti.
İnsanlığın fəlakəti –
Dirilib Qara Məliklər,
Xalqı qırğına sürüklər.

Artdıqca torpaq "illət"i,
Bu qəsbkarlıq xilqəti
Qırğına verir milləti,
Dirilib Qara Məliklər,
Xalqı ölümə sürüklər.

Ölüm ölümə sarılır,
Nə dincəlir, nə yorulur,
Ermənilər də qırılır,
Dirilib Qara Məliklər,
Xalqı qırğına sürüklər.

Özünü incitmə nahaq,
Baban burda oldu qonaq.
Sizinki deyil Qarabağ,
Bu tamah, Qara Məliklər,
Sizi qırğına sürüklər.

Ölüm ölümə sarılır,
Körpələr bağrı yarılır,
Məsum səbilər vurulur,
Dirilib Qara Məliklər
Xalqı qırğına sürüklər.

*1992*

## MƏZARINI İTİRDİK

Aşıq Alı, məzarını itirdik,
Zalım qonşu qəbirləri düzlədi.
Nə bir ovuc ordan torpaq götürdük,
Nə dərdimiz qələmlədi, sözlədi...

Aşıq Alı, məzarını itirdik,
Ələsgərin sümüklərin gətirdik.
Ver dedilər, "qardaş" deyib ötürdük,
Yaman "qardaş" yaman fürsət gözlədi.

Hara yazaq köçkünlərin sayını,
Necə keçək biz göz yaşı çayını?
Cavanların yaslı etdik toyunu,
Qonşu bizi astarladı, üzlədi.

Hara qaçaq yamanların əlindən,
Bu ahların, amanların əlindən?
Aşıq Alı, ayrı düşdün elindən,
Məzarını xain əllər düzlədi,
Ey insanlar! Şər xeyiri izlədi.

*1988*



## GÖYÇƏ DƏRDİ

Qəsbkara qalan Göyçəm,
El-obası talan Göyçəm
Ağ güllərin qara bitsin!
El yurduna dönməyincə.

Qoy axmasın bulaqların,
Gül açmasın yaylaqların,
Tikan bitirsin dağların
Yad bayrağı enməyincə.

Yurd saldıq qaldı namərdə,
Ağlar burda göy də, yerdə də,
Yanmayacaq el çırağı
Qurduğunuz ağ evlərdə
Yad çırağı sönməyincə.

*1993*

## AĞLAR QALAN GÖYÇƏ GÖLÜM

Ağlar qalan Göyçə gölüm
Sən ağlama, mən ağlaram!
Ay didərgin düşən elim!
Sən ağlama, mən ağlaram!

Göycənin qarlı dağları,
Buz bulaqlı yaylaqları,
Qocaları, uşaqları
Sən ağlama, mən ağlaram!

Tərlan yurdu qaldı sara,
Sinəmdə göynəyir yara,
Həsrət gözüm o dağlara
Sən ağlama! Mən ağlaram!

Hanı bizim Sultan bəylər?
Bir nərəsi ordu əylər.
Göyçə üstə dolan göylər
Sən ağlama! Mən ağlaram!

Kəsilmişəm dilim-dilim,
Bölünübdür obam, elim,
"Sevan" olan Göyçə gölüm
Sən ağlama, mən ağlaram!

*1993*

## AVROPANIN NƏ VECİNƏ

Avropanın nə vecinə
Qarabağda axır qanlar.
Qədim Qazax torpağında
Qəsb olunub gülüstanlar.
Naxçıvanın dərdlərini
Naxçıvanı görən anlar.

Avropanın nə vecinə:
Azərbaycan torpağında
Susmaq bilməyir tufanlar.
Yurd uğrunda qurban gedir
İgid murazlı cavanlar.

Avropanın nə vecinə:
Bu şairlər torpağını,
Aranını, yaylağını
Bürüyübdür qəbristanlar.

Avropanın nə vecinə:
Öldürən kim, ölən kimdir?
Ağlayan kim, gülən kimdir?
Biri gəlir, biri gedir,
Hərə bizə bir vəd edir...
Biz qalmışıq dərd içində
Dərdimizi bilən kimdir?

*1995*



* * *

Dağ kimi görünür səhrada təpə,
Bağ kimi görünür çöldə "tək ağac",
Çiçəklər çəməndə vururlar ləpə,
"Bir çəngə ot ilə" quru bir yamac
Gözlərə çəmən tək görünür hərdən.
Çox insafsızlar da görmüşük bəzən
Sinəsi çeşməli "dağ" olan yerdə,
Hey dağ yoxluğundan söhbət açırlar.
Meyvəsi rəng-rəng "bağ" olan yerdə,
Bağlardan gözləri bağlı keçirlər.
Tapdayıb gülləri, gülüstanları,
Gül üçün yamaca, çölə qaçırlar.
Yaranan dağ kimi istedadları
Alçaq təpələrdən sanma, seçirlər.
Onların yanından həm yan keçirlər.
Bəlkə bu vicdanı korlar ucundan
Aqillər dünyadan dərdli köçürlər.

*1977*

## YÜNGÜLLÜK

Yüngüllük insana böyük kədərdir,
Burda hər nə varsa, gəldi-gedərdir.
Gündə bir "ətəyin" dalından düşən,
O kişi nə kişi, o ər nə ərdir?
Nəfsi tox, gözü tox ömür sürməksə –
Kişiyə, qadına əsil hünərdir.

*1977*

# Vəzifə məhək daşıdır

## MƏHƏK DAŞI

Oxucum:
Vəzifə məhək daşıdır,
Kamillik, naqislik sınanır burda.
Xalqa xidmət etmək kişi işidir,
Kimin vicdanı kor, ürəyi xırda,
Varlanmaq havası varsa başında
Azömürlü olur o xalq işində.

Dostun vəzifəyə keçərsə əgər,
O məhək daşından keçənə qədər
Üstünə atılma görüş anında,
Sonra utanarsan dostlar yanında.

Almaz salamını, alar bəlkə də.
Qaşları çatılar, bozarar üzü.
Beləsin çox gördüm bizim ölkədə
Onlar həll eylədi taleyimizi.

Bir dostum var idi, sevərdim candan,
Bir gün görüşməsək məndən küsərdi.
Ayrıla bilməzdim özüm də ondan,
Sayardım dostumu mərdlərin mərdi.

Bir gün vəzifəyə çəkdilər onu,
Mən onda bilmirdim vəzifə nədir?
Bilmirdim yetişib dostluğun sonu,
O məhək daşında sınağa gedir.

Mən onu görmədim bir xeyli müddət,
Sizdən nə gizlədim, darıxdım yaman.
Düşündüm: çoxalıb qayğısı əlbət,
İşindən, gücündən oldum nigaran.



Bir ali məclisdə gördüm dostumu,
Görüşə tələsdim mən əvvəlki tək.
O, mənim əlbəəl duydu qəsdimi,
Ötdü yanımdan da tez sürüşərək.
Sındı, pul-pul oldu sinəmdə ürək.
Günlər, aylar keçdi həmən görüşdən,
Atdılar dostumu tezliklə işdən.

Yenə bir məclisdə, ali iclasda
Qapıdan çıxırdıq, bu bashabasda.
Arxadan çiynimə bir əl yapışdı,
Ani bir duyğuyla çevrildim dala,
Burda məhək daşı yadıma düşdü.
Heyif ki, çatmayır sözün kəsəri,
Sizə təsvir edəm o lövhələri:

Necə yarıb keçdi o cərgələri,
Necə salamladı o dostum məni.
Var olsun insanın insanlığını
Bizə tanıtdıran vəzifələri!

*1970*

## MƏSUL İŞ

Məsul işə qoyuldun
Oğul, işin mübarək!
İnsanların dərdinə
Təbib olasan gərək.

Bil, ay oğul, nəçisən:
Sən xalqa xidmətçisən.

Unutma ki, buraya
Sən ağa gəlməmisən,
Yeməyə, kef çəkməyə,
Yığmağa gəlməmisən.

İşi dara düşənə
Sən təbib ol, o xəstə.
Yaxşı təbib boz üzlə
Gəlməz xəstənin üstə.

Yerə dikib gözünü,
Çox bozartma üzünü
İşi səndən keçənə.
Müdriklərin taleyi
Tapşırılmışdır sənə.

Yaxşı düşün nəçisən:
Sən xalqa xidmətçisən.
Vəzifəyə çatmısan,
Yağa, bala batmısan,
Sanma, ali bir zatsan,
Xalqın diliylə desək:
Sən məmur, bürokratsan.

*1990*

## DÜNYANIN YOLU

Dünyanın bir yolu var
Bir başı – ölüm yolu,
Bir başı – olum yolu.
Bu yolun min qolu var,
Güclüyə bölüm yolu,
Gücsüzə zülüm yolu.
Bir başı – əmək, zəhmət,
Binövrəsi – həqiqət
Obanın, elin yolu.
Ey insanlar! Siz məni
Bu son yolda axtarın!
Ölüm, zülüm yolunda
Atınızı az yorun!

*1988*



## ÖLÜDƏN İNTİQAM

Ölüdən intiqam almağa nə var,
*Ölüdən alçaqlar intiqam alar.*
Onun sağlığında dönər tülküyə
Qəbrinin üstündə qəhrəman olar.

Olmasın beləsi bizim torpaqda,
Vurmasın arxadan mərdə bıçaq da.
Xainin mənzili uzaq olmayır
Çox deyib atalar bizə bu haqda.

*1986*

## OLARMI?

Gəl səninlə eli gəzək,
Ağsaqqallar desin görək,
Haram maldan halal çörək,
Rüşvətdən ehsan olarmı?

Bir xəbər al sağ-solundan,
Çıxmayanlar haqq yolundan,
Qəsb olunmuş el malından,
Desinlər qurban olarmı?

Bilinmir yolların yaşı,
Danışdır torpağı, daşı,
Hər kişidən karvanbaşı,
Hər otdan dərman olarmı?

Halal mala haram qatsaq,
Müftə malı yeyib, yatsaq,
Əməksiz sərvətə çatsaq,
Vətən gülüstan olarmı?

Bir fikir də məni əyir,
Görək, buna el nə deyir:
Qafiyəli hər söz, şer
Hər füzul dastan olarmı?

*1981*

## ZİRVƏDƏN BAXANLAR

Qanadlar qaldırdı sizi zirvəyə,
Az qaldı başınız buluda dəyə,

Zirvədən aşağı salanda nəzər,
Sizə dayaz gəldi dərin dərələr.
Kiçildi elə bil geniş düzənlər.
Nöqtəyə döndülər nəzərinizdə
Cansız torpaqlara həyat verənlər.
Xalqın adı ilə qalxıb zirvəyə,
Xalqı unutdunuz xalq deyə-deyə.
Zirvəyə qalxdıqca qartallaşdınız,
Əllər caynaq olub, gözlər deşdiniz.
İllərlə siz xalqın qanın içdiniz.
Xalq! Dediz zirvədən düşəndə yenə,
Xalqa sığındınız siz dönə-dönə,
Xalqı çağırdınız köməyinizə,
Haram olsun xalqın çörəyi sizə!

*1960*

## GÖRDÜK

Xalq malını yeyənlərin
Öz malını talan gördük.

Mənəm-mənəm deyənlərin
Son gününü yaman gördük.

Vəzifəyə gələnlərin
Çoxunu can alan gördük.

Xalqa sadiq aqillərin
Dövrəsində ilan gördük.

Andı millət olanların
Əllərində hey... qan gördük.



Bu azadlıq illəriyçün
Biz nə qədər qurban verdik.

Küt baxışlar, soyuq üzlər,
Biz çox qanlı dövran gördük.

Bu azadlıq günləriyçün
Qırıldıq, qanlara batdıq,
Heyiflər ki, bu günlərə
Çoxlarımız
Əlləri əsalı çatdıq.

*1994*

## KƏŞFLƏR

Gilyətin bıçağı düzəltdi biri
Ülgücü başları kəssin bir anda.
Hərə kəşf etdi bir ölüm tədbiri
İnsan ağrıları az duysun canda.

Birisi yaratdı ölüm kürsüsü,
Müqəssiri dərhal döndərsin külə.
O, ölümə məhkum olan müttəhim
Ölüm əzabını bəlkə, az bilə.

Birisi düşündü dar ağacını,
İnsan az hiss etsin ağrı, acını.

Biri üstün tutdu güllələnməyi
Tez olsun insanın yanıb, sönməyi.
Kim deyə bilər ki, bu kəşflərin
Hansı "mərhəmətli", hansı qəddardır?
Qətlə yetməməkçün insan əlilə,
İnsan ölmək üçün öz əcəlilə,
Buna alimlərin nə kəşfi vardır?!

*1965-94*

## GETMƏK ÜÇÜN GƏLMİŞİK BİZ

Olma var-dövlətə müştaq,
Tamah səni edər dustaq,
Nə var dünyada qalacaq
Getmək üçün gəlmişik biz.

Dünya şirin, biz gözü ac,
Başlardan düşdü neçə tac,
Ölümə kim tapmış əlac,
Getmək üçün gəlmişik biz.

Düşün, aclar, yoxsullar var,
Həm ağalar, həm qullar var,
Başdan-başa keçdi taclar,
Getmək üçün gəlmişik biz.

Böl aclarla çörəyini,
Yığıb, sıxma ürəyini,
Yer gözləyir kürəyini
Getmək üçün gəlmişik biz.

Yığırsan dözüb zillətə,
Nəyin varsa ver millətə.
Etibar yox var-dövlətə,
Getmək üçün gəlmişik biz.

Dünyaya dedilər: "Gidi"
Kim qazandı, kimlər yedi?
Bu yığhayığ görən nədi?
Getmək üçün gəlmişik biz.

Kim ki o varı yeyəcək,
Yığana "əbləh" deyəcək.
Sonra goruna söyəcək,
Getmək üçün gəlmişik biz.



Çörəyinə haram qatma,
Gecə səksəkəli yatma,
Uzun ömrünü qısaltma,
Getmək üçün gəlmişik biz.

Nə yığsaq burda qalacaq,
Kim bilir kimin olacaq?
Bir evdə çox qalmaz qonaq,
Getmək üçün gəlmişik biz.

*1991*

## RÜBAİLƏR

Dinlə sözlərini bu pərişanın;
Xalqından ayrılma ey gözüm, canım.
Vəzifə şöhrəti köçəri quşdur,
Gördük son gününü sultanın, xanın.

Bu dünyagörmüşü dinlə ey cavan:
Xalqınla nəfəs al, xalqa arxalan.
Vəzifə ilməyi taxılan boyun,
Hər an o ilməkdə boğulur inan.

Qonşuda ac varsa bunu unutma,
Sən pulu onlardan gəl, əziz tutma.
Səxavət insanın yaraşığıdır,
Yoxsula pul versən əlini qıtma.

Pulu əzizləyib, yığma üst-üstə,
Bu həvəs, bil, səni eyləyər xəstə.
Varislər o pulu "gül dəstə" kimi
Gəlib qoymayacaq qəbrinin üstə.

İbadət eyləmə ey oğul, pula,
Bu ibadət səni çəkir pis yola.
Yükünü yüngül et, demiş Nizami
Ta ki, getdiyin yol əzabsız ola.

Qafil, vəzifənə gəl, az arxalan,
Stolun başına bəsdir, az dolan.
İllərlə yığdığın haram sərvəti
Bir gündə itirə bilərsən inan.

Özünü özündən qoru ey cavan,
Sənin öz içində yaşayır düşman.
Cilovla içində düşmən tamahı
Onun ölümünə özün ver fərman.

"Bal tutan barmağın yalar", bəs nədən,
Balı bütün yedin, ey tamahkar, sən?
Toxluq eyləmisən, indi başını
Qaldıra bilmirsən xəcalətindən.

Sən ibadət eylə öz sənətinə,
O, səni düşməyə qoymaz çətinə.
Əlin işdən, gücdən soyuyan zaman,
*Qoymaz səni özgə mərhəmətinə.*

Sən niyə xalqından belə uzaqsan?
Yenə də bu xalqa qayıdacaqsan.
Mənzili gödəkdir vəzifələrin,
Nə olar bir dönüb, dövrənə baxsan?

Dinləyin sözünü mərd qocalanın,
Minlərlə dərdlinin, dərdin alanın.
Dinləyin sözünü, dövran özünü
İndi bir dərmansız dərdə salanın.

*1995*

## PULUN HÖKMRANLIĞI

Cahillər məclisinə
Bir gün bir alim düşdü,
Pulun hökmüranlığın,
İnsanın nadanlığın
O, belə görməmişdi:
Bu məclisi quranlar,
Məclisdə oturanlar,



Biri dövlətdən dedi,
Dediyini qanmadı.
Biri millətdən dedi,
Millətdən utanmadı.
Biri sərvətdən dedi,
Nələr sadalanmadı...
Məclis "natiq"lə doldu,
Danışmayan, dinməyən,
Susan bir alim oldu.
Yemişdilər elə bil
Bu cahillər "dilotu",
Yarısərxoş bir lotu
Dedi: – Dillən, ay alim,
Ağzından dürr tökülsün,
Alim sözü eşitsin
Bir az üzümüz gülsün:
O, məclisə göz vurub,
Sonra qəh-qəhlə güldü...
Dedi: – Dillən, də bəsdi,
Ürəyimiz söküldü.
Alim dedi təmkinlə:
– Sən məni yaxşı dinlə,
Bu söhbətlər məclisdə
Əgər gəlirsə xoşa,
Məni düşməzsiz başa...
O məclisi tərk edib,
Dərhal evə qayıtdı,
Üzü üstündə yatdı.
Millət dərdi kişini
Hönkür-hönkür ağlatdı.

*1996*

## PREZİDENTLİK DAVASI

Başlarda şöhrət havası,
Prezidentlik davası...
Ali mənsəb ideyası...
Dağılır elin yuvası.

Xalqın birliyini pozan,
Get, döyüşdə şöhrət qazan.

Bu taxt sənət taxtı deyil
Ki, olsun ömrü yüz min il.
Sən xalq! deyib ötmə dil-dil,
Ey gündə bir böhtan yazan!...
Get, Qarabağ döyüşündə
Şöhrət qazan!

"Əlif"ə "Bey" deməyən də,
İş bilən də, bilməyən də,
Elə deyir, mən də!.. mən də!..
Seçilməsəm düşəcək qan.
Hərə verir bir cür fərman.

Yazıq Millət!
Fağır Millət!
Çəkmisən, çəkirsən zillət!
Öz sahibin gələr əlbət!
Bu bəd əməlləri pozar,
Tarixinə şöhrət yazar.

*1992*

## DÜŞÜNCƏLƏR

Yaman dalğın halım olur,
Pərişan əhvalım olur,
Kədər necə zalım olur,
Dad bu millət kədərindən!

Mərd namərdə möhtac olur,
Dünya qopmur məhvərindən.

Biri bizə ot yoldurur,
Biri cibini doldurur,
Cahil düşməni güldürür,
Alim ölür qəhərindən.



"Bəylər" şəhərdə turp əkir,
Uca binaları sökür,
Şəhər ağasının şükür!
Xəbəri yox şəhərindən.

Evlərin özlü sökülür,
Çattaq divarlar tökülür...
Kimə nə var ki, kim ölür,
Satan yeyir bəhərindən.

Aldan-verdən baş açmayan,
Qazanc dalınca qaçmayan
Şairlərin vay halına!
Çoxları haqqın yoluna
Əfsus başı qarlı getdi,
Xalqa çatmayan səsindən
Yaman intizarlı getdi.
Mən də onlardan biriyəm,
Nə ölüyəm, nə diriyəm.

*1996*

## YÜNGÜL ADAMLARLA

Yüngül adamlarla dostluq eyləmə,
Şərabla qızanda onların başı
Satır bir qədəhə dostu, yoldaşı,
Bir udum şərab ver, o qulun olsun,
Oynasın əlində futbol topu tək.
Tək şərab almağa bol pulun olsun,
O, sənin qarşında yer süpürəcək.
Çökəndə gözünə şərab dumanı,
Pozulur sərxoşun əhdi, peymanı,
Bir qədəh şəraba nəinki səni,
Satar o torpağı, ana vətəni.
Başı ayılanda biləcək nə var,
Ölümdən qorxuncdur yüngül adamlar.

*1989*

# İthaflar

## NİZAMİ

Nizami, sən neçə şah yola saldın,
Kamal dünyasının şahı sən oldun.

Yatır adsız, sansız adı "ulular",
Süfrəsi ləzizlər, cibi dolular.

Çoxdan unudulmuş o hökmüranlar,
O şahlar, sultanlar, "ulu" xaqanlar.

İndi taxt da sənin, tac da sənindir,
Ömrünü xalqına həsr edənindir.

Gəlir yüzillərin dalından bu səs:
Rahat yat ey adı, özü müqəddəs!

Sənət dünyasında ey şahlar şahı!
Nizami, ey fikrin böyük Allahı!

*1990*

## FÜZULİ

Ey Füzuli, eşq dolu bir badəyəm,
Mən sənin söz mülkünə səccadəyəm.
Varmasam dərgahına, od almasam,
Kim bilər, kim dərk edər ki, mən nəyəm.
Ey məhəbbət mülkünün bir dənəsi!
Sultanı!
Şahı!
Dürü –
Dürdanəsi!
Olmuşam mən eşqinin divanəsi,
Yanmağa od axtaran pərvanəyəm.

*1973*



## EY FÜZULİ

Ey Füzuli, bu pərişan dərdi – pünhan könlümü
Yandırıb odlara sən, neçün belə qan eylədin?

Mən sürüb qəm karvanım gəldim ki, sən eşq əhlisən,
Könlümü viran edib, sən bunca əfqan eylədin.

Gəlmişəm dərgahına, son qoy bu hicran ahıma,
Tez açıb qəm süfrəni sən məni mehman eylədin.

Ey məhəbbət mülkünün sultanı, eşq peyğəmbəri,
Eşq, sənət mülkünü sən gül-gülüstan eylədin.

Gəlmişəm vəslin bulum, sən vəslinə əlçatmazın,
Sən məni eşq taxtı üstə şaha sultan eylədin.

Sən mənə bəxş eylədin ey pir, bu sərvət kanını,
Könlümün mülkün o dəmdə çilçıraqban eylədin.

*1994*

## FÜZULİNİ DİNLƏRKƏN

*Bir şairi biyqədir həzinəm, əgər ölsəm,*
*Min təzkirə təhrir edəcəklər kəfənim.*
*Füzuli*

Sən aylı, ulduzlu bir asimansan,
Vüsalsan, həsrətsən, eşqsən, hicransan,
Dönüb bir ulduza könlümdə yansan,
Hər zərrəm nurunla işıqlanmazmı?

Qoy məni yandırsın bu odlu nəfəs,
Salsın öz sehrinə, bu sehrli səs!
Ey dost, xilasıma çalışma əbəs,
Eşqin dəryasında qərq olan azmı?

İstərəm üz sürəm mən o dərgaha,
Qatam öz ahımı, o çəkən aha,
Ərz edəm halımı o şahənşaha
Pərvanə od görsə, oda yanmazmı?

Gündüzüm həmdəmi, gecəm yoldaşı,
Sən oxu, qoy axsın gözümün yaşı.
Bu həsrət yolçusu, hicran sirdaşı,
Ah çəksə, ahından su da yanmazmı?

Füzuli eşqilə doludur sinəm,
Bu eşq zirvəsindən qoymayın enəm,
Bu ilahi eşqlə elə zənginəm...
Sərvət axtaranlar məni anmazmı?

*1989*

## OXU, RƏŞİD

*Rəşid Behbudova ithaf*

Oxu, Rəşid!
Qışda dağlar açsın çiçək,
Oxu! Olaq elə həzin,
Elə kövrək,
Yaz buludu kimi dolaq,
İsti yağan yağış olaq.

Elə keçək özümüzdən,
Könlümüzün çəməninə
Şeh çilənsin gözümüzdən...

Xəyal xəyala calansın,
Ürəyimiz havalansın,
Sönmüş ocaqda od yansın,
Kül altında "qor" közərsin,
Xəyalımız Gül bağlarında gül dərsin.



Oxu! Şimşək kimi çaxaq,
Həsrət bəndlərini yıxaq,
Ürəkdə sellər çağlasın,
Yarpaq tökmüş könlümüzün
Gülləri qönçə bağlasın...
Bülbüllər gəlsin bu bağa.
Oxu, Ələsgər dililə:
Səni yetirən torpağa,
Səni böyüdən bu xalqa
Olsun canımız sadağa.

*1989*

## MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN ƏKSİ QARŞISINDA

Üzündə xalqının böyük kədəri,
Xəyalında vətən xatirələri
Öldü yurdumuzun igidi, əri,
Qəbri qazılmadı öz torpağında.

Azərbaycan! – dedi o son nəfəsdə,
Bir xalqın həsrəti vardı bu səsdə,
Üçrəngli bayrağı başının üstə
Öldü, o müqəddəs söz dodağında.

Ruhuna min rəhmət, Məhəmməd Əmin!
Yurdu qurtarmağa etmişdin əmin.
Apardın könlündə bu elin qəmin...
Yurdun dar günündə, yaman çağında.

Zamanın nə qanlı hökümləri var!
Könlümün inləyən çox simləri var...
Adını çəkməyə yoxdu ixtiyar.
Türksən, rahat yat sən türk torpağında
Ruhun pərvaz etsin cənnət bağında.

*1990*

## FİRUDİN BƏY KÖÇƏRLİYƏ

Başına tuşlanan düşmən xəncəri
Xalqının qəlbinə tuşlandı sənin.
Bu müdhiş ölümün acı xəbəri
Sağalmaz dərdidir bizim vətənin.

Sinəmiz ocaqdır, sönmür məşəli,
Yandıqca gur yanıb, yandırır bizi.
O xəncər vuranın qurusun əli!
İllər var göynədir ürəyimizi...

O müqəddəs qanın tökülən yerə
Ruhlar hər zaman səcdəyə gəlir...
Dözməyib şair də bu bəd xəbərə,
Gündə neçə dəfə dirilir, ölür.

*1954*

## HEYDƏRBABA, ŞƏHRİYARIN NECƏ OLDU?

Heydərbaba, Şəhriyarın necə oldu?
Niyə dövran xalqımızla gec oldu?
Ayrılmazdıq, iki yandan güc oldu.
Paralanmış torpaq ağlar, el ağlar.

Yaman olur dərd ürəyi oyanda,
Biz bu yanda ağlarıq, siz o yanda.
Sənətkarı el məzara qoyanda,
İnsan nədir, kürək ağlar, bel ağlar.

Ürəyimdə neçə dərdin dağı var,
Günlərimin qarası var, ağı var.
Şəhriyarın necə oldu, a dağlar?
Bu ölümə göy kişnəyər, sel ağlar.

Heydərbaba, Şəhriyarın necə oldu,
O şöhrətin, o vüqarın necə oldu?
Özü demiş, "görüşmədik, gec oldu"
Bülbül öldü, gülüstanda gül ağlar.



## ÖLMƏ, MƏDİNƏ, AMANDI!

*Şairə Mədinə Gülgünün əziz xatirəsinə*

Ağaclar bağlayıb puçur,
Alçalar ağ çiçək açır,
Durnalar Təbrizə uçur,
Ölmə, Mədinə, amandı!
Şairə ölüm yaraşmaz,
Yaraşmaz, gülüm, yaraşmaz!
Şair eldən ayrı düşməz,
Ölmə, Mədinə, amandı!

Dumandır dağlar tək başı,
Eli qərq edən göz yaşı,
Tək qoyub getmə Balaşı,
Ölmə, Mədinə, amandı!

Dur novruz süfrəni bəzə,
Misraları düzə-düzə,
Dur gedək doğma Təbrizə,
Ölmə, Mədinə, amandı!

Aç gözünü, belə yatma,
Oğul-uşağı ağlatma,
Ulduz kimi doğdun, batma!
Ölmə, Mədinə, amandı!

Ey qəlbi həsrətlə dolu,
Təbrizin açıldı yolu,
Ölmə deyir Azəroğlu!
Ölmə, Mədinə, amandı!
Ölmə, Mədinə, amandı!

## SAZ, SÖZ QALANDIR

Ürəyim yaman dolubdur,
Bülbül ölüb, gül solubdur,
Dedilər, Əmrah ölübdür
Dedim, yalandır, yalandır!

Abdı-müğənnisi elin
Öldü, göz yaşımı silin!
Səsi gəlsin "qonçəgülün"
Könlüm talandır, talandır.

Ölüm şərbətini içdi,
İşıq Sıraclıda köçdü,
Mən demirəm, dünya heçdi,
Saz, söz qalandır, qalandır.

Qəm, xəncərin qalsın qında,
Qoy dincəlsin bu çılğın da,
Ürək, məni qəm dağında
Gəl, az dolandır, dolandır!

Mirvarid, gəl batma qəmə,
Ölüm aman vermiş kimə?
Vur mizrabı sarı simə,
Aşıq, amandır, amandır!

Dünya fani, biz köçəri,
Saz, söz qalandır, qalandır!

*1993*

## BÖYÜK HÜSEYN CAVİDƏ

Varlığı həqiqət, yoxluğu yalan,
Cavid! Ey ustadlar ustadı olan –
Bizi çox saxladın intizarda sən,
Bilmədik hardasan, ustad, harda sən?
Qaldın illər boyu qışda, qarda sən.
Yat, dincəl qoynunda Nəqşi-cahanın!
Vətən torpağında qızışsın canın.

Səni çox axtardıq şamla, çıraqla,
Bağlı qapıları açarlar haqla.
Şükür ki, qovuşdun doğma torpaqla!
Hökmü dəyişkəndir dövrün, zamanın.



Şairi əzizdir hər bir millətin,
Dizi bükülməyib heç həqiqətin.
Sözü məhkum etmək çətindir, çətin!
Sən öldün, yaşayır şöhrətin, şanın.

Bəzəsin qəbrini vətən gülləri,
Sənə layla çalsın bahar yelləri,
Qurtardı şairim, həsrət illəri,
Bağlandı yolları acı hicranın.

Ellər görüşünə gəlib, ey ustad!
Sənin necə ruhun olsun daha şad,
Sənə bütün millət olubdur övlad
Adın şöhrətidir Azərbaycanın!

*1982*

## MÜŞFİQİ ÖLDÜRDÜLƏR

Müşfiqi öldürdülər
Qarlı bir qış səhəri
Dan yeri söküləndə
Buzlu qarın üstünə
İsti qan töküləndə
Lərzəyə gəldi torpaq...
Tükü də tərpənmədi
Güllə atanın ancaq –
Çaxmağı bir də çaxdı,
Çaxdı o qansız, alçaq.

Şair ölümdən qabaq
Buludlu qış göyündə
Açılan sübhə baxdı,
Ölüm necə yaxındı...
Həyat necə uzaqdı...
Doldu pərişan gözlər...
Hayqırdı:
– Ey alçaqlar!

Şairi öldürməzlər!
Şairi öldürdülər
Ancaq əliqanlılar
Sübhün gözəl çağında,
Öz doğma torpağında.
Bu gülləni atanın,
Bu fərmanı verənin
Qoy adı bəlli olsun!
Onları lənətləyək,
Bizə təsəlli olsun.

Güllə xəlvət atıldı,
Səsi illərə çatdı.
O güllənin zərbəsi
Xalqımızı illərlə
Nəsil-nəsil ağlatdı.

*1981*

## SƏN KÖRPƏSƏN

Sən körpəsən, mən yaşlı,
Ömrüm baharlı, qışlı,
Məni işdən qoyubsan
Sən ey xumar baxışlı.

Qurbanam gülüşünə
Çətin çıxan dişinə,
Mən piyada gələrəm,
Çağırsan, görüşünə.

Sən əlimi tutursan,
Əlim şumlanmış tarla,
Sən qönçəsən, buçursan,
Gəlmisən ilk baharla.

Sən bənövşə qönçəsi,
Güllərin ən incəsi,
Sən sübhün al şəfəqi,
Mən qarlı qış gecəsi.



Sən sübhün ilk işığı,
Ömrümün yaraşığı,
Gül, gözünə qurbanam,
Gözlərimin işığı.

Gözlərin qara gözlər,
Baxırlar hara gözlər?
Bir gün səni görməsəm
Çəkillərm dara, gözlər.

Xumar gözün açıldı,
Evimə nur saçıldı,
Könlümdə illər tikən
Qəm sarayı uçuldu.

Baxırsan, dərinə bax!
Bu "kövşən" yerinə bax!
Könlümdə min yara var,
Sən təkcə birinə bax!

Beş ayına girənim,
Mənə həyat verənim,
Sən əsam ol, mən qoca
Gəlim, sənə dirənim.

Dünyanın işinə bax,
Yazına, qışına bax,
Çəkdiyi ağır yükə
Nənənin yaşına bax!

*1991*

Nənəmiz, babamız yurd salan yerdə
Dolaşmaq qismətim olarmı bir də?
Çaxan şimşəklərdən od ala canım,
Burda bir il keçir mənim hər anım.

Başımın üstünü kəsibdir azar,
Görək bundan sonra tale nə yazar?

Hüseyn, dağlara yolun düşəndə,
Dağlar məni səndən xəbər aldımı?
Ürəyim titrəyir dağlar deyəndə.
Görəsən, görüşə güman qaldımı?

*1982*

## CAVADIM

*Nəticəm bir yaşlı Cavada*

Dedik: – Hələ tezdir!
İnadla gəldin,
Uçdun bu dünyaya
Qanadla gəldin.
Üzün-süd qaymağı,
Xilqətin-mələk
Bəxşeyiş verirəm
Söylədi fələk
Bu tifli sizə.
Doğdun günəş kimi
Taleyimizə.
Üzü gül,
Dodağı gülüşlüm mənim!
Ay xumar baxışlım,
Süd dişlim mənim!
Səsin-musiqidir,
Nəfəsin – ətir.
Evimizdə körpə
Bir bülbül ötür.
Gəl qoca köksümə,
Laylanı çalım,
Başına dolanım,
Dərdini alım!
Gəl, körpə əllərin
Saçımı yolsun,
Sakit otağıma
Qəhqəhən dolsun,



Parlaq gözlərində
Ağıl işığı,
İnsan ağlı açır
Hər dolaşığı
Xalqına oğul ol,
Anana dayaq
Gözləri ay ağıl işıqlı UŞAQ!

*1991*

## ABŞERONUN ADAMLARI

Abşeronun əjdahası küləklər hərdən
Oyananda nəriltisi dağları dəlir.
Elə bil ki, qisas alır o yerdən, göydən
Bağ-bağçaya divan tutub sonra dincəlir.

Axır yerdə qırçın-qırçın qum ləpələri,
Qum yeriyir... Dümdüz olur qum təpələri,
Qum altında qalır evlər, uca hasarlar,
Bağ-bağçalar, qarağaclar, boyu çinarlar.

Soyuyanda bu vəhşinin qəzəbi, kini,
Yorğun torpaq, yorğun dəniz alır dincini.
Yaralanmış yarpaqları sığallayır gün.
Dalır dərin bir sükuta hər yan büsbütün...

İnsanlar da çıxır yenə bağa, bostana,
Haldan düşmüş ağacları gətirsin cana.
Qış tufanla, yay qızmarla durur üz-üzə,
Yüzillərlə davam edir bu mübarizə.

Abşeronun adamları qızğın kürədə
Əridilmiş, bərk döyülmüş dəmirə bənzər,
Tufanlara qalib gəlib, buna görə də
Torpağını təzə-təzə bağlarla bəzər.

Tezlik ilə Xəzrinin də, qarayelin də
Qanadları bükülücək onun əlində.

*1978*

## HƏYAT MÜƏLLİMİM

Anam – həyat müəllimim,
Sən doxsanı,
Mən yetmişi ötürmüşəm.
Yaşadığım illər boyu
Ağır yüklər götürmüşəm.
Namərdlikdən başqa mənim
Bu yükümdə nə desən var.
Yükümü açan insanlar
Deyəcəklər:
Bu rəhmətlik
Nə dözümlü,
Övladcanlı,
İstiqanlı,
Məhəbbətli insan imiş,
Dünyada həm sevinc görmüş
Həm qəm yemiş...
Nə sevincinə öyünmüş,
Nə qəminə bir "uf" demiş.
Ona üstün gələndə qəm,
Köməyinə çatmış qələm.
O şadlıq bəxş eləmişdir
Ona kədər bəxş edənə,
Dönə-dönə.

Ana! Ana!
Sən özün də ömür sürdün
Yana-yana...
Bu dözümü,
Bu şəfqəti,
Məhəbbəti
Miras verdin övladına.
Yaşı doxsana çatanım,
Torpaq altında yatanım!

*1985*



## HEÇ İGİD YOLSUZ OLMASIN

*Vətən oğulsuz olmasın silsiləsindən*

Fəhlə oğul!
Şanlı əmək cəbhəsinin
İlk yolçusu sən olmusan,
Sən yaradıb, yaşatmaqçün doğulmusan.
Əzminə,
İqtidarına!
Əllərinin qabarına qurban olum!

Gənc tələbə!
Gəncliyinə, qeyrətinə,
Haqq istəyən millətinə qurban olum!

Kəndli oğul!
Bar-bəhrəsi süfrəmizə bəzək olan,
Şan-şöhrəti zəhmət olan, əmək olan,
O arzuna, diləyinə,
Sarı buğda çörəyinə qurban olum!

Zəngin vətən torpağının
Çırağını yandıranlar,
Haqq işində mərd duranlar,
Bizim qeyrətli cavanlar!
Heç igid yolsuz olmasın,
Qanadsız, qolsuz olmasın,
Vətən oğulsuz olmasın!

## FANİ DÜNYA

Hanı Üzeyir, musiqinin sərkərdəsi?
Hanı Bülbül, Çənlibeldən gələ səsi?

Hanı Cavid, millətin Kahin oğlu,
Böyük sənət dünyasının şahin oğlu,
37-nin qurbanı Cavid hanı?

Hanı bizim dan ulduzu
Əhməd Cavad
Şeirimizin qəndi, duzu
Əhməd Cavad,
37-nin qurbanı böyük şair
Əhməd Cavad.

Hanı Müslüm Ərəbzəngi qılınc çala?
Hanı Cəfər, səhnəmizə bəzək ola?

Hanı Vurğun, kürsülərə sinə gərə?
Səsi düşə uzaq-uzaq ölkələrə.
Bu sənətə bütün xalqlar vurğun ola,
Ürəklərə Azərbaycan eşqi dola.

Hanı Müşfiq, çağlaya dağ çeşməsi tək,
Təbi coşqun, qəlbi kövrək,
37-nin qurbanı, ömrü gödək?

Hanı Rəsul, o kəsərli sözlər hanı?
Ağıl dolu, işıq dolu gözlər hanı?
Qəlbindəki o sönməyən odlar hanı,
Gözlər hanı?

Hanı Nigar, bir söz deyə nigarana?
Çağırıram yana-yana:
Şair ana! Şair ana
Səs ver səni çağırana!

Hanı bizim o qəhrəman Süleymanlar
Süleyman taxtı üstündə cüt otura indi onlar?
Hanı bizim Əhməd Cəmil?
Şeri, sözü, qəlbi incə,
O istedad, o təfəkkür,
O düşüncə?

Hanı cavan Böyükağa
O təzəcə açan qönçə?
Yaşasaydı, millət üçün,



Sənət üçün yaşayardı,
Zirvəsi buluda dəyən
O dağlara oxşayardı.

Hanı Adil, hanı Ənvər,
Bizim vətən bülbülləri?
Dünya elə sehirlidir,
Açmaq olmur bu sirləri.

Hanı bizim millətcanlı,
Xan ünvanlı,
Məmmədxanlı
Ənvər hanı?

Hanı Əli Vəliyevin
Sərrast vuran söz gülləsi?
Neçə-neçə bədəsilin susa səsi.

Hanı bizim Fərman Kərim –
O yurd dərdli,
Ömrü yarı?
Ağlar Vedinin dağları.

Hanı bizim sözü şirin, xətri əziz,
Hanı o Həsrətli Əli Tudəmiz?

Hanı dövrə o üsyankar Eldar Baxış?
Kürsülərdən azadlığa deyə alqış.

Hanı Mehdi, o sənətin keşikçisi,
Kürsülərdən gəlmir səsi?

Hanı bizim Tofiq Bayram?
Hey gurlaya mavi ekran...

Hanı elin dürdanəsi,
Şeri mirvarid danəsi
Hüseyn Arif təranəsi?

Xalqa miras qoyub elmin, sənətin
Mirzə İbrahimi getdi millətin –
Qanlı doxsan üçün son baharında,
Alim rahat yatsın qoy məzarında!
Adına min rəhmət!
Ruhuna hörmət!

Hanı Ordubadi, o "qılınc qələm"?
O böyük ustadı unutmaz aləm.

Hanı Seyid Hüseyn, o söz sərrafı?
O qələm sahibi, safların safı?

Hanı Salman Mümtaz, Çəmənzəminli?
Oldu xalqımızın düşməni kinli.

Hanı Əbülhəsən, "dünya qopdu"...
Yoxdur xəbəri deyəsən?

Cəlal Məmməd, o xeyirxah insan hanı
O saf, təmiz vicdan hanı?
Hanı Qaşqay, yer altını görən alim?
Yerin sirli qatlarından
Bizə xəbər verən alim?
Öldürdülər məhbəslərdə Əli Nazimi,
Unutmamış, unudarmı eli Nazimi?

Hanı bizim Əli Kərim
Qız həyalı o sənətkar?
Özü əfsus cavan getdi,
Poeziyası qaldı bizə bir yadigar.

Hanı Osman Sarıvəlli?
Bizə milli poeziyası bir təsəlli.

Hanı Rəhim, rəhm etmədi ona ölüm?
Ölüm vardır, ölüm ki,
Ölümü də oldu zülüm.

Hanı coşqun, vətəncanlı Xəlil Rza?
Qəsbkarın qəsb hökmünü poza-poza
Qəsbkara ölüm yaza.



Hanı bizim o Kürçaylı Əliağa,
Qələmindən şer inciləri yağa?!

O xilqəti nəcib, sadə,
Hanı təvazökar şair
Əziz Qasım Qasımzadə?
Hanı o İsmayıl Şıxlımız
O, ürəyi işıqlımız.
Hanı İlyas, səhnəmizin bər-bəzəyi
Nurlu sənətkar ürəyi?

Hanı İsa İsmayıl, o nəcib insan?
İllər keçsə çıxmaz yaddan.

Hanı Gülgün Mədinəmiz?
Səyyah olub qəm dağında
Azəroğlu gəzər onun sorağında.

Hanı Tofiq Mütəllibin incə ruhu
Hara uçdu?
Bizim sənət dünyamızdan
Bu nə yaman köçhaköçdü?!

Kənan oğlu Yusif kimi
Tanrı gözəl yaratdığı
Çətin dövrana atdığı
Vurğun oğlu Yusifi də
Aldı bizdən.
Bu itkinin ağrısını
Kim çıxardar qəlbimizdən?!

Bu Mirvarid Dilbazi də,
Bu el dərdli, el qızı da,
Bu gün, sabah gedəcəkdir.
Görən onu bu millətdən
Kim necə yad edəcəkdir?
Alimlərin, şairlərin, igidlərin
Hanı dünya?
Fani dünya!
Fani dünya!

*1998*

## XİLASKAR

*Dünya şöhrətli onkoloq cərrah*
*Əhliman Əmiraslanova ithaf*

Nə adi insansan, nə adi cərrah,
Səni mələklərin qanadlarında
Xilaskar göndərib bizimçün Allah.
Adi əl deyildir sənin əlin də;
Bu əl insanları vaxtsız ölümdən
Qurtaran əldir.
Ey alim!
Ey ustad! Neçə on ildir
Xilaskar tanıyır səni çox eldə
Ölümün cəngindən çəkib aldığın
Yazıq insanlar.
Kim bilir: bəlkə də neçə ölkədə
Yenə də yolunu gözləyənlər var.
Qadın olmasaydım tutub əlindən
Amansız ölümün gözünü tökən
Mən o barmaqları öpərdim bir-bir.
Onların zərbilə mənsiz qapandı
Bakıda adıma yazılan qəbir.

*1998*

## NƏVƏM LALƏYƏ

Laləsiz bağrı yanıq
Bir yetimi-zarəm mən.

Laləsiz keçsə günüm
Dil tutub ağlaram mən.

Laləsiz lalə kimi
Bağrımı dağlaram mən.

Laləsiz tufan olub,
Sel kimi çağlaram mən.



Laləsiz dərmanı yox
Dərdlərə düçaram mən.

Laləsiz zarı-pərişan
Necə naçaram mən.

Laləsiz Mirvaridin
Yerdə ayağı durmaz,

Yaralı bir quş olub
Göylərə uçaram mən.

*1995*

## ANAMIZA ANA DEYƏN

Mərmərin canı olsaydı,
Hər qəlpəsi qopan zaman,
Ağrısından, acısından,
Ovulardı, tökülərdi,
Toza, çınqıla dönərdi.

Sən isə:
Canlı mərmərsən.
Qəlpə nədir,
İrağ olsun, bir yanını qopartsalar,
Nə uf! deyər,
Nə də yolundan dönərsən.
Təkcə çatılar qaşların,
Bir az daha dərinləşər
O ağıllı baxışların.
Gənc alnına,
Bir vaxtsız da qırış düşər,
İztirabdan o da:
Elə dərinləşər...
Dərinləşər...
Və bu qədər.

Ömrüm, günüm,
Anamıza bir oğul da verdi illər.
Oğul bildi səni ellər.

Mənsə elə düşünürəm:
Hələ də sən –
Anamıza ana deyən,
Xalı üstə iməkləyən,
Qumral saçlı
O körpəsən.

*1978*

## ANA YADİGARI

*Anamıza ana deyən oğula*

Sükutun sehirli pıçıltıları
Döyüntü səsiydi ürəyimizin,
Sənin sifətində gənclik vüqarı
Qaranlıq gecədə şimşəkdi gözün.

Həsrət qaranlığı ümid işığı
Bir də ki gəncliyin öz yaraşığı –
Sənə bir gözəllik vermişdi ki sən –
Özün xəbərsizdin gözəlliyindən.

Otaq səssiz idi, susmuşduq biz də
Susmuşdu dərdimiz, sevincimiz də...
Bizi bir sehirbaz dar mıxa çəkib
Hərdən üstümüzə alovlar töküb
Hərdən də bir sərin su çiləyirdi.
Sənin gözlərinə gah zülmət çöküb
Gah da dodaqların gülümsəyirdi.
Mən sənə baxırdım, sən barmağımda
Parlayıb yanan o yaqut daşına,
Bəs niyə baxmadın, ey qəlbi incə,
Gözümdə parlayan həsrət yaşına?



Ana həsrətinin kədər dumanı
Sənin də gözünü buludlandırdı.
Ana yadigarı bu yaqut daşı
Xatirə oduna bizi yandırdı.

*1965*

## AZƏRBAYCAN QIZIYAM

Ürəyi vətən dağlı,
Günü qaralı, ağlı
Gəncəli, naxçıvanlı,
Qazaxlı, qarabağlı
Ağdamlı, lənkəranlı
Azərbaycan qızıyam!

Köküm ulu torpaqda,
Haqqın yolu torpaqda,
Fikrim, hissim, xəyalım
Daim haqqı sormaqda
Azərbaycan qızıyam!

Qırğınlar, qanlar görmüş,
Qanlı dövranlar görmüş,
Xalqımızın cəlladı
Zalım insanlar görmüş
Azərbaycan qızıyam!

Əslim – Dilbazilərdən
Mərdlər böyüdən yerdən,
Südüm mələk südüdür,
Sərvətim nəğmələrdən –
Özüm də Dilbaziyəm
Azərbaycan qızıyam!

*1994*

## KARVAN YOLU

Dünya ulu dünyadı,
Dərdlə dolu dünyadı,
Milyon-milyon illərin
Karvan yolu dünyadı.

Birimiz karvanbaşı,
Birimiz qala daşı,
Birimiz bu dünyanın
Kədərli vətəndaşı,
Silinməyən göz yaşı...
Qəmi, fəryadı olduq,
Birimiz ərköyünü
Birimiz şadı olduq.

Dünya karvan yoludur,
Yol zəvvarla doludur,
Biri cənnət bağına,
Biri şöhrət dağına,

Biri qəm torpağına
Yol gedir bu karvanın.
Qoca pir! Harayadır
Bəs sənin öz ünvanın?

*1988*

## FİKİRLƏRİN ÜMMANINDA

Mənim yoxdur oğullarım,
Banklarda saxlanc pullarım.
Yoxdur mənim əmim, dayım,
Var taledən çox qəm payım;
Ömrüm – ömürlərə calaq:
Biri – əfəl,
Biri – qoçaq,
Biri – sağlam
Biri – naçaq



Qalanı da körpə uşaq
Fikirlərin ümmanında
Qərq oluram çox gecələr,
Kirpiklərim qapanmayır
Sübhə qədər...
Can nəvələr!
Nəticələr!
Təhsillər pullu olanda,
Pulsuzlar dərsdən qalanda,
Cəhl qələbə çalanda,
Pulsuz uşaqların halı,
İstedadların iqbalı
Nə olacaq?
Hansı təbib,
Hansı loğman
Sağaldacaq bu illəti?
Bəs onda kim tanıyacaq
Nəsli təhsilsiz milləti?

*1999*

## ÜRƏYİMDƏ BİR QARABAĞ QƏMİ VAR

Ürəyimdə bir həsrətin qəmi var,
Elə qəmdir, heç bir qəmə bənzəməz.
Ürəyimin bir pərişan dəmi var,
Elə dəmdir, heç bir dəmə bənzəməz.

Sünbülünə yanğın düşmüş zəmiyəm,
Qəm selində bir qərq olan gəmiyəm,
Qəm üstündə köklü kaman simiyəm,
Elə simdir, heç bir simə bənzəməz.

Aman Allah! Könlümdəki nə qəmdir?
Bu qəm deyil, taleyimdən sitəmdir.
Xəyallarım indi mənə həmdəmdir,
Heç bir həmdəm bu həmdəmə bənzəməz.

Biləmmirəm bu nə aydı, nə ildi,
Göz yaşlarım kirpiyimdən süzüldü,

Əlim əldən,
Elim əldən üzüldü.
Bu matəmim bir matəmə bənzəməz.

Hər bir günün yaxşısı var, pəsi var,
Ürəyimdə bir fəryadın səsi var.
Bu fəryadın həm zili, həm pəsi var,
Bəmi zilə,
Zili bəmə bənzəməz.

Gah gülümsər, gözüm, gah da qan ağlar.
Hey dil tutub, ürək ağlar, can ağlar,
Ürəyimdə bir Qarabağ qəmi var,
Vətən qəmi heç bir qəmə bənzəməz.

*1989*

## MƏNİ FİKİRLİ GÖRSƏN

Məni fikirli görsən
Demə ki, bir qəmim var.
Mən vəcd aləmindəyəm,
Əlimdə qələmim var.

Məni fikirli görsən
Demə ki, möhnətdəyəm.
Sükutuma toxunma!
Xalqımla söhbətdəyəm.

Əynimi sadə görsən
Demə kasaddır əlim.
Mənim başqa geyimim,
Bəzəyim var, gözəlim!

Süfrəmi sadə görsən,
Utanma nemətlərin
Orda az-çoxluğundan.
Sənin nə xəbərin var:
Qələm sahiblərinin
Mənəvi toxluğundan.

*1997*



## AĞLAMA, SEVDAM, AĞLAMA

*Alim, yazıçı Mirzə İbrahimovun ölümünə ağlayan qızı bəstəkar Sevda xanıma*

Ağlama, Sevdam, ağlama!
Bu gedən elin oğludur.
Yaram üstə köz bağlama,
Ürəyim dərtdlə doludur.

Mən ildırım vurmuş dağam,
Ağacdakı son yarpağam,
Qoyma yağış olub yağam
Ağlama, Sevdam, ağlama!

Göz yaşın qəlbimə axdı,
Sinəmdə şimşəklər çaxdı,
Xalqımızın qəmli vaxtı
Ağlama, Sevdam, ağlama!

Vətəndə göz yaşı axır,
Sənə yaşlı gözlər baxır...
Hər evdən bir şəhid çıxır.
Ağlama, Sevdam, ağlama!

O ustad millətdən getdi,
Elimdən, sənətdən getdi,
Ölüm haqdı, həqiqətdi.
Ağlama sevdam ağlama!

Bəşəridir bil bu qırğın,
Əllisində getdi Vurğun.
Ata xidmətində yorğun
Ağlama, Sevdam, ağlama!

*1993*

## KƏDƏRLİ ŞAİRLİK YOLUNU SEÇDİM

Bir təpə üstündə evimiz vardı,
Baharda dövrəsi çiçək olardı.
Çiçəklər içində bir yaz günündə,
Təkcə oturmuşdum evin önündə.

Yaz yeni girmişdi, səhər günəşi
Çəmənlər üstünə şeh ələyirdi,
Sanki qulağımda bütün təbiət
İlahi nəğmələr bəstələyirdi...
Mən onda uşaqdım, nadinc, balaca,
Otlar qalxmışdı boyumdan uca,
Torpaq elə isti, elə yumşaqdı,
Sanki mənim kimi o da uşaqdı.
Ot təzə, çiçəklər ləpir-ləpirdi,
Günəş məst torpağı öpür-öpürdü,
O da mənim kimi xəyalpərəstdi,
Mən ondan, o isə günəşdən məstdi.
O bahar sübhündə, o gözəl gündə,
O isti torpağa qoydum üzümü,
Mavi sübh göyünə dikdim gözümü.
Birdən heç bilmirəm mənə nə oldu,
Ətrafım yeddi rəng işıqla doldu...
İşıq selə dönüb qəlbimə axdı...
Üzümə qanadlı bir mələk baxdı.
O, mənə bir kağız, bir qələm verdi,
O gündən həm şadlıq, həm də qəm verdi.
Orda ilk şerimi deyib, unutdum,
O sehirli gündən bu günə qədər,
Kədərli şairlik yolunu tutdum.
Mən xalq kədərilə elə zənginəm,
Qəm xəzinəsidir açarsız sinəm.

*1993*



## HANI

Hanı o ürək ki, onu duyaydım,
Hanı o nəğmə ki, ona uyaydım,
Hanı o çəmən ki, çiçəklərindən
Başıma solmayan bir tac qoyaydım.

Bizim dağ ətirli küləklər hanı?
Kasası şeh dolu çiçəklər hanı?
Məni uçuşlara qanadlandıran
O şirin arzular, diləklər hanı?

Hanı indi mənim o nəğmələrim?
Hanı o çəmən ki, gülünü dərim.
Gülşən o gülşəndir, çiçəklər hanı?!
Nə tez gəldi ömrün bu qış tufanı?!

*1979*

## HARDASINIZ

İlk qar çiçəyini dərdiyim günlər,
Ana nəvazişi gördüyüm günlər,
Uşaq ürəyimi cücərən ota,
Oyanan torpağa verdiyim günlər
Hardasınız siz?

Baharda çiçəyə bürünən bağlar,
Zirvəsi dumanlı görünən dağlar,
Səsim, ünüm, əlim yetməyən çağlar
Hardasınız siz?

Doğma yuvalara qayıdan quşlar,
Damlası işıqlı yağan yağışlar,
Ocağı nəğməli payızlar, qışlar
Hardasınız siz?

O kənd məktəbinə getdiyim günlər,
Sünbüllər içində itdiyim günlər,
Dən olub tarlada bitdiyim günlər
Hardasınız siz?

*1980*

## OLMASA

Ocağın odu olmasa,
Kişinin adı olmasa,
Evin fərhadı olmasa
Belə qapını kim açar?

Kişi hər gün yeyib-yatsa,
Yuxuda ömür uzatsa,
El içində adı batsa,
Arvadı evindən qaçar.

Ər olan işdə ər olsa,
Təxəllüsü hünər olsa,
Sözü şirin, şəkər olsa
Qapısını bəylər açar.

Arvadı qeyrətsiz olsa,
Kobud, nəzakətsiz olsa,
Qonağa hörmətsiz olsa,
O evdən bərəkət qaçar.

Kişi igid, nər olsa da,
O, ər oğlu, ər olsa da,
Şaha bərabər olsa da
O arvadla olar naçar,
O evdən bərəkət qaçar.

*1994*

## O QIZI TANI

Bir zaman səninçün məftun ürəyim
İndi çınqıl olmuş daşa oxşayır.

Uçuşda gördüyün "sevgi mələyin"
İndi tək qanadlı quşa oxşayır.

Ürək uçmaq istər, qanadlar hanı?
Hanı cavanlığın o asimanı?
Hünərin var indi qoşa hörüklü
Qızı əvəz edən qocanı tanı!

*1992*



## DƏNİZİ FƏTH EDƏNLƏRİN

Saçlarımda qar,
Könlümdə bahar,
Sinəmdə ağrılar...
Çağırır:
Günəş, dəniz,
Sevdiyim sahillər məni.
Enirəm ağrılı,
Arzulu ürəyimlə
120 pilləni...
Arzu-ağrıdan qüvvətli,
Ağrı-divlərdən heybətli...
Ağrıdan yanan,
Arzudan qanadlanan
Ürəyimlə
Saya-saya pillələri,
Gedirəm görməyə Xəzəri.
Başqa dənizlərə bənzəmir Xəzər.
Gedirəm Xəzər kimi coşmağa,
Dənizi fəth edənlərə
Nəğmə qoşmağa.

*1992*

## BƏNÖVŞƏNİ DƏRMƏDİM

Avey dağım, bənövşəni dərmədim,
Kəkotunu dərib, günə sərmədim.
Saçlarımda səhər şehi görmədim,
Yaxın yollar mənə uzaq olubdur.

Yarpaqlandı Karqayanın meşəsi,
Ayrılıqda sındı könlüm şüşəsi,
Qəriblərin ağlamaqdır peşəsi,
Göz buludlu, ürək dağ-dağ olubdur.

Göy söyüdlər suda darar telini,
Yasəmənlər açıb indi gülünü.
Fikrim gəzər ata-baba elini,
Ayrılıq ömrümə ortaq olubdur.

Fikrim gəzir o aylarda, illərdə,
Gül yarpağı açır coşqun sellərdə.
Mən bilirəm indi bizim ellərdə,
İsti aran sərin yaylaq olubdur.

Baş yastıqda, gözüm qalıb tavanda,
Mən burada, uşaqlığım o yanda.
Yaman olur dərd ürəyi oyanda,
Könlüm qəm əlində dustaq olubdur.

*1989*

## DAŞLARDA İZİNİZ VARMI

Avey dağın kəklikləri,
Görüşmədik çoxdan bəri.
Bu ətirli yaz səhəri
Mənə bir sözünüz varmı?

Səsiniz düşübdür kəndə,
O kəndin qızıyam mən də.
Axtarıram hər gələndə
Daşlarda iziniz varmı?

Uşaqlığım sizə bağlı,
Saçlarım qaralı, ağlı,
Ayrılıqdan köksü dağlı
Uzaqda qızınız varmı?

*1970*

## YAMAN NİGARANAM AZƏRBAYCANDAN

Torpaq da,
İnsan da yorulub qandan,
Alıb dövrəmizi düşmən hər yandan,
Yaman nigaranam Azərbaycandan.
Səsim qəsbkara çatmayan mənəm!



Uşaqlar ac qalıb, qocalar miskin,
Gəlinlər, qızlar da bəxtindən küskün.
Abad qapıları kəsibdir pis gün.
Millətin dərdilə yatmayan mənəm!

Kimi milyonçudur, kimi ac, yoxsul,
Cahil ağa olub, alim dərdə qul,
Həyatım bir qəmli nağıldır, nağıl...
Dərdimi dərdlərə qatmayan mənəm!

Çıxarıb qılıncı düşmənlər qından,
Qəsbkarlar doymur ölümdən, qandan,
Yaman nigaranam Azərbaycandan,
Gülləni hədəfə atmayan mənəm.
Sənə hədəf olsun, ey vətən, sinəm!

*1996*

## KİŞİLƏR

Ev tikdi, bağça saldı
Quru yerdə bir kişi.
Qurub, yaratmaq oldu
Daim onun vərdişi...

Günün günorta çağı
Qonşu yuxudan durdu,
Xeyli dinməz oturdu...
Əsnədi bir xeyli vaxt
Gərnəşdi tənbəl-tənbəl...
Qışqırdı: – Hardasan, baxt?!
Keçdi, getdi xeyli vaxt...
Durdu işə başladı,
Qoydu bir evə təməl.

Ancaq bir az işlədi,
Düşdü həvəsdən kişi,
Yedi, uzandı, yatdı...
Yarımçıq qoydu işi.

Ömrü boyu ev tikib,
Bağ salana küsəndi.
Bunu siz deyin indi:
Bu nə sayaq kişidir?
Qurub, yaratmaq baxtın,
Yoxsa onun işidir?

*1986*

## ÖLÜMLƏ ÜZ-ÜZƏ DURDUĞUM ANLAR

Bilirəm Lalənin ürəyi mənsiz
Buludlu göy kimi tutqun olacaq.
Qəm yeyib, o qəlbi kövrəyim mənsiz,
Məni göz yaşıyla yada salacaq.

Cəvahir körpədir, hələ uşaqdır,
Ağlayıb, ağlayıb yorulacaqdır.
Töküb yağışını o qumral gözlər
Bulaq suyu kimi durulacaqdı.

Bilirəm anacaq məni hər anda,
Xatirəm lap yetim olacaq onda.
Onu bu dünyada sevib dərindən,
Dünyanın tükənməz kədərlərindən
Qoruya bilməkçün odda yanmağa
Əbədi buzluqda qalıb donmağa
Hazır olan, geri dönməyəcəkdir.
Ana şikəst olsa, o şikəstin də,
Nəfəsi övlada yenə köməkdir.

*1979*

## QƏM OYDU QƏLBİMİZİ

*İncə ruhlu Mailə Muradxanlıya*

Sənə gülüş yaraşır
Gül, könlümüz açılsın!
Dünya qəmlə uğraşır
Gül, şərbətlər içilsin!



Gül, ey incə xəyalım,
Sözü şəkərlim, ballım
Danış, dərin kamallım
Ağzından dürr saçılsın,

Könlüm şer gülşəni,
Şer yaşadır məni
Xalqımla həmsöhbət et!
Güldür xalqı sevəni
Sözün sözdən seçilsin.

*1995*

## OXU, ZEYNƏB!

*Vətən bülbülü Zeynəb Xanlarovaya*

Bir bülbülsən gül bağında,
Söz gül açır dodağında,
Min millətin torpağında
Özü nəğmə olan Zeynəb!

Üzü göyçək, gözü göyçək,
Dili şirin, sözü göyçək,
Oxuyanda kövrək-kövrək,
Ürəyə od salan Zeynəb!

Zilə qalxıb, bəmə enib,
Məşəl kimi yanıb, sönüb,
Hey... nəğməyə, şerə dönüb
Könlümüzə dolan Zeynəb!

Hərdən odlu, hərdən sərin,
Oxuyanda şirin-şirin,
Əfsunuyla nəğmələrin
Canımızı alan Zeynəb.

Sən bu eşqlə, bu həvəslə,
Bu əfsunlu gözəl səslə,
İnsanları sülhə səslə
Eldən-elə dolan, Zeynəb!

Sənə oyun da yaraşır,
Oyna, boyun da yaraşır,
Şöhrətin sərhədlər aşır,
Ürəklərə calan, Zeynəb!

*1998*

* * *

Nə zənginəm,
Nə yoxsulam,
Nə sərvətə, vara qulam.
Nə də ki, tapdanmış yolam.
Yemək üçün – çörəyim var,
Sevmək üçün – ürəyim var,
El işində – əməyim var,
İş görməyə:
Əlim, qolum,
Yük çəkməyə – kürəyim var.
"El oğluyam" qeyrətim var
El içində hörmətim var,
Demək: sonsuz sərvətim var.
Zənginlərin zənginiyəm,
Dəryalarda sədəf kimi
İnciylə doludur sinəm.

*1991*

## ƏLİAĞA VAHİDƏ

Vahid! Eldə əziz şairimiz,
Adı hər dildə əziz şairimiz!
Sənə, el şairimiz, yoxdur ölüm.
Çünki, qəlbində yaşarsan bu elin.
Vahid, ey odlu qəzəl şairimiz,
Sözü xoş, söhbəti xoş, təbi gözəl şairimiz!
Ey vətən şairi, el şairi, ölməz Vahid!
Sənin ölməzliyinə sevgimiz olmuş şahid.



Getmisən bəxş eləyib sən elə söz sərvətini.
Yaşadır el də sənin sənətinin şöhrətini.
Yaşadın şairanə ömrün o bəd illərini,
Sənəti, şeri sevənlər Bakının güllərini
Odlu qərənfillərini qış və bahar
Qəbrinin üstündə əkər.
Torpağına güllərin ətri çökər.
Bəxtəvər şair odu, eldə ona hörmət ola!
Ey əziz Vahidimiz, ruhuna min rəhmət ola!

*1995*

## ANA DEYİB

Qapısız, pəncərəsiz
Evimin qabağında
Oturub ağlayarsan,
Torpağımdan bir ovuc
Götürüb ağlayarsan,
Ana! Deyib köksünü
Ötürüb ağlayarsan.
Səni candan sevəni
İtirib, ağlayarsan.

Nə çıxmağa qapı var,
Nə baxmağa pəncərə,
Ruhum səni dindirə,
Sənə təsəlli verə,
Silə o göz yaşını.
Basıb ana köksünə
Sığallaya başını.

*1998*

## SON MƏNZİLDƏ HAQQ-HESAB

Sual: – Dünyadan nə gətirmisən,
Nə tapıb, nə itirmisən?

Cavab: – Əlimdə qələm qabarı,
Alnımda zəhmət vüqarı,
Vətən, millət intizarı.

Sual: – Nəyə rəğbət,
Nəyə hörmət,
Nəyə nifrət eləmisən?

Cavab: – Halala-rəğbət,
Harama – nifrət,
Şəhidlərə rəhmət olub peşəm.

Sual: – Ana haqqı,
Övlad borcu nə deməkdir?

Cavab: – Övlad haqqı:
Anaların qarşısında diz çökməkdir.

Sual: – Yaradana sidqi-inam?

Cavab: – Səcdəyəm ona müdam.
Pənahımdır göydə Allah,
Yerdə inamı kamillər.
Günahımın, savabımın qədərini
Rəbbim bilər.

*1995*

## ANA MƏKTUBU

*Əfqanıstanda əsgəri borcunu qəhrəmanlıqla vermiş Səxavət Hüseynova*

Silib sətirləri gözünün yaşı,
Mənə bu məktubu ana göndərib.
Rahatsız dünyanın bu keşməkeşi
Onun göz yaşını qana döndərib.

Məktubun içindən bir şəkil düşür,
Gözümü şəkildən çəkə bilmirəm,
Fikrimdə sevinclə kədər döyüşür,
Sözü vərəqlərə tökə bilmirəm.



Bu şəklə baxdıqca qəm üstə qəmim
Yığılıb, əlimdə yanır qələmim.
Şəkildən üzümə bir cavan baxır,
Necə də fikirli, mehriban baxır.

19 yaşının ilk baharında
Ürəyi səadət arzularında
Sevgisi tufana düşən cavana
Bir ana gözüylə mən yana-yana
Baxıb alışıram odsuz, ocaqsız
Qələmdən od alıb, alışır kağız.

Bu gənc sərv kimi təzə boy atmış,
Yaradan gör necə oğul yaratmış!
Bu qəddi-qamətə, boya, buxuna
Baxan zalım necə qıymışdır ona?

Tankına söykəyib gen kürəyini
Düşünür bəlkə də gələcəyini...

Bəlkə də var onun əhdi-peymanı,
Vətəndə qalmış bir sevgi dastanı.
Qonşu kənddə isə atışma səsi –
Görən neçə gəncin qəbrini qazır?
"Baqlan"da topların qara lüləsi
Tuşlanıb sərhəddə, dayanıb hazır...

Bu Babək xislətli, Koroğlu qanlı
18 ay orda azərbaycanlı
Oğullarımızla birgə döyüşdü,
Adı, şücaətli dillərə düşdü...

Gəncədə günləri sayırdı ana,
Orda od yağırdı Əfqanıstana,
Oğlu döyüşürdü bu od içində...
Bir qara saatda, bir qara gündə
Bir dilsiz cənazə, bağlı çemodan,

Ananın evinə girdi qapıdan.
– Kaş sənin yerinə mən öləydim kaş!
Deyib, yazıq ana fəryad qopardı,
Ancaq bu fəryadın nə xeyri vardı:
Analar ağlayır... Fəryad qoparır,
Cəbhələr elə hey... oğul aparır...

Hələ qanlı açır çox bağın gülü,
Hələ çox millətin bağlıdır dili.
Hələ göz dikən var çox gülüstana,
Ağlama qan, bacım! Ağlama, ana!

Dünyanın öz dərdi özünə bəsdi,
Onun göz yaşına tufanlar əsdi...
Yazıq anaları bir də ağlatma!

Gəl, qələbə çalaq biz zülmlə şərə,
Özgə torpağına göz dikənlərə.

Ağlama, gör necə bəzənib yollar,
Qayıdır vətənə əsgər oğullar.
Gəl tökək yollara al qərənfillər,
Davasız, dalaşsız keçsin bu illər!..
Qan, qırğın görməsin bir də nəsillər!

Gəl, qələbə çalaq biz zülmə, şərə,
Döyüşüb bir dünya verək bəşərə.
İnsanlığa budur, budur doğru yol!
Mərd böyüdən ana! Özün də mərd ol!

*1988*

## GƏLSİN

O tayda ana da ağlar,
Kirpiyi şana da ağlar,
El köçüb, yurdu qalıb,
Boyanıb qana dağlar!



Tapdadın bu gülşəni,
Ağlatdın könlü şəni,
Balamı qana salan,
Qan tutsun görüm səni!

İstəmərəm qəm gəlsin,
Tökülsün aləm gəlsin!
Dərd mənə güc edəndə
Yanıma Laləm gəlsin!

Əsliyəm, Kərəm gəlsin,
Mənə ruh verən gəlsin!
Təbib, dərman əvəzi
Bircə Xatirəm gəlsin!

Qoy incim, dürüm gəlsin,
Yüzlərdən birim gəlsin!
Dərmanım tapılmasa
Qoy Cəvahirim gəlsin!

Torpağım, otum gəlsin,
Adını tutum gəlsin,
Dərdimi sağaltmağa
Mənim Yaqutum gəlsin.

Çıraq gəlsin, şam gəlsin,
Könlümə ilham gəlsin,
Könlümü güldürməyə
Qoy bircə Vəfam gəlsin.

## BƏXTİMLƏ SÖHBƏT

Oturmuşdum bir gün bəxtdən gileyli,
Gözümdə, könlümdə şikayət meyli.
Birdən dilə gəlib söylədi bəxtim:
– Başına şerdən incilər taxdım,
Sənə qanad verdim saf xəyallardan,
Xətərsiz keçirdim çətin yollardan,
Sənə ağıl, şüur, düşüncə verdim,
Bütün xəyalları çox incə verdim.
Duydun mənasını bütün varlığın,
Kədərin, sevincin, bəxtiyarlığın.
Xətrin əziz oldu, sevdin, sevildin,
Analıq hissinin zövqünü bildin.
Günəş işığıyla qarışdı qanın,
İnsana, torpağa bağlandı canın,
Oldun şair qızı Azərbaycanın.
Bütün ürəklərin döyüntüsünü,
Bütün nəğmələrin pünhan səsini
Eşidib, yaşatdın sən öz sinəndə,
Səni zəngin etdi sevinc də, qəm də.
Dünyanın ən böyük varı, sərvəti,
Qoca təbiətin ilk məhəbbəti,
Səndədir, ey qafil!
Bəxtdən gileyli!
Sənə nə yaraşır şikayət meyli?

*1996*



## GÜNƏŞİN ARXASINCA

Karvanım yol üstədi,
Könlüm səni istədi...
Dedinmi xəstədi?
Ürək durur, can gedir,
Gedən nigaran gedir.

Ey qəlbimin sirdaşı,
Var hər yazın bir qışı,
Gözlərdə həsrət yaşı,
Ürəkdə hicran gedir.
Günəşin arxasınca
Qəmli bir karvan gedir.

*1989*

## EY HƏBİBİM

Ey həbibim, can gedir,
Dərman tapılmır, neyləyək?

Dərdləri pünhan gedir,
Loğman tapılmır, neyləyək?

Eşq ölür, dərd əhli bir
İnsan tapılmır, neyləyək?

Sürməyə qəm karvanım
Sarvan tapılmır, neyləyək?

Mirvarid, candan yanan
Bir can tapılmır, neyləyək?

*1997*

## BİR EŞQƏ SADİQƏM

Sən odlu şimşəksən, bulud dalında,
Çaxma başım üstə, qurbanın olum!
Bir eşqə sadiqəm ömrüm yolunda,
Çıxma yolum üstə, qurbanın olum!

Sən coşqun dənizsən, səsləmə, aman!
Dəniz vurğununu qoynuna pünhan.
Onu qərq edərsən, bir azca dayan,
O məbədi yıxma, qurbanın olum!

Sən əbədi bahar, xəzansız bağsan,
Mən əlçatmaz zirvə, sən uca dağsan,
Nə vaxtacan məni çağıracaqsan?
Yollarıma baxma, qurbanın olum!

## MƏHƏBBƏT

Neçə qərinə görmüsən,
Kimə şadlıq,
Kimə kədər,
Sən kimə ölüm vermisən?

Kimi həsrət diyarında,
Kimi vüsal bağında,
Məhəbbətin gülzarında yaşatmısan.
Kimi xoşbəxt;
Yar-yoldaşlı,
Kimi tənha, gözü yaşlı eyləmisən.
Ey sehirlim, yüzillərlə
Bir cavab ver, insanlara neyləmisən?

* * *

Sən – xəndəsən,
Mən – kiryəyəm,
Özüm də bilmirəm nəyəm.
Oxunmamış bir nəğməyəm.
Hünərin var oxu məni!
Aparmamış son mənzilə
Bir əbədi yuxu məni.



## SƏN GEDƏLİ

Sən gedəli,
Oldum dəli
Saçlarımı sığallamır
Oğul əli.
Mən günü-günə caladım,
Sinəmdə ocaq qaladım,
Odu sənə çatmayırmı?
Bu hicranın, bu həsrətin
Səndən pünhan məhəbbətin,
Bəs bu divanə xilqətin
Ahı sənə çatmayırmı?

## BU EŞQ ŞAİR XƏYALIYMIŞ

Nə dostdan bir xəbər gəldi,
Deyəm əhdə vəfalıymış.
Nə şadlıq, nə kədər gəldi,
Deyəm ömrü cəfalıymış.

Nə bildi, ağladım, güldüm,
Nə bilsə, bildiyin bildim.
Nə bildi qəm yeyib öldüm.
Bu eşq şair xəyalıymış.

*1993*

## SƏNSİZ

Şər qarışır,
İşıqla qaranlıq yarışır...
Otağım yarıqaranlıq,
Ürəyimdə bir nigaranlıq,
Sinəm – biçilmiş kövşən yeri...
Ağlayır sənsiz
Zəmanənin bu divanə şairi.

## ÇIRAQ OLSAN

Çıraq olsan mən pərvanə olardım,
Od xilqətlim hey... yanardım oduna.
Ömrüm boyu od içində qalardım,
Sən su olub, yetişsən də dadıma.
Yağış olub, yağsan belə üstümə,
Dözüb sənin alovuna, tüstünə
Mən dönərdim odlu Simurq quşuna
Yana-yana dolanardım başına.

## HARDASAN

Sən – qəhqəhə,
Mən göz yaşı.
Hardasan, könlüm sirdaşı?
Tufanlıdır ömrün qışı...
Sən gül!
Mən gülə bilmirəm.

Şənlik içindəykən aləm,
Nədir könlümdəki bu qəm?
Neyləyim ki, mən bəxtikəm
Dərdimi bilə bilmərəm.

Qəm əyib məğrur başımı,
İtirmişəm sirdaşımı,
Selə dönən göz yaşımı
Üzümdən silə bilmirəm.

Səhrada bitmiş bir güləm,
Fəsli quraq keçən iləm.
İstəyirəm sənsiz öləm
Neyləyim, ölə bilmirəm.



## SƏN SU OLSAN

Sən su olsan
Mən səni
Bir qurtumda içərdim.
Ocaq olsan
İsinərdim istinə,
Baxmazıdım alovuna,
Tüstünə.
Yağış olsan
Deyərdim: – Yağ üstümə!
Gül olsaydın
Dərib dəstə bağlardım,
Dərdiyimçün qoxlayanda ağlardım.

Zərrə olsan:
Mən səni:
Zərrələrdən seçərdim.
Sən əl çatan adi insan olsaydın
Mən yanından etinasız keçərdim.

## SƏN YOL ÜSTƏ

Sən yol üstə,
Mən də kövrək.
Sən mənzilə çatanadək
Dedim: – Ağlamayam gərək
Səndən sonra ağlaram tək.
Səndən sonra bilirsənmi nələr oldu:
Evim sükut ilə doldu...
Həmsöhbətim qələm oldu.
Həsrət qəlbim elə yandı, elə yandı,
Bir ah çəkdim,
Bu ahımın atəşiylə
Ətrafımda nə varsa da alovlandı...
İndi:
Nə od,
Nə də güləm.
Əhvalı yaman müşküləm.

## MƏN Kİ UŞAQ DEYİLƏM

Həsrət dolu gözündən,
Qəmli görünən üzündən
Öpmədim bircə kərə,
Əridim zərrə-zərrə,
Çünki bundan utandım.
Bu hikməti sonra qandım:
Od közərəndə uşaq
Vurar əlini oda.
Od yandıranda başlar
Ana! Deyə fəryada.
Mən ki uşaq deyiləm,
Gələm oda yaxına
Od görməmiş dodağım o atəşə toxuna.
Anam da yox çağıram:
Ana! Ana!
Bunun üçün gəlmirəm
Heç vaxt oda yaxına.

## MƏNİ MƏFTUN EDƏN

Ey məni məftun edən
Məftunluğumdan bixəbər!
Bilmədinmi bəs:
Bu məftunluq məni məhv eyləyər?
El bilir ki, mən nəyəm;
Mən şairəm, divanəyəm.
İbrət al sən bu dəli, divanədən,
Düşmə gəl, bu vəsli yox,
Hicranı çox sevdaya sən!

## SƏNSİZLİK

Mən elə qocalmışam,
Elə yetim qalmışam,
Payız buludu kimi
Mən yağışla dolmuşam –



Göz yaşı yağışıyla...
Ürəyim elə yanır,
Bu məşəlin oduyla
Göz yaşım buxarlanır...
Kaş buxar suya dönə,
Söndürə bu atəşi!
Hardasan könlüm əşi?
Hansı ulduza dönürsən,
Harda parlayıb – sönürsən?

## EY BİXƏBƏR

Ey bixəbər!
Mən səni sevdiyim qədər
Bir daşı sevsəydim əgər,
Daş dönüb insan olardı.
Bir quşu sevsəydim əgər,
O dönüb tərlan olardı.
Hər gün qonub pəncərəmə
Nəğmə oxuyardı mənə,
Könlüm belə qan olmasın,
Halım pərişan olmasın!

Sən nə daşsan,
Sən nə quşsan,
Nə gözümdən axan yaşsan.
Niyə yoxdur səndən xəbər?
Niyə gözüyaşlı qalıb
O müqəddəs xatirələr?

## GÖZÜYAŞLI XATİRƏLƏR...

Nəyə baxsam hər şey səni salır yada.
Ancaq səndən yoxdur xəbər.
Səndən mənə bir hədiyyə qaldı o da:
Gözüyaşlı xatirələr...

## HEYRAN OLDUĞUM

Yoxsan yoxam,
Varsan varam,
Varlığınla bəxtiyaram.
Səsin gəlmir, intizaram
Səsinə qurban olduğum!

Eşqi ümman,
Qəmi pünhan,
Gəl, çağırır bu nigaran
Gəl, buza dönmüş nəfəsim
İsinə, qurban olduğum!

Sən sultansan, şahsan, xansan,
Həzin neysən, sən kamansan,
Sazsan, susma, mən zilinə,
Bəminə qurban olduğum!

Sussan susar şerim, sözüm.
Sussan ağlar qəlbim, gözüm,
Həsrətinə necə dözüm
Ürəkdən heyran olduğum?

*1999*

* * *

Mən kədər mülkündə şaham,
Taxtı, tacı neylərəm?
Sənsiz ey şahım, təbibi,
Mən əlacı neylərəm?
Gəlmisən can almağa
Ey "bac" verib, canlar alan!
Bu fəna mülkündə mən
Bəs bunca "bac"ı neylərəm.
Mirvarid dərd əhlidir,
Ey dərdi dərdlərdən füzun!
Canan! Min bir dərdimə
Mən bir əlacı neylərəm?

*1999*



* * *

Göy mənə həsrət çəkir,
Torpaq buraxmır ancaq,
Məni özündən uzaq.
Büküb qanadlarımı
Hünərin var uç – deyir.
Sən ey, xəyalpərvərim!
Çoxdan hazırlanıbdır
Mənim qoynumda yerin.

*1999*

* * *

Qanadlar büküldü,
Uça bilmirəm,
Dərdimi kimsəyə
Aça bilmirəm.
Taleyin hökmündən
Qaça bilmirəm.
Aşıkar gülərəm,
Pünhan ağlaram,
Məni dindirməyin,
Yaman ağlaram!

*1999*

## APAR

Gedirsən qəlbi möhnətli,
Nəyim var səndən qiymətli,
Nəyim var səndən ismətli,
Namuslu, kişi qeyrətli,
Xilqəti – ana şəfqətli
Səndən əziz nəyim var ki:
Mən sənə bəxşeyiş edəm?
Hanı ipək xalılarım
Mən onu qarşında sərəm?
Bircə sənin həsrətinlə,
Çırpınan bir ürəyim var.
Peşkəşi: xeyir-dualar
Aparırsan, onu apar!

## QAYA DAŞI

Xatirələr ümmanında
Qərq olur gəmim.
Bu gəmiyə yüklənibdir:
Kədərim, qəmim.

Mən qərq olum,
Tək sən yaşa
Könül həmdəmim.
Mən buludam, yağış dolu –
Gəl, qoyma yağam.
Sən bilmədin, mən püskürən
Bir yanar dağam.
Həsrətimlə öz odumda
Mən yanacağam.

## QƏHQƏHƏ İLƏ

Mən qəmliyəm,
Sən daim şən.
Səsin gəlmir indi nədən?
Gəl, əzizim, dadıma çat!
Qəhqəhənlə məni yaşat!

*1999*

## EVİMDƏ

Evimdə nə gülüş var,
Nə şadlıq var,
Nə də kədər.
Həmsöhbətim olub indi
Gözüyaşlı xatirələr...

## NİYƏ

Gözlərin niyə doldu?
Könlümdə tufan oldu.
Bir ömür viran oldu,
Xəbərin yoxdu sənin.



## ELƏ BİLDİM

Külək qapımı döydü
Elə bildim sən gəldin,
Yenə könlü şən gəldin,
Dərdimə məlhəm gəldin.
Dərhal qapını açdım,
Baxdım hər tərəf boşdu.
Gözümdən iki damla
Odlu göz yaşı düşdü.

## ANA

Ana, ayları saydın,
Ana, gözlərin aydın!
Uca dağlar dalından,
Uzaq ellər yolundan
O könlü şənin gəlir,
Dur, saçlarını dara,
Daha baxma yollara.
Ana deyənin gəlir.

*1999*

## TƏBİB

*Siyavət Qarabəyliyə*

Mən xəbər tutdum ki, sən
Çox xalis insansan, təbib!
Çarəsi müşkül olan
Hər dərdə dərmansan, təbib!
İstirahət bilmədən
Çox dərdə dərman eylədin,
Haqq bilir, el içrə sən –
Bir misli – loğmansan, təbib!
Zari-giryan, dərdi-ümman –
Çox məriz-beykəslərə

Can verib, can bəxş edən
Qüdrətli insansan təbib!
Ey Siyavət, xoş gəlibsən
Yurdun Odlar yurduna!
Xalqına sən çox əziz
Hörmətli mehmansan, təbib!

*1999*

## SALYAN SƏFƏRİ

Dağ-dağa söykənib,
Zirvə-zirvəyə,
Hamı heyran olub, bu mənzərəyə.
Bu uca zirvələr.
Dağlar, dərələr,
Bu əlvan təbiət,
Bu mənzərələr
Onları seyr edən gözə xoş gəlir,
Ancaq, sənsiz mənə dünya boş gəlir.

Könlüm səni istər, ey ürəyi şən!
Sənsiz gələn yazı neyləyirəm mən.
Ağlımın sözünə baxmır ürəyim,
Bəlkə o dərgaha çatmır diləyim,
Bilmirəm neyləyim mən qəlbikövrək,
Sənsiz yaşamağım mümkünmü görək?

*1999*

## NƏ TƏYYARƏ UÇAYDI

Nə qış tufanları dağlara qaçaydı,
Nə bahar gələydi,
Nə torpaq güləydi,
Nə ot cücərəydi,
Nə çiçək açaydı,
Nə göydə bir təyyarə uçaydı
İçində sən.

*1999*



## YOLLARA BAXACAQ

Yollar uzaq,
Dəryalar dərin.
Çıraqlar yanacaq,
Saatlar ötəcək,
Gəlməyəcək sənin
Ayaq səslərin.

Yollar uzaq,
Dəryalar dərin.
Dağlar uca,
Zirvələr qar örpəkli.
Yollara baxacaq bir şair ürəkli.

***

Son təmənnam budur haqdan:
Yaxından göstərmək
Məramı yoxsa:
Kaş, səni göstərsin
Mənə uzaqdan.

*1999*

## MƏNƏM – MƏN

Mən haraya getsəm
Sən orda varsan.
Sən harada olsan
Məni ararsan.
Bağdan xəzan vurmuş
Bir gül qoparsan
Bil ki, xəzan vurmuş o gül
Mənəm, mən!

Üfüqlər qızarır günəş batanda,
Susur şən nəğmələr quşlar yatanda,
Bir sel çağlayacaq "vaxtım" çatanda
Bil, elə çağlayan o sel
Mənəm, mən!

Şax üstə açılmış görəndə gülü,
Eşqindən açılır bülbülün dili,
Əsəndə dağlardan ilk bahar yeli
Gül-çiçək ətirli o yel
Mənəm, mən!

Quşların yatmağa yoxdur həvəsi,
Doldurub bağları bir nalə səsi,
Könlü gülüstana dönən bir kəsi
Görsən bil, o könül
Mənəm, mənəm, mən!

*1989*

## MƏHƏBBƏT KARVANIM

Məhəbbət karvanım uzağa getdi,
Ha qaçım, dalınca çata bilmərəm.
Gənclik gülşənimdə tikanlar bitdi,
Mən gülü tikana qata bilmərəm.

Qaldı nə varsa da xatirələrdə,
O şirin xəyal da, acı kədər də.
Əlim o günlərə çatarmı bir də?
O dəryaya lövbər ata bilmərəm.

Ömrün soyuyanda abı-havası
Tarmar olarmış könül dünyası.
Parlayır dövrəmdə günəş şüası,
Mən o şüaları tuta bilmərəm.

Bənzərəm cücərən payız otuna,
Gözü yağış dolu yaz buluduna
Saldı fələk məni hicran oduna,
Dərdi dərd verənə sata bilmərəm.
Məhəbbət karvanı uzağa getdi
Ha qaçım, dalınca çata bilmərəm.

*1990*



## NEYLƏYƏRDİN

Gəlin qoyub getdiyini
Qarı görsən neyləyərdin?
Qızılgülü gül fəslində
Sarı görsən neyləyərdin?

Qəm zənciri ayağında,
Göz yaşları yanağında,
Gəlib hicran otağında
Yarı görsən neyləyərdin?

Qalıb həsrət diyarında,
Solub güllər gülzarında.
Qara, ipək saçlarında
Qarı görsən neyləyərdin?

Sənsizlikdə düşüb xəstə,
Kaman dərdim çalar pəsdə.
Bülbül oxuyan şax üstə
Xarı görsən neyləyərdin?

Gəlin qoyub getdiyini
Qarı görsən neyləyərdin?

*1992*

## DİNDİRMƏ

Bu qız bulud kimi dolub,
Yanağının gülü solub,
Bir igidə aşiq olub,
Qızı dindirmə, dindirmə!

Sazı divardan kim asıb,
İl tozu pərdəni basıb,
Bu saz sahibindən küsüb,
Sazı dindərmə, dindirmə!

Gəlib bənövşə, gül fəsli,
Küləkləri hicran səsli,
Bu havası buz nəfəsli
Yazı dindirmə, dindirmə!

Bu hansı çərxdir tərs dönən,
Şad olmaz zirvədən enən,
Kül altında qalıb, sönən,
Gözü dindirmə, dindirmə!

Bu hicran bəhrinə düşmüş,
Könlü aşiqindən küsmüş,
Üzərini o ot basmış,
İzi dindirmə, dindirmə!

Çətin yoldur eşqin yolu,
Sıldırımdır sağı, solu,
Hər kəlməsi bu qəm dolu,
Sözü dindirmə, dindirmə!

*1985*

## GÖZÜMDƏ YAŞ, BAŞIMDA QAR

Qar yağanda yağan qarı
Alça çiçəyi sanardım.
Qış yellərinin səsini
Çoban tütəyi sanardım.

Saçlarımda qar qalağı,
Dolaşardım bağça-bağı...
Çünki o vaxt ürəyimdə
Məhəbbətin odu vardı,

Hara getsək, cüt gedərdik,
Cüt gələrdik.
Biz onda elə bilərdik:
Ölüm gəlsə cüt ölərik,
Bir qəbirdə dincələrik.



Bir arzuyla yaşarkən biz,
Puça çıxdı niyyətimiz
Ölüm bizə baxıb güldü,
Məni sevən mənsiz öldü.
Məhəbbətsə yenə yaşar,
Mənim kimi:
Gözündə yaş,
Başında qar.

*1980*

## DƏRDİM ORTAĞI

Gəldim, niyə sevinmədin,
Çağırdım, niyə dinmədin?
Gözlədim, geri dönmədin
Bilmədinmi balan gəlib?!

Həsrətinlə nə zamandır
Mən qocaldım, dərd cavandır.
Səsimə səs ver, amandır!
Sənə həsrət qalan gəlib.

Bu dünya ölüm-itimdir,
Uşaq anadan yetimdir.
Demə, ürəyim bütündür,
Ömrü-günü talan gəlib.

Sədaqətlim, qız ismətlim
Saf ürəklim, xoş xilqətlim!
Bizə ümman məhəbbətlim!
Sənsiz yetim qalan gəlib.

Ağır illərin dayağı,
Zülmət günlərin çırağı,
Hardasan, dərdim ortağı?
Dillən, dərdlə kalan gəlib.

Qoy əlindən, ayağından,
Öpüm solğun yanağından.
Bu müqəddəs torpağından
Bir təsəlli alan gəlib,
Ana, yetim balan gəlib!

*1992*

## CƏNNƏT QUŞUM

*Bircə bacım Yaquta ithaf*

Nə yatıbsan, oyanmırsan,
Mən yanıram, sən yanmırsan,
Külüm qalıb, inanmırsan,
Selə dönübdür göz yaşım,
Bircə bacım, qız qardaşım!

Həsrətin göynər sinəmdə,
Niyə məni qoydun qəmdə,
Mən də öldüm, sən öləndə,
İsmət tacım, qeyrət tacım,
Qız qardaşım, bircə tacım!

Təkqanadlı quşam indi,
Mən sənsiz bihuşam indi,
Çınqıl olmuş daşam indi,
Yoxdur dərmanım, əlacım,
Qız qardaşım, bircə bacım!

Qəlbim mənim, canım mənim,
Qüdrətli sultanım mənim,
Dərdləri pünhanım mənim,
Dərd yoldaşım, mərd yoldaşım,
Bircə bacım, qız qardaşım!

Anamıza qovuşdunmu,
Cənnət bağına düşdünmü,
Mələklərlə görüşdünmü,
Hara uçdun, cənnət quşum,
Bircə bacım, qız qardaşım?!

*1994*



## ANAM YUXUMA GƏLMİR

Anam yuxuma gəlmir
Görən nə günahım var?

Bacım yuxuma gəlmir
Dilimdə min ahım var.

Anam yuxuma gəlmir,
Bilmir ona sözüm var.
Dərdim başımdan aşıb,
Fikirlərim dolaşıb...

Nənəm yuxuma gəlmir,
Bəlkə halımı bilmir.

Babam yuxuma gəlmir,
Allah, sən saxla, Allah!

Harda etmişəm günah -
Ki, ruhlar məndən qaçıb?
Onları öz canından
Artıq sevəndən qaçıb.

Yarəb, günahım varsa,
Bağışla bu bəndəni.
O ruhlardan ayırma,
İki dünyada məni!

*1994*

## İLDÖNÜMÜ

*Bacım, ay bacım, Yaqutum*

Altı yanvar.
Bu gün nə ağır gündü,
Sanki yer silkələndi...
Göydən bir bulud endi,
Yağdı tufan yağışı...

Seli səni apardı...
Mənim yetim ürəyim
Çox sevəni apardı.
Məni niyə qoydun tək,
Ey könlümün əlacı!?
Anam əvəzi bacım!

*1995*

## LALƏM

Saralan yarpaq düşəcək,
Bu hökmüdür təbiətin.
Saralan yarpağam mən də:
Düşüncəm vaxtı gələndə.
Ağlama, nazım, ağlama!
Yazısıdır bu xilqətin.
Ancaq sənin
Bu sahilsiz məhəbbətin
Saxlar məni budağımda.
Yanağında göz yaşları,
Gülüşlərin dodağında,
Saxladın Allah eşqinə
Sən, qəfil ölümdən məni.
Yaradan da, insanlar da,
Sevsin səni,
Nənəsini çox sevəni!

*1995*

## OD ÜSTÜNDƏ ÇİÇƏK BİTMƏZ

Sən o tayda,
Mən bu tayda,
Körpüsüzdür dərin çay da.
Çağırıram hey, nə fayda
Sənə səsim, ünüm yetməz.



Ağlar söyüd bu sahildə,
Yarpaq açar, tökər ildə.
Adın alovlanır dildə,
Od üstündə çiçək bitməz.

Göy guruldar, şimşək çaxar,
Selləri gözümdən axar,
Gəldi yenə gözəl bahar,
Gül solubdur, bülbül ötməz.

Çağırıram ey!.. gidi dünya!
Qəmin məni yedi, dünya.
Bu etdiyin nədi, dünya!
Belə qalmaz,
Belə getməz.

*1988*

## YAZ DUMANI

Bu duman yaz dumanıdır
Oyanır yatmış torpaqlar.
Çiçəklər qönçə içində,
Yatır buçurda yarpaqlar.

Bağçalarda ana dillər
Bahar nağılı danışar...
İsti əsir soyuq yellər,
Qışda donmuş çaylar daşır.

Bu torpağın nəfəsidir
Buxarlanıb, qalxır göyə,
O da qaranquş səsidir
Ötür bahar deyə-deyə.

Bu da "qanlı" bənövşədir
Pıçıldayır; məni dərin!
Oğlu şəhid analara
Pay göndərin! Pay göndərin!

*1992*

## MƏN ÖLMƏK İSTƏMİRƏM

Hələ beynim düşünür,
Hələ qələmim yazır,
Mən ölmək istəmirəm
Buna deyiləm hazır.

* * *

Dost mənə yaşa deyir,
İllər qəbrimi qazır.
Qələm düşməz əlimdən,
Günlərim, ötmə hədər,
O son mənzilə qədər.

* * *

Qoca köklər üstündə
Olur meyvəli budaq.
Mən ölmək istərəm
Gözlə, məkanım torpaq.

*1984*

## BİZİM PİŞİK

Keçən il doğulubdur,
Bu il ana olubdur,
Süd verir balasına,
Tükləri alasına.
Yalayır birisini,
Birinin dərisini
Aramsız sığallayır,
Onları dişlərində
Gəzdirir, yer arayır.
Bir isti bucaq olsun,
Yerləri yumşaq olsun.
Neyləsin, o anadır,
Dünya ona bir yana,
Balalar bir yanadır.



Analıq duyğusunu
Öz kefinə satanlar
Doğub, balalarını
Qapılara atanlar –
Ey insan övladları!
Sizdə pişiklər qədər
Duyğu olaydı barı!

*1994*

## QUZULAR MƏLƏŞƏNDƏ

Zoğallar çiçək açır,
Fikrimdə durna uçur,
Qönçələr gülab içir,
Quzular mələşəndə.

Aranda ot cücərir,
Tarlada dən göyərir,
Fikrim bənövşə dərir
Quzular mələşəndə.

Dağlarda əriyir qar,
Qar suyu içir çaylar,
Təbiət çiçək paylar
Quzular mələşəndə.
Səməni eli gəzər,
Hər evdə süfrə bəzər,
Yaz yeli qönçə düzər
Quzular mələşəndə.

Açılar qar çiçəyi,
Bağlarda bar çiçəyi,
Döyünər qız ürəyi
Quzular mələşəndə.

Bu vəfasız dünyada,
Ömürlər gedir bada.
Məni də salın yada
Quzular mələşəndə.

*1991*

## QIRIQ QAYIQDA

Məhəbbət çələngim,
Arzu güllərim
Düşdü tufanına hansı illərin.
Küləklər at çapan hansı səhrada
Boz qumlar üstünə səpələnibdir,
O hansı qayanın, dumanlı dağın
Uca zirvəsində daşa dönübdür?
Yenə oturmuşam mən tək otaqda.
Xəyalım pərişan, fikrim uzaqda.
Bir ney iniltisi,
Bir kaman səsi
Sehrinə salmışdır dərdi-ümmanı...
Arzu sahilinə yetişmək üçün
Bu qırıq gəmidə bəs avar hanı?!

*1992*

## ANAMIN DUASI

Anam dua etdi:
Allahım məni
Öldürsən nə qışda,
Nə yayda öldür.
Havası mülayim bir ayda öldür.
Anamın səsini Allah eşitdi
Onun bu duası dərgaha yetdi.
Çəmən çiçəkləri, ağ yasəmənlər
Bəzədi qəbrini onun o günlər.

Ölsəm, anam kimi məni də, Allah!
Sən nə qışda öldür, nə yayda öldür.
Göyü yaz günəşli bir ayda öldür!
Məni son mənzilə aparanları
Nə isti təntitsin, nə şaxta, nə qar.
Ey pərvərdigar!



## QARĞA BÜLBÜL YUVASINDA

Tikan gördüm gül yerində,
Cırtdan gördüm fil yerində,
Dedilər yum gözlərini,
Di, get, yıxıl, öl yerində

Qarğa bülbül yuvasında,
Bülbüllük iddiasında,
Gözüm qan ağlar, qarğalar
Uçsa vətən səmasında.

Çaqqallar həddi aşdılar,
Tülkülər bərk ulaşdılar,
Aslanlıq fikrinə düşüb,
Aslanı görcək, qaçdılar.

Yığıldı bir ovuc "dəni",
Öldürsünlər başbiləni.
Axtardı dara düşəndə,
Cahillər, o el sevəni

El inamını qazanmaq
Çətin işdir, çətin sınaq.
Bu inamı qazananlar
Xalqı təmsil edər ancaq.

*1994*

## XƏBƏRİN VARMI

Ürəyimə axan göz yaşlarımdan
Bu dərdi-qəmimdən xəbərin varmı?
İntizarla dolu baxışlarımdan
Könül aləmimdən xəbərin varmı?

Elə bil ovulmuş səhra qumuyam,
Piltəsi yanmış bir şamın mumuyam,
Üstündən xış keçmiş tarla şumuyam,
Mənim bu dəmimdən xəbərin varmı?

Neyləyim, qurtarmır könlüm kədərdən,
Bu imiş qismətim qəza-qədərdən.
Keçdim gözü yaşlı keçdiyin yerdən,
Mənim sitəmimdən xəbərin varmı?

İnsan məhəbbətin qızı, oğludur,
Könlüm ki əzəldən sənə bağlıdır.
İndi sənsiz sinəm elə dağlıdır
Mənim matəmimdən xəbərin varmı?

*1989*

## ŞAİR OLMAQ

Şair olmaq gör nə haldır:
Ruzim – fikirdir, xəyaldır,
Dalğınlıqdır, düşüncədir...
Şair olmaq istəyənim
Bildinmi halım necədir.

Bizim bu zəngin aləmdən,
Bir kağızdan, bir qələmdən,
Bir də mənə eldən gələn
Müqəddəs sevincdən, qəmdən
Başqa bir şey götürmədim.
Şahlar sarayına girdim,
Dürr, cəvahirat gördüm,
Bu sərvətlər arasında
Sərvətimi itirmədim.

Qəlbi incəm, ruhu şənim,
Heç çatarmı gücün sənin
Bu "ruzi"ylə yaşayasan!
Dünya zövqündən əl çəkib
Sən də mənə oxşayasan,
Bir qələmlə, bir kağızla
Bir də: şair ruhundakı
El eşqiylə yaşayasan?

*1989*



## BÜLBÜL CƏHCƏHLİ DÜNYA

Mən bugünkü günəm,
Sahabkı – keçmiş...
Kim həyat suyunu ədəbi içmiş
Ki, mən də içəm?!
Ancaq istəməzdim,
Bülbül cəhcəhli,
Qaranquş səsli bu dünyadan köçəm.
Yolum yaxınlaşdıqda o son mənzilə,
Gəlir ürəyimdə arzular dilə:
Xəyalım dolanır çölü, çəməni,
Məni şair edən doğma vətəni...
Torpağın ilahi gözəllikləri
Məni məftun edib əzəldən bəri.
İlk cücərən otun,
Açan yarpağın,
Baharda çiçəyə bürünən bağın,
Qoynu bəhər dolu ana torpağın
Bu elin,
Obanın köhnə vurğunu
Necə gedə bilər tərk edib onu?

*1996*

## EŞQ İLƏ DOLUYA...

Eşq ilə doluya nə şərab, nə su,
Onu tərk eyləməz şənlik duyğusu.
Nəfəsi gül ətri, mayası gülab
Olana xoş gəlməz şərab qoxusu.

## QARI AĞAC BECƏRİR

Ağac becərir qarı,
Nə boyunu görəcək,
Nə barını dərəcək.
Oturub kölgəsində

Nə də ki dincələcək.
Ağac becərir qarı,
Su verir, gübrə verir.
Gözlərilə oxşayır
Açılan yarpaqları.

***

Aşiqə şərabla məstlik nə gərək,
Saqi, bu məclisi bizdən yana çək!
Xəyyam şərabilə məst etmə bizi,
Bir eşq şərabı ver, məst olub içək.

***

Şitil kök atmasa torpağa əgər,
Ha su ver, gübrə ver, sanma göyərər.
Kökünə, soyuna dönük çıxanlar,
Köksüz göyərməyən şitilə bənzər.

## QAPIMI DÖYÜRLƏR

Ürəyim bir parça ətlə qan deyil,
Qış susqun,
Yaz çoşqun Kür çayıdır o!
Ömür keçir nə qəm, o talan deyil,
Şirin arzuların gur çayıdır o!

Gəldi gözlədiyim bənövşə fəsli,
Gəldi o havası çiçək nəfəsli
Yastıqdan ayrıldı şükür, başım da.
Sevirəm dünyanı mən bu yaşımda.

Qapını döyürlər...
"Səksən"im döyür,
– Hazırlaş "səfər"ə
– Gəlmişəm, – deyir.



Deyirəm: – Geri dön!
Tələsmə, dayan!
Nə səfər vaxtıdır,
Məşğulam yaman.
Bu deyil həm də sən axtaran ünvan.

*1992*

## AĞLAMA, YARIM, AĞLAMA

Gedirəm, gələ bilmərəm
Ağlama, yarım, ağlama!
Ölürəm, sənsiz ölmərəm
Nazlı Nigarım, ağlama!
Səndən yaman intizaram
Bilmədim ağrıyır haran,
Ey həmdəmim, ey dilarəm
Ey gülüzarım, ağlama!

Bir gün gələr, bir gün gedər,
Cüt doğulub sevinc, kədər.
Ağlasan xəlvət gecələr
Yanar məzarım, ağlama!

Bu səfərə yoxdu meylim,
Fərmanım yazılıb, neylim.
Eşqə sədaqətli Leylim,
Ey iftixarım, ağlama!

Cüt qönçəydik bu budaqda,
Açıldıq doğma torpaqda.
Gedirəm, xəstə yataqda,
"Saçları sarım, ağlama!"
Mənim Nigarım, ağlama!

*1988*

## KƏNDİMİZ YADIMA DÜŞDÜ

Qar çiçəyi qarı deşdi,
Yadıma kəndimiz düşdü:
Bizim səfalı kəndimiz,
Bahar havalı kəndimiz.

Fikrim uçdu Avey dağa,
Ordan bənövşə yığmağa...
Əlimdə şehli dəstələr
Endim "Damcılı" bulağa.
Ayrılmışdım gör nə vaxtdan
Mən bu eldən, bu torpaqdan
Anam su içən bulaqdan.

Dayandım orda bir qədər,
Acı, şirin xatirələr
Hər yandan qılınc çəkdilər,
Qanımı, qansız tökdülər...

Durub burdan yavaş-yavaş
Vəlixana qalxdım birbaş.
İlk qədəm basdığım yerlər,
Anamın ilk laylasına
İlk qulaq asdığım yerlər
Məni məndən elə aldı,
Təzə fikirlərə saldı.

Baxdım-baxdım... burdan bizə
Həsrəti qalan dağlara,
Sinəmdə qövr etdi yara...

## QIŞ TORPAĞINDA

Ömrüm qış torpağında,
Könlüm İrəm bağında,
Gəzib gül sorağında
Fikrim çiçək dəstələr



Su daşlardan süzüldü,
Karvan yola düzüldü,
Əlim-eldən üzüldü,
Qələm hicran bəstələr.

Sinəm yandı göz oldu,
Yaralar göz-göz oldu,
Astar döndü üz oldu,
Bu dərd məni üstələr.

*1986*

## QUBADA BAHAR

Dağlar bahar dumanında,
Dağlar çiçək ümmanında,
Bülbül çaldı kamanında
Hicranımı bəstələdi.

Sağım çiçək, solum çiçək,
Burda hansı yoldan keçək?
Başıma yaz buludları
İnci düzdü, şeh çilədi.

Fəslin gəlinlik çağında,
Oturdum alma bağında,
Qədim Quba torpağında
Seivnc qəmi ustələdi.
Burdan güldən, gülü seçin,
Gül fəslidir, gülab için!
Qızlara güllü don biçin!
Gözəllər gül dəstələdi.

Gəzdim çənli yaylaqları,
Güldür dərəsi, dağları,
Qonaqların, gül bağları
Başlarına gül ələdi.

Xoş oldu xoş kəlamları,
Qubanın mərd adamları
Yananda bayram şamları
Bu cənnətə gəlin dedi.

*1994*

## "AY BÜLBÜLLƏR" NƏĞMƏSİNİ DİNLƏRKƏN

Soyuq əsdi isti yellər,
Tufan qopdu, axdı sellər,
Xəzan oldu cəmi güllər
Ay bülbüllər!

Ömür fani, biz köçəri,
Dərdimi saldım içəri.
Soldu könlüm qönçələri
Xəzan oldu cəmi güllər,
Ay bülbüllər!

Köçkün oldu bizim ellər,
Susdu o nəğməli dillər,
Gülzarıma əsdi yellər
Xəzan oldu cəmi güllər,
Ay bülbüllər!

Ağlayıb məni az ağlat!
Az dərdini dərdimə qat!
Verdiyini aldı həyat
Xəzan oldu cəmi güllər
Ay bülbüllər!

*1993*

## ƏSİL QADIN

Mən əsil qadınam,
Çünki mənimçün
Vüqarlı bir kişi ürəyi hər an
Döyündü aşıkar,



Döyündü pünhan.
Gözündən mən uzaq olsaydım bir an,
O, elə kədərli, qəmgin olardı,
Sanki dağ başını duman alardı.
O, mənə ilahi bir varlıq kimi
Baxıb ürəyimi fəth eyləmişdi,
"Sənsiz zindan olar dünyam", demişdi.
Könlümü gözümdən duyardı o yar,
Mən də bəxtiyardım, o da bəxtiyar.
Ey ər ürəyini fəth edən qadın!
Ər qeyrəti ilə yüksəlir adın.
Qeyrətli kişiylə,
Əsil qadınla
Yaşamaq özü də bir səadətdir.
Kişi məhəbbəti –
Ər ehtiramı
Biz qadınlar üçün
Əsil şöhrətdir.
Qeyrətli atanın,
Sadiq ananın əl–ələ verib
Namuslu övladlar böyütməsi də
Bir səadətdir!

*1988*

## MEŞƏLƏR YADIMA DÜŞDÜ

Bəhərli, barlı meşələr,
Qışlı, baharlı meşələr,
Üç ayı bülbül cəhcəhli,
Tərlanlı, sarlı meşələr!

Şirli, pələngli meşələr,
Bulud çələngli meşələr,
Qışı bəyaz qar örpəkli,
Yazı çiçəkli meşələr!

Qozlu, fısdıqlı meşələr,
Çoban yastıqlı meşələr,
Açılanda novruzgülü,
Həsrətlər yada düşələr!

Sazlı, kamanlı meşələr,
Çiçək dumanlı meşələr,
Quzqulaqlı, baldırqanlı
Durna lələkli meşələr!

Ömürdən bir möhlət ola,
Görüş bir də qismət ola,
Yurdda ocaq daşlarını
Öpəm-öpəm yana-yana,
Qovuşam o gülüstana
Yana o sönmüş ocaqlar...
Ay düşmənə qalan dağlar!
Ay gülzarı talan dağlar!
Bizim meşəli yaylaqlar!
İndi sizdən uzaqlarda
Sizə həsrət bir şair var.

*1991*

## DUYĞULAR

Səhra küləkləri kimi –
Könlüm mülkündə duyğular
Gah soyuq, gah isti əsdi.
Gah gecikdi,
Gah tələsdi.
Gah gözdə – göz yaşım dondu,
Gah ürəyim oda yandı...
Demədim, bəsdi! Duyğular!

Üzdüm fikirlər selində
Xatirələrin əlində...
Kədər xəncəri əlində
Yolumu kəsdi duyğular!



Gah ağlatdı xəlvət-xəlvət,
Əzizlərdən açdı söhbət,
Gah göstərdi mənə ülfət.
Gah məndən küsdü duyğular.

*1988*

## QADININ ƏRİ GƏRƏK

Qadının əri gərək,
Yanında nəri gərək.
Yüz kişinin içində,
Kişinin biri gərək.
Mirvarid, el içində
Kişinin yeri gərək.
Arvadın üzü nurlu
İncisi, dürü gərək.

## ALLAHIN ƏN ƏZİZ QULUDUR ŞAİR

Allahın ən əziz quludur şair
Xalqa dost, nəfsinə düşmən yaşayır.
Dünya kədəridir çəkdiyi kədər,
Gəlsə eldən gələr ona sevinclər.

## MƏNİM DƏ ÇİNARA ÇOX BƏNZƏRİM VAR

Çinarın yarpağı qızıla çalır,
Çinar yarpaq tökür, sanma qocalır.
O, gələn baharda yaşıl geyəcək,
Bəzəkli budaqlar yaz yelləriylə
Rəqs eyləyəcək.
Mənim də:
Çinara çox bənzərim var,
Elə ki boy atdı, qalxdı balalar
Böyüyüb çatdılar gənclik yaşına,
Gərəkli olsalar bir xalq işinə,
Ömrüm torpaq altda göyərəcəkdir.
Qoca kök təzədən zoğ verəcəkdir.

*1986*

## ƏHVAL – RUHİYYƏ

Ürəyimdə nə sevginin odu var,
Nə ağzımda yeməklərin dadı var.
Günlərimin qəmlisi var, şadı var,
Yaşayıram, dünya yenə gözəldir.

Bu dünyanın günəşi var, ayı var,
Meşəsi var, bulağı var, çayı var,
Xəyalımda bir gözəllik payı var,
Yaşayıram, dünya yenə gözəldir.

Bu dünyanın aranı var, dağı var,
İnsanların xəstəsi var, sağı var,
Qarşımızda ölüm adlı yağı var.
Yaşayıram, dünya yenə gözəldir.

Sonu olan planetdə yaşaram,
Gah susaram, gah kükrərəm, daşaram,
Aldadılmış bir uşağa oxşaram,
Yaşıl yarpaq sabah sarı xəzəldir.
Fani dünya niyə belə gözəldir?!

*1996*

* * *

Nə şıltağam,
Nə yaltağam,
Nə qorxağam,
Zirvəsi qarlı bir dağam.
Başımda tufanlar oynar,
Sinəmdən çeşmələr qaynar.
Əsarətə
Həqarətə,
Cəhalətə
Yoxdur tabım.
Yazılıb haqq dərgahında



Həm günahım, həm savabım.
Əyri yola gedənlərlə
Olmayıbdır ittifaqım.
Yarəb! Xalqın rəhmətilə
Bağlansın ömür kitabım.

*1996*

## SEVGİ PƏRİSİ

Qoca çinarın kölgəsində,
Qoca ürəyin ölkəsində,
Yatan pəri qızı oyansa əgər,
Bu miskin ölkəni tərk edib gedər.
Olar bu qoca mülk bir xərabazar,
Tökər yarpağını qocaman çinar.
Ey insanlar! Burada səs salmayın,
Sazı dindirməyin,
Kaman çalmayın,
Amandır! Burada nəfəs almayın!
Ay kimi parlayıb, gün kimi yanar,
Yatmış pəri qızı birdən oyanar,
Gedər, bu qoca mülk qalar virana.
Açar qapısını soyuq küləklər...
Onu oyatmayın, dəyməyin ona,
Bu qoca ürəyi qəm-qüssə təklər.

*1988*

## HALAL OLSUN SƏNƏ QANIM

Bu səhər günəş doğmadı,
Bağları duman bürüdü.
Sanma, məni qəm boğmadı,
Üstümə ləşkər yeridi –
O, qəm qılıncını çəkdi,
Hardasan, qanımı tökdü?
Halal olsun sənə qanım
Kədəri mənə qalanım.

*1991*

## LİRİK DUYĞU

Mənim ürəyimin qırx otağı var,
Gülləri ətirli şahlıq bağı var,
Sən bu sarayların şahzadəsisən.
İndi sənsizlikdə ey məni sevən:
Çoxdan bağlı qalıb qırx otağım da,
Solub, xəzan olub şahlıq bağım da.

## SƏHRADA TƏK QAMIŞ

Hanı o, odlu ürək?
O, yana kövrək-kövrək
Biz odunda isinək!

Hanı o yazlar, qışlar,
O nəğməli yağışlar,
Hanı məftun baxışlar,
Baxıb qısqana fələk.

Niyə oldu köçəri,
Uzun illərdən bəri –
Gedib, qayıtmır geri
Bizim o sevda "quşu?"
Niyə gəlməyir görək?
Səhrada tək "qamışı"
Yırğalar odlu külək!
Yırğalar odlu külək!

*1988*

## TARİZƏN

Yatmış həsrətimi bəsdir, oyatma!
Köhnə havaları çalma tarizən!
Gəl, belə çalmaqla günaha batma,
Sən məni odlara salma, tarizən!



Bu qanlı, qadalı ölüm ilində,
Qıyma, göz yaşımın batam selində.
Ağlatma kamanı, sazı əlində,
Dayan, məni məndən alma, tarizən!

Qalıb elim, obam tufan içində,
Neçə dərd gizlənir bir can içində,
Niskilli ömrümün köçhaköçündə...
Bu qədər insafsız olma, tarizən!

*1994*

## USTAD MÜĞƏNNİ

Belə dilləndirmə yanıq segahı,
Vallah tutar səni könlümün ahı!
Köçüb ürəyimin sultanı-şahı!
Xalı-xal üstünə belə vurma, gəl!

Şuri dilləndirdin, ürək ət deyil,
Dərdlini ağlatmaq, bu adət deyil,
Yıxılmış sarayı sən uçurma, gəl!

Nə həzin oxudun yanıq müğamı,
Əritmə o odda əriyən şamı.
Sənin qüdrətinə bəllidir hamı,
Qırılmış şüşəni bir də qırma, gəl!

Həsrətli səsiyəm yanıq bir neyin,
İndi, hansı simə toxunma, deyim?
Qəlbimi, sevdası bu yerin, göyün
Necə incəlibdir, bunu sorma, gəl!

Sən mənim xalqımın Əbulfətisən,
Onun şirin sözü, xoş ülfətisən,
Laylası, nəğməsi, şeriyyətisən,
Bizi xəyallarda sən, uçurma, gəl!

Şam kimi əriyib ömrümün çoxu,
Örtsə gözlərimi əbədi yuxu,
Sən, mənim üstümdə bir muğam oxu
Təmənnam budur ki,
Onda durma, gəl!

*1973*
*Səməd Vurğun günlərində*

## KƏPƏNƏK QIZ

Mən bir körpə quş idim,
Təbiətin sehrinə
Yaman vurulmuş idim.
Peşəm çiçək dərməkdi,
Çiçəklər rəng-rəngdi...
Babam deyərdi – qızım
Qız deyil, kəpənəkdi.
Nənəm deyərdi – qızım
Özü güldü, çiçəkdi.
Anam deyərdi – qızım
Evimizə bəzəkdi.

Arasında böyüdüm
Çiçəklərin, güllərin,
Göyərən taxılların,
Dən tutan sünbüllərin.
Ana qaranquşların,
Sevdalı bülbüllərin
Cəhcəhiylə boy atdım,
Ürəyimdə bir dünya
Məhəbbəti yaşatdım...

İndi sükutu dərin...
Çiyinlərində yükü,
Ürəyində ağrısı
Keçən ağır illərin



O kəpənək mənəmmiş?
O gül, çiçək mənəmmiş?
Dünya, ey fani dünya!
Gəl, o "kəpənək" qızı
Sən indi tanı, dünya!

*1990*

## LİRİK DUYĞU

Nə vüsalım, nə həsrətim,
Nə sevgim var, nə nifrətim,
Nə sevincim, səadətim,
Boş qalıbdır, boş, ürəyim!

Nə yazı var, nə qışı var,
Nə qarı, nə yağışı var,
Nə dünyaya baxışı var,
Daş olubdur, daş, ürəyim!

Yanar dağdır, sönməyəydi,
Zirvəsindən enməyəydi,
Yanıb külə dönməyəydi
Kaş ürəyim! Kaş ürəyim!

*1989*

## İSTƏSƏYDİM

İstəsəydim səni, səndən alardım,
Gözəlləri öz taxtından salardım.
Ürəyimi-ürəyinə calardım
Sən yanardın, mən baxardım tüstünə.

Ulduz olub öz zirvəmdən enərdim,
Dövrəndəki "mələkləri" yönərdim
Al laləyə, qərənfilə dönərdim,
Səpilərdim yollarının üstünə...

İstəsəydim vüsalına yetərdim,
Mən gül olub ürəyində bitərdim,
Orda Bülbül fəryadıyla ötərdim,
Mən yanardım, sən baxardın tüstümə.

Ölsəm, bir gün gəl qəbrimin üstünə,
Bircə dəstə bənövşə qoy, bəsimdir!
Baş üstündə bir qaranquş ötəcək,
O da sənə minnətdarlıq səsimdir.

*1989*

## SEVƏNLƏR OXUSUN, SEVMƏYƏNLƏR YOX

Sevsən bil, sevginin çoxdur əzabı
Hünərin var, ona gətir sən tabı!
İstərəm yazam bir sevgi kitabı
Sevənlər oxusun,
Sevməyənlər yox!

Ürəklər titrədim sarı sim kimi,
Əsim yaz havalı bir nəsim kimi,
Şerim odlu olsun nəfəsim kimi
Sevənlər oxuyun,
Sevməyənlər yox!

Sevdim mən də bütün gözəllikləri,
Ulduzlu səmanı, çiçəkli yeri,
Sevincli, kədərli bu nəğmələri
Sevənlər oxusun,
Sevməyənlər yox!

Sevdim hər kəsdən çox bu pərişanı,
Yaralı bir eşqlə Azərbaycanı.
Bu yaradan axır şerimin qanı
Sevənlər oxusun, sevməyənlər yox!



Sevgidən söz açma, ey başında qar!
Qış göyərən otu şaxta qurudar,
Şerimdə qış qəmi, yaz sevinci var,
Sevənlər oxusun,
Sevməyənlər yox!

*1989*

## MƏHƏBBƏT KÖÇƏRİ QUŞDUR

Məhəbbət köçəri quşdur,
O nəğməli qaranquşdur,
Yuva qurar ürəklərdə,
Arzularda, diləklərdə...
Gənclik bizdən gen düşəndə,
Saçımıza dən düşəndə,
Ömrümüzə payız gəlib,
Duman, çiskin, çən düşəndə,
Könlümüzdən köç əyləyər,
Ömrümüzü heç eyləyər,
Boyat olar çörəyimiz,
Duzsuz olar xörəyimiz,
Buludlu qış göyü kimi
Tutqun olar ürəyimiz.

*1984*

## SEVİB-SEVİLƏN QIZLAR

Vətənin nazlı qızları,
Qırın adətdə "buzları".
O dürləri, almazları
Siz ağıllarda axtarın!

İgid sınanar düz yolda,
Büdrəməz, getsə yüz yolda.
Səadəti siz nə pulda,
Nə dövlət, varda axtarın!

İnci, almaz, dürr soyuqdur,
Daşların ürəyi yoxdur,
İsti ürəklilər çoxdur,
Odu siz orda axtarın!

Dağlar qalıb sel içində,
Kaman titrər tel içində,
Yaxşı dostu yaman gündə,
İgidi darda axtarın!

Siz toylarda, nişanlarda,
Qoymayın gəncləri darda.
Daş-qaşları kamallarda,
Siz, düz ilqarda axtarın!
Budur sözümün qüvvəti:
Uca tutun məhəbbəti,
Nazlı qızlar, səadəti
Mərd oğullarda axtarın!

*1974*

## YUXU GÖRÜRDÜ QARI

Yuxu görürdü qarı:
Gur, xurmayı saçları
Çiyninə sürüşürdü.
Kirpiklərin kölgəsi
Al yanağa düşürdü.
Yuxu görürdü qarı:
Əynində toy paltarı
Qardaşının toyunda
Yordu oyunçuları –
Dedilər: Olsun gəlin!
Tamaşasına durdu
Hamı, bu qız gözəlin
Biri dedi: qəşəngdir,
Biri dedi: göyçəkdir,



Qız deyil, ağ çiçəkdir.
Qədəminə gül tökdü
Cavanlar dörd bir yandan...
Oyandı həyəcandan
Yataqdan durdu qarı
O, güzgüyə baxanda
Töküldü göz yaşları...

*1986*

## HANI

Hanı gözündəki işıq,
Üzündəki o yaraşıq,
Dodağındakı gülüşlər,
Ağzındakı incə dişlər.
Niyə belə ləng gedirsən,
Əhvalı çox tənk gedirsən.
Nə tez yağdı başına qar,
Hanı ipək-qumral saçlar?
Gözlərin niyə dolubdur,
Ayağın da üç olubdur.
Kimin qalıb, kimin köçüb?
Üzündə belə qəm qalıb,
Sənə dünya sevincindən
Bir kağız, bir qələm qalıb.

*1999*

## AVEY DAĞLA SÖHBƏT

Avey dağım, mən zirvəndə itəydim,
Bir gül olub, daş sinəndə bitəydim,
Mən ney olub o dağlarda ötəydim
Danışaydın nələr keçib başından,
Gah su axıb, gah qan axıb döşündən.

Üzərindən neçə karvan keçibdir,
Od, qılıncla neçə dövran keçibdir,
Qara Məlik hansı yoldan keçibdir?
Hayla gəlib, kimlər vayla qayıtdı,
Öz tökdüyü qan selində kim batdı?

Kiminkidir o boş qalan binalar,
İnsan oğlu gah qul, gah da şah olar,
Hər baxanda könlüm dolu ah olar!
Avey dağım neçə dövran görübsən,
Sən neçə qul, neçə sultan görübsən?

Baş üstündə hey qılınclar sıyrılıb,
İgidlərim yurd uğrunda qırılıb,
Gah lil axıb, sular gah da durulub,
Günlərimiz gah ağ olub, gah qara,
Oxşamışıq tufanyıxmaz dağlara.

Biz görmüşük "əzrail"in üzünü
Birini yox, bəlkə neçə yüzünü.
Kim dedisə onda sözün düzünü
Kəfənini salıb dedi boynuna,
İtələndi öz qəbrinin qoynuna.



"Millət" sözü onda bizə yasaqdı,
Ay-ulduzlu bayrağımız dustaqdı,
Yurdumuzda hey göz yaşı, qan axdı,
Biçənəkdə dönə-dönə biçildik,
Yüz illərlə biçildikcə kiçildik.

Hanı bizim o bağçalar, o bağlar,
Hanı bizim buz bulaqlı yaylaqlar,
Kimə qaldı o meşələr, o dağlar?
Torpağımı para-para böldülər,
İgidlərim yurd uğrunda öldülər.

Qəsbkara "qardaş" deyib inandıq,
Bu "inam"ın odlarında çox yandıq,
Susa-susa parçalandıq, talandıq,
Talayanlar bizi əbləh sandılar,
Taladıqca yaman iştahlandılar...

Göz kor olub, kütləşəndə ağıllar,
Qana düşdü təzə toylu oğullar,
Nər görkəmli, şümşad boylu oğullar.
Bu itkiyə bütün millət ağladı,
Ağlayanlar həm də xəlvət ağladı.

Fəlakətli "təmizlənmə" ilində
"Kəlmeyi-şəhadət" andı dilində,
Kəndin ortasında, doğma elində
Neçə cavan yanı-üstə yıxıldı,
Haqsız axan qanı üstə yıxıldı.

"O ölüm"dən el qurtardı babamı,
El içində o hörməti ucanı,
"Hökm verən" dinləmədi obanı
Sürgün etdi onu səksən yaşında,
Qəbri qaldı qum təpəsi başında.

Cavan oğlu batdı Aral gölündə,
Qaldı əri Qazaxıstan çölündə,
Qoca nənəm fəlakətin selində,
Cüt gedərək, tək qaytıdı sürgündən,
Biz ayrıldıq Avey dağdan o gündən.

Babam* verdi Şəmsəddinçün gözünü,
Şair** Arif deyib sözün düzünü,
Rusiyada sürgün gördü özünü,
Biz tək olduq, belə getdi iman, din,
Qaldı xain erməniyə Şəmsəddin.

Yamanların gördük yaman üzünü,
Qoymadılar millət desin sözünü,
Görənlərin çıxartdılar gözünü,
Yuxarıdan əmr verdi ağalar,
Bu bölgüdə birləşdilər "qağalar".

Dövran bizə harda aman veribdir,
Dərd üstündən dərdi yaman veribdir,
Yüz dərd üçün bizə bir can veribdir,
İxtiyarı bizdə deyil onun da,
Nə bir Allah, nə də bəndə yanında.

Avey dağım, gözü yaşsız ağlaram,
Sinəsini tufan oymuş dağlaram,
Torpağını yaram üstə bağlaram,
Zaman vuran ağrıları alarsan,
Sən təbibim, sən dərmanım olarsan!

Rusiyada*** oğul satdı atanı,
Ata bildi əli qana batanı,
Sürüldükcə təbliğatın "kotanı"
Xalqımızın tarixini şumladıq,
Dinənlərin biz ağzını mumladıq.

Yaman olur insan şərə uyanda,
Kitablardan tonqal çatdıq hər yanda,
Azğınlaşdıq, yandı qüdsi – Quran da.
Biz inamı, biz imanı itirdik,
Gül bağında tikan kolu bitirdik.

* M.P.Vaqifin həməsri ulu babam Abdurrahman ağa "şair" təxəllüs Dilbazi oğlu.

** M.P.Vaqifin həməsri şair, mayor rütbəli Mustafa ağa Arif. Abdurrahman ağanın bacısı oğlu.

*** Pavlik Marozova işarədir.



Biz kim idik, kimi qırdıq, ilahi?!
Ölənlərin bilinmədi günahı,
Ulu Tanrı, sən götürmə bu ahı,
Deyib yoldu saçlarını analar.
Ey insanlar, belə haqsız qan olar?!

Avey dağım, nə dövranlar görmüşük,
Haqsız axan biz nə qanlar görmüşük,
Viran qalan xanimanlar görmüşük,
O günlərin sən, ey qoca şahidi,
Söylə görək kim qazandı, kim yedi?!

Var sinəmdə neçə dağlar, düyünlər,
Bir də geri qayıtmasın o günlər,
O ölümlər, o qırğınlar, sürgünlər...
Bizim şənlik bir də qəmə batmasın,
Qantökənlər qoy xalqı ağlatmasın!

Avey dağım, çox sözüm var sorası,
Ürəyimin yanmamışdır harası,
Orda göynər neçə dərdin yarası,
Yox dərmanım, öldürüblər loğmanı,
Qanla yazdım bu yazdığım dastanı.

Daş sinəndə daşa dönmüş dərdlərdən,
Yurd uğrunda qurban gedən mərdlərdən,
Nələr gördün sən o üzü sərtlərdən?
Avey dağım, sən, ey qoca cəngavər,
Ver başından keçənlərdən bir xəbər!

Biz olmuşuq bir araba təkəri,
Sürülmüşük gah irəli, gah geri...
Qəsb etdilər biz daşıyan bəhəri,
Zənginlərin olduq yoxsul balası,
Babəklərin hüquqsuz, qul balası!

Mələklərin qanadını qırdılar,
Qanadları şeytanlara vurdular,
Başımıza yaxşı corab hördülər:
Şeytanları gördük mələk donunda,
Şeytan olduq şeytanların yanında.

Avey dağım, indi kövşən yeriyəm,
Əzab çəkmiş insanlardan biriyəm,
Nə ölüyəm, nə diri tək diriyəm,
Bir kitabam, sinəm sözlə doludur,
Getdiyim yol ululların yoludur.

Heç bilmirəm bu yol harda bitəcək,
İzim harda tapdanacaq, itəcək,
Qəbrim üstə gül, ya tikan bitəcək,
Məni xalqım rəhmətləmi anacaq,
Ya sönəcək yandırdığım bu ocaq?!

Bəlkə yenə zaman "məqam" gözləyib,
İnsanları astarlayıb, üzləyib,
Alimlərin məzarını düzləyib,
Sümüklərdən haqqı-hesab soracaq,
Müdrikləri, aqilləri qıracaq?!

Çox yanmışıq bu günlərin oduna,
Fal açmayaq gələcəyin adına,
Avey dağım, sən düşəndə yadıma
Könlüm coşur, bir dağ seli oluram,
Min nəğməli sabah yeli oluram.

Avey dağım, indi halım hal deyil:
Sükütdayam, ancaq dilim lal deyil,
Bu dünya ki, daim qeylü-qal deyil,
Xoş günləri, bəd günləri var onun,
Açılmamış düyunləri var onun.



Aman fələk, yaman fələk, dad fələk,
Heç olmasın qantökəni şad, fələk!
Kimə doğma, kimə ögey, yad fələk!
Niyə mənim millətimə yad oldun,
Qılınc oldun, nizə oldun, od oldun?

Qılıncların öz qəlbinə sıyrılsın,
İti uclu nizələrin qırılsın,
Bir də zəfər təbilləri vurulsun,
Qalxan bayraq bir da enməz demişlər,
Od yurdunun odu sönməz demişlər.

Avey dağım, sinən bağça-bağ olsun,
Təpələrin uca-uca dağ olsun,
Gedən gedib, qalanların sağ olsun,
Mərd babalar torpağıdır bu torpaq!
Bu torpağı babalar tək qoruyaq.

Onlar salıb "keçilməz"dən yolları,
Daşlar üstdə atlarının nalları,
İz salıbdır... bükülməyib qolları,
Belə olub bizim ulu əslimiz,
Bu mərdlərin övladıdır nəslimiz!

Avey dağım, məni gizli dərd oyar,
Ürəyimdə bir Qarabağ dərdi var,
Bu torpağın igidi var, mərdi var,
Anaların "Allah!" deyən sədası
Qoy onların olsun xeyir-duası

Azərbaycan, çıraqların gur yansın,
Xalqımızın ürəyində nur yansın,
Keşiyində mərd oğullar dayansın,
Yolun haqdır, gözün toxdur, millətim!
Həqiqətə ölüm yoxdur, millətim!

## İKİNCİ HİSSƏ

Kim qarğadı "bənövşələr bitməsin,
İki sevgi bir-birinə yetməsin",
Mənim tüstüm Avey dağda tütməsin,
Ürək orda, bədən burda göynəsin,
Şair eldən uzaq düşsə neyləsin!

Vəlixanda yer tutubdur ayağım,
Qoy var olsun mənim ata torpağım,
Avey dağdan gəldi sonra sorağım,
Ətəyində boya-başa yetmişəm,
Bir gül olub daş köksündə bitmişəm.

Hürr yaşadım nənə-baba elində,
Dağlar aşdım köhlənlərin belində,
Üzdüm gah qəm, gah da sevinc selində,
O meşələr, o bulaqlar, o çaylar,
O günlərim hər an məni haraylar.

O yerlərdən indi uzaq düşəli,
Bilməyirəm ağıllıyam, ya dəli?
İsti qoynu tər bənövşə döşəli
O bağların yaz torpağı olaydım,
O düzlərin boz torpağı olaydım.

Sinəm üstdə açılaydı al güllər,
Rəqs edəydi yaz yeliylə sünbüllər,
Həsrət dolu illər, illər, ay illər!
Həm qocalıq məhbəsində dustağam,
Həm o dəcəl, o "haşarı" uşağam.

Düşür yada o oylaqlar, o yollar,
Xam atlara kəmənd atan oğullar,
Köhlənləri tək nallayan o qollar,
Mərd analar yenə "pələng" doğurlar,
"Pələng"ləri heyif tək-tək doğurlar!



Ah o günlər, ah o aylar, o illər!
O nəğməli, o həvəsli könüllər,
O yağışlar, o selablar, o sellər,
İndi onlar xəyalıma qonaqdır,
Özüm yaşlı, könlüm vallah uşaqdır!

İndi mənim saçlarıma qar düşüb,
Qızılgülün növrağına xar düşüb,
Gül quruyub, bağça solub, bar düşüb,
Ömür yolum qarlı qışa çevrilib,
Uşaqlığın tacı-taxtı devrilib.

Hərdən dönüb şeh damlası oluram,
Bahar yeli, dağ havası oluram,
Bulud kimi boşalıram, doluram,
Yada düşür o analı günlərim,
Gür saçları o xınalı günlərim.

Yada düşür Karqayanın meşəsi,
O meşənin ən nəğməli güşəsi,
Çobanların həzin, kövrək ney səsi
Dönüb xəzəl yarpağına hey əsir,
Yazı, qışı könlüm ora tələsir.

Sönüb gedib göy üzündə çox ulduz,
Vardı mənim ata nənəm Xanımqız,
O bəxti kəm, ilqarı düz, əhdi düz,
Qalmasa da sir-sifəti yadımda,
Qeyrət, təmkin varmış o dul qadında.

Qanadım yox, mən zirvənə yüksələm,
Gücüm yoxdur, qocalığa güc gələm,
Avey dağım! Bir özüməm, bir qələm,
Yaşayıram el qeyrəti canımda,
Babaların təmiz qanı qanımda.

Avey dağım, başın niyə dumandır?
Keçənləri yada salma, amandır!
Mənim könlüm bir dalğalı ümmandır,
Çalxalansa qərq olaram selində,
Həyatımın belə gövrək ilində.

Avey dağım, xoş günlərdən danışaq,
O toylardan, düyünlərdən danışaq,
Al duvaqlı gəlinlərdən danışaq,
Qoy aşıqlar sazla, sözlə yarışsın,
Söhbət saza, saz söhbətə qarışsın.

Avey dağım, qar çiçəyi açanda,
Durna çəkib, qatarını uçanda,
Yaz buludu çəmənə şeh saçanda
Yadındamı, sübh şehinə batardıq,
Evcik qurub, bağda ocaq çatardıq.

Yadımdadır o yam-yaşıl təpələr,
O yerlərə qaçışardıq hər səhər,
Biz elə şad, elə xoşbəxt, bəxtəvər,
Qurşağacan çeyilliyə girərdik,
Çeyl otundan "şah papağı" hörərdik!

Avey dağım, gün zirvəndə batanda,
Şəfəqlərdə tonqalını çatanda,
Kəkliklərin çınqıllarda yatanda
Aşırlının çıraqları yanardı,
Ay da doğub göydə xumarlanardı.

Kəndimizdə sönməsin o çıraqlar!
Qurumasın mən gördüyüm bulaqlar!
Leysan yağsın, qoy islansın uşaqlar,
Bizim kimi selə, suya batsınlar,
Qoy şadlıqdan aya fişəng atsınlar!

Açılanda sarı yemlik çiçəyi,
Qızaranda lalələrin ləçəyi,
Səsləyəndə bizi bahar küləyi
Şadlıqdan hey "hərlən baba" oynardıq,
Bulaq kimi içimizdən qaynardıq.

Qar çiçəyi qalxıb qarı dələndə,
Yaz xəbərli qaranquşlar gələndə,
Xarı bülbül gül açdığın biləndə
Bağ-bağçalar cəh-cəhlərlə dolanda,
Quşların da toy nişanı olardı.



Avey dağım, alça çiçək açanda,
Kəndin üstdə güd yarpağı uçanda,
Baş bağlayıb qızlar bağa qaçanda,
Ətrafları uşaqlarla dolardı,
Bizim əsil bayramımız olardı.

Göy gurlayıb, yağışlar gur yağanda,
Tarlalara buluddan dürr yağanda.
Günəş doğub torpağa nur yağanda,
Daraşardı çiçəklərə arılar,
Göy pəncərə, çöldə qızlar, qarılar.

Vardı bizim bir Sayalı nənəmiz,
Bir müqəddəs, bir həyalı nənəmiz,
Boyu kiçik, nəsli ali nənəmiz,
Qadın deyil, o mələkdi, hürüdü,
Mən onunçün hər nə desəm yeridi.

Nənəmizə "Böyük ciji" deyərdik.
Xörəklərin biz bal kimi yeyərdik,
Nə gizlədim, orda gördük, nə gördük,
Ordan gəlir bizim yaxşı adımız,
Ordan yanır ocağımız, odumuz.

Böyük cijim əzizlərdi hey bizi.
Süfrəmizdə beçə balı, süd üzü,
Süd qaymağı qaymaqların ləzizi
Yeyib-içib, oynamağa qaçardıq,
Çəmənlərdə kəpənək tək uçardıq.

Bir bayramdı aran köçü, dağ köçü,
Yollarımız dərə, təpə, çay içi,
Ağ sürünün qabağında erkəci,
Qoyunlara qarışardı quzular,
Qaçışardı dovşan tutan tazılar.

Bir aləmdi qız-gəlinin bəzəyi,
Qız xalamın zərli ipək örpəyi,
Gəlin anam gəlinlərin göyçəyi,
Özünü yox ancaq bizi bəzərdi,
Örpək qara, qara paltar geyərdi.

Biz elə ki, Dəlidağa çatardıq,
Yurd yerində şehə, suya batardıq,
Quzqunlağı baldırğına qatardıq,
Qaçışardıq ordan yeddi bulağa,
Dağ gülərdi biz gələndə o dağa.

Burda hər yan gül-çiçəyə batmışdı,
Qurşağını Allah yerə atmışdı.
Rəngləri də bir-birinə qatmışdı....
Göy, qırmızı, mavi, sarı çiçəklər,
Ağ ləçəyi dağlar qarı çiçəklər.

May girəndə dörd ay burda qonaqdıq,
Ulu Tanrı! Biz nə xoşbəxt uşaqdıq.
Orda bütün qadağandan uzaqdıq,
Yaşıl donlu təpələrin döşündə,
Oturardıq bulaqların başında.

Çiçəkləri qucaq-qucaq dərərdik,
Kəkotunu dərib günə sərərdik,
Oynamaqda biz doymamış gödərdik,
Axşam düşüb, gün dağlara yaslanıb,
*Üst-başımız dağ şehində islanıb.*

Donumuzu daşlar üstə sərərdik,
Çağırana bir səslə hay verərdik.
Rast gələnə çiçəkdən pay verərdik,
Yorulmazdıq, dörd dolansaq dağları,
Adımızı qoymuşdular: "Haşarı".

*Göy şaqqıyıb, dolu yağış yağanda,*
Bir tərəfdən qızıl günəş doğanda,
Ayaqyalın qaçışırdıq hər yanda,
İndi hanı, ah, o aylar, o illər?
Söz anlamaz o "haşarı" dəcəllər?!

Qurtaranda arpa-buğda biçini,
Gözləyirdik dağda, "peşqurd" köçünü,
Bir boşaldaq xurcunların içini,
Təzə xiyar, qarpız, yemiş nobarı,
Yaylıq armud yeyib gəzək dağları.



Aran köçü bir hay-haray düşərdi,
Hər qapıda yağlı kömbə bişərdi,
Gülüş səsi evdən-evə düşərdi,
"Sacarası", bizim yağlı kömbəmiz
Yol boyunca yeyilərdi çox ləziz.

Son mənzili Göyəzəndə alardıq,
Gecələyib el burada qalardı.
Çırağımız ay işığı olardı,
Atlanardıq dan ulduzu doğanda,
Qoyun mələr, at kişnərdi hər yanda.

Bir nağıldı yollar boyu qayalar,
O daşlara zaman vuran boyalar...
Xırmanlarda dərz vurulmuş tayalar
Kəndimizə yaraşıqdı, bəzəkdi,
Hər sünbülü əkinçiyə çörəkdi.

Vaxt olaydı söz yazaydım hər daşa,
Bizim yerlər tamaşadır, tamaşa!
Damcılıya yüyürərdik birbaşa!
Əsirgəməzdi o bizdən barını,
*Əncirini, heyvasını, narını.*

Çox istərdik kahalara dırmaşaq,
Dərə keçək, düzən keçək, dağ aşaq,
Neyləməli, arzu çoxdu, biz uşaq!
Bütün günü oynayardıq, gülərdik,
Ordan birbaş bizim bağa gələrdik.

Ana babam yüz beş yaşlı Vələağa
Bağban olmuş öz saldığı bu bağa,
Qaçışardıq ordan fındıq yığmağa,
Atlanardıq girən kimi bu bağa,
Dələ kimi biz budaqdan-budağa.

Nələr yoxdu orda gözlər görəsi,
Meyvələrin axan zaman şirəsi,
Vələağanın nəticəsi, nəvəsi
Bütün günü orda meydan sürərdik,
Alçanı biz güldən çıxcaq yeyərdik.

Badamı da elə kal-kal yeyərdik,
Acısını bal dadıyır deyərdik.
Meyvə dolu şaxlarını əyərdik,
Ciblərimiz kal meyvəylə dolardı,
Budaqlar da saçımızı yolardı.

Neçə cinsli nar var idi o bağda,
Ulduz kimi sayrışardı budaqda.
Səbir hanı o "haşarı" uşaqda,
Biz narları dişləyərdik, atardıq,
Meyvələrin axırına çatardıq.

Ağzımdadır dadı hələ göy narın,
Gözümdədir çiçəkləri baharın,
İydələri gül açanda bağların
Hava çiçək ətri ilə dolardı,
Uşaqların toy-bayramı olardı.

Başımıza bağlar *çiçək tökərdi*,
Saçımıza çiçək ətri çökərdi,
Ürək bizi oynamağa çəkərdi,
Axşamacan hey qaçardıq, tutardıq,
Biz şadlıqdan aya fişəng atardıq.

İndi budur, sahilində Xəzərin
Bir qoca var, fikrə gedib çox dərin...
Həsrətində o ayların, illərin
Ana deyən bir uşağa dönübdür.
Boy kiçilib, lap yumağa dönübdür.



## KOR ŞAİR

*Vəfasızdan könül yad olsa yaxşı*
*Özünbilməzdən azad olsa yaxşı.*
*Vəfasız dost ilən qəmgin olunca*
*Vəfalı "kəlbilən" şad olsa yaxşı.*
*Abdurrəhman ağayi Dilbaz oğlu*

Qəmli kitabını şair ömrünün
Açıb oxumağa dözüm gərəkdir.
Alovu sönəndə qoru sönməyən
Ocaq kimi odlu sözüm gərəkdir.

Hakimlərin əli batanda qana,
Şairlərin dərdi sığmır dastana.
Yazmaq istəyirəm mən bu dastanı
Qələmdən qan damır, yaza bilmirəm.
Qan kağıza hopur, poza bilmirəm.
Vərəqlər üstündə quruyur bu qan,
O qanla yazılır bu qəmli dastan.

Tarixin on yeddi yüzilliyində,
Bir şair yaşadı Qazax elində.
Ömrü gödək oldu,
Adı – Əbədi
Yaşadı xalqının dərdi könlündə,
Onunçün dövrandan zərbələr yedi...

Ozamankı Qazax, Şəmsəddin dərdi
İndiki Qarabağ dərdimiz kimi
Döyüşlərə atdı nə qədər mərdi.
Bu torpaq zəngindir, qonşular xain.

Onunçün qoymurlar bizi arxayın.
Bu torpağa sahib olmaqçün onlar
Töküb tarix boyu günahsız qanlar,
Ocaqlar söndürüb, evlər yıxıblar,
Qonşuluq haqqına xain çıxıblar.

Qurd içindən yeyir ağacı, heyif!
Bunu bizdən əvvəl atalar deyib.
Milləti içindən yeyən olmasa
Millət əyilməz.
Torpağı bölünməz, varı yeyilməz!

Qazax mahalının əsil-nəsilli
Yüksək təhsil almış vəkili vardı.
Yerində o həm sərt, həm xoşrəftardı.
Xalq işinə də çox can yandırardı,
Xalqı ləyaqətlə dolandırardı.
Bilirdi millətin hər bir dərdini,
Başda saxlayırdı elin mərdini.
Nəcabətli vəkil bir buna görə
Ən əziz qızını mərd Dilboz oğlu
Şair Əbdürrəhmana vermişdi ərə.

Xəyanət gəlməsə dostluq donunda
Hakimlər alçalmaz xalqın yanında.
Bir el vəkililə dostluq etsə şah
O eli bəladan saxlasın Allah!
Heyif, bu dostluğa vəkil inandı,
O "şah dostluğu"nu xətərsiz sandı.
Bilmədi şahın var bir umacağı,
Taxıllı, otlaqlı Qazax torpağı
Onun olmalıydı, buydu məsələ.
Gizlin saxlayırdı fikrini hələ.
Qazax vəkilini alırdı ələ
Asan həll olunsun çətin məsələ.
Siyasət oyundur, hakimlər gərək
Siyasət oyununda olsunlar zirək.
Qazax vəkilinə tez-tez İrakli şah
"Şahanə sovqat"la qonaq gələrdi.
Bu sirr heç kəsə deyildi agah,
Şah daim fikrində torpaq bölərdi.
Vəkilə qonaqdı yenə İrakli,
Qonaq otaqları gur çılçıraqlı.



Aşıqlar oxuyur,
Sazlar ötüşür,
Şənlik sədaları hər yana düşür.
Plovlar dəmlənir,
Xuruşlar bişir...
Şaha xidmətlərin var öz yolları:
Turacı, cüyürü, qırqovulları
Qarayazının,
İçi doldurulmuş əmlik quzunun
Yağlı kababların
Al şərabların
Qonaq otağını doldurub ətri...
Bizdə əziz olur qonağın xətri.
Şah oğlu; şah ola həm də bu qonaq!
Şahın xoş üzünə, şirin dilinə
Sadəlövh əyanlar oldular müştaq.
Qonaqlar içində yalnız bir nəfər:
Qazax vəkilinin qızının əri –
Dilboz oğlu şair, el mötəbəri -
Üzdən soyuq, dalğın, içdən yanırdı...
Çünki bu dostluğu saxta sanırdı,
Şahın "umacağı" var, inanırdı.

Soyu, rütbəsi ali İrakli şah
Oturmuşdu yenə süfrə başında,
Xörək gətirənlər əli döşündə
Girib, çıxırdı...
Şairin qəlbini bu hal sıxırdı.
Yoxsulun üstünə qəpik atarlar
İstəsə, şahlara eli satarlar!
Qiymətli daş-qaşlar,
Allar, qumaşlar,
Xalı, zili dolu "dərmə" farmaşlar
Qapıda bağlanıb "haçadil" atlar,
Şaha sovqatlar...
Şah süzüb gözucu bu sovqatları
Söylədi: – Bunlara ehtiyac yoxdur,

Mənim şahlığımda bunlardan çoxdur.
Zarafata salıb dedi:
– Ağalar!
Şahın hədiyyəsi torpaqdan olar!
Şəmsəddin mahalı, bir də ki, Qazax
Mənim şahlığıma olsalar ilhaq,
Layiqli hədiyyə bu olar ancaq!
Bir az amiranə, bir qədər yumşaq
Deyib sözlərini susdu daha şah.
Vəkilin bu sözdən qurudu qanı,
Çökdü sifətinə bir qəm dumanı.
O, təntimiş halda baxdı şairə,
Şair gözlərini tez dikdi yerə.
Vəkil yaxşı bildi bu nə deməkdir,
Şah ilə dostluğu bu itirməkdir.
Çökdü ortalığa dərin bir sükut...
Bir səs dedi:
Vəkil, qorxunu unut!
"Sən xalqın oğlusan, xalqı əziz tut!!
Yatır bu torpaqda ulu əcdadın,
Onların birinin adıdır adın.
Mən qeyrət səsiyəm o nəslin, vəkil,
Torpaqdan hədiyyə olmaz, bunu bil!"
Qorxu hissi dedi:
"Vəkil, səhv etmə,
Sən şah oğlu, şahı belə incitmə!
Misal var "arxalı köpək qurd basar"
Onun arxasında dayanıbdır çar,
Hökmündə silahlı, saysız ordular.
Bir düşün nədir ki, "bir ovuc torpaq"
"Əl boyda Şəmsəddin", "əl boyda Qazax",
Onunçun dostluqdan düşəsən uzaq!
Şah oğlu şah ola dostun da, düşün...
Axırı nə olar belə bir işin?
Şöhrət hissi dedi:
Bu cah-calal sənə, de, kimdən qalıb.
Bir yadına sal.



Çarın çörəyidir yediyin çörək.
Bu rütbəni sənə kim verib, görək?!"
Səməd oğlu demiş: "qorxuyla" "şöhrət".
Bir gör neylədi:
Bu bəşər oğlunu məğlub eylədi.
Bir cavab gözləyir bərk hirslənib şah.
Onun qəzəbindən sən saxla, Allah!
Vəkilə baxmayır, şah yana baxır.
Gözündən bir qəzəb şimşəyi axır.
Doldu bu qəzəbin odu otağa...
Yaralı əsgər tək durub ayağa,
Billur qədəhini doldurub vəkil
Baş əydi hörmətlə şahın önündə.
Söylədi: – Allahın bu xoş günündə
Mənim bu mülkümə şah gəlib qonaq.
Qonağa yox demək sayılar günah.
Billur qədəhlər hey... dolur, boşalır.
Şairin qədəhi ancaq boş qalır.
– Başın uca olsun, Şəmsəddin, Qazax!
Siz şah torpağına olursuz ilhaq,
Babamız vəkil də İrakli şaha
Vəzir olacaq! –
Deyib şair hirsli məclisdən çıxır,
Onun arxasınca İrakli baxır.
Məclisin ahəngini pozmamaq üçün
Qəzəb qılıncını o qoyur qına.
Qazaxın bu şair Dilboz oğluna
Divan tutmağın də öz vaxtı gələr.
Mənim kimliyimi o zaman bilər.
Yığılır ortadan dolu süfrələr,
Məclis sona yetir, iki yüz nəfər
İki yüz cəngavər silahlı, atlı,
"Torpaq bexşeyişli", toylu, büsatlı,
Gürcüstan şahını yola salırlar,
Şahdan xoş üz görüb, "xoşbəxt" olurlar.
Elə ki, şairlə vəkil qaldı tək,
Vəkil qışqırdı ki,

Bir anlat görək,
Niyə "çiy" iş tutdun şahın yanında,
Niyə at oynatdın şah meydanında?
Mən "mahal vəkili", o isə şahdır,
Şahlar yer üzündə həm də allahdır.
– Dostluqda siyasət, soyğun günahdır.
Sənin öz əlinlə şah səni soydu,
Səni xalq yanında müqəssir qoydu,
Onun dostluğunun məqsədi buydu.
Suyu, anaların göz yaşlarından,
Bizim babaların başdaşlarından
Töylə tikdirəcək atlarına şah,
Bunu qəbul edər nə xalq, nə Allah.
Vəkil fikrə gedib, dedi: – Neyləyək,
Mən öz zəncirimi qıraydım gərək.
Halımı bilirsən, dərs vermə mənə,
Qan yağsın mən vəkil olduğum günə.
Siyasətin qanlı qanunları var:
Xoşluqla istəyən güclə də alar.
Qalmışam xalq ilə şah arasında,
Şahın əlindəki qılıncam "qın"da
Dəstəyimdən tutub, qoymur ki, çıxam,
Torpaq istəyənin evini yıxam.
Mənim zəhrimardır yediyim çörək,
Bunları sən yaxşı biləsən gərək!
Şan-şöhrət xətrinə hansı biqeyrət,
Doğma torpağını bəxşeyiş verər?
Qeyrətsiz sanmasın qoy məni millət,
Ömrüm ömür deyil, zəhərdir, zəhər!
Qılınc arasından, qılıncsız keçən,
Hakimləri "başsız" görübdür vətən.
İrakli dalını sökəyib dağa,
Bəs mənim arxamda kimim var görək,
Mən ona söykənib durum ayağa?
– Eləysə uzaqsan bu qədər nədən
Sən Cavad xan kimi bir sərkərdədən?
Canı istəmirsən nə üçün ondan?



Torpağınız da bir, millətiniz də,
Tarixi dərdiniz, "illətin"iz də.
Dilimiz, dinimiz, imanımız da,
Birliyə çağırır Quranımız da.
Baba, ibrət alın bir Cavad xandan,
Üstünə düşüblər gör neçə yandan,
Osa döyüşlərdə "ölüm ya zəfər!" –
Deyərək, döyüşər belə kişilər
Kimin qarşısında əyilə bilər?
Vəkil elə çıxdı burda özündən
Dedi: bəsdir, daha, düşmə gözümdən,
Şairsən, dur get, sən öz şerini yaz,
Şair tayfasında siyasət olmaz.
Siyasət oyundur, qanlı bir oyun,
Uduzan cəfasın çəksin bir qoyun.
Mənə söhbət açma sən Cavad xandan,
Kömək istəmərəm heç vaxt mən ondan!
Madam ki, sən məni düşmürsən başa,
De get, öz bildiyin kimi də yaşa!
– Eləysə, Gəncəyə gedərəm özüm,
Bəsdir, bu həqarət, bu qədər dözüm!
Elə bozardı ki, vəkilin üzü,
Dolaşdı bir xeyli ağzında sözü:
– Demişəm, verəcəm! Bu söhbət bitdi!
Deyib o şairi dərhal tərk etdi.

Şair köhlənini məhmizləyərək,
Getdi ordan birbaş Gəncə deyərək.
Şairi xoş-beşlə qəbul etdi xan,
Bozarmış üzünə baxıb nigaran
Ondan xəbər aldı: – Nə üçün görək
Gecənin bu vaxtı yola çıxdın tək?
– Mən çoxdan bələdəm bu uzun yola.
– Gətirdiyin xəbər, xoş xəbər ola!
– Xeyirdən gedərmi, ey xan, söhbətlər
Vətən torpaqları bölünsə əgər?
Sizə agah olsun, Şəmsəddin, Qazax

Qonşu torpağına ilhaq olacaq,
Bunu tələb edir İrakli özü,
– Bəs ona nə oldu Vəkilin sözü?
Vəkil şahdan qorxur, doğrusu budur,
Onunçün hər cürə təhqiri udur
Qalıbdır o odla su arasında,
"Yox" deməyə qüdrət çatmayır onda.
Cavad xan silkərək yumruqlarını,
Hər boğazdan keçməz Şəmsəddin, Qazax!
Gərək bu fərmanı tezliklə pozaq, –
Deyib, yumruğunu masaya vurdu,
Hirsindən sıçrayıb, ayağa durdu.
Otaqda əsəbi xeyli gəzirdi,
Bir müddət nə şair, nə də xan dindi.
Sonra altı gecə səhərə qədər,
Oturub baş-başa çox dərdləşdilər.
Ona hücum edən üç yerli xanla,
Gürcüstan valisi Baqratiyanla
Harada, nə sayaq getdi döyüşlər,
Harda düşdü onun payına zəfər.
Bir-bir təsvir etdi "qardaş" xanları
Sisyanov göndərən o fərmanları
Oxuyub şairə dedi: – Kişilər
Xalq, vətən yolunda döyüşdə ölər.
Mən təslim olmaram, ölərəm ancaq!
Qorxaqları qəbul etməyir torpaq.
Sisyanov istəyir məndən Gəncəni
Bu, Azərbaycanı bölmək deməkdir.
Döyüşdə öldürsün qoy düşmən məni,
Gəncəni vermək də ölmək deməkdir.
İndidən mən səni eləyim agah:
Rədd edə bilmədi tələbimi şah,
Qazaxdan əl çəkdi, gözlərin aydın!
Qazax verilmişdi sən olmasaydın.
Qurtardı bölgüdən sizin torpaqlar.
– Mən kiməm, bu elin Cavad xanı var,
Sizin qüvvənizi bilirlər onlar.



Ancaq bilmədilər şair ilə xan
Nələr hazırlayır onlara dövran
Bir qanlı intiqam vardır qabaqda:
Şairin gözünü ovduracaqdı:
Vəkilin əlilə İrakli şah da!
Ağladacaq bütün mahalı bu qəm,
Yeddi il keçəndə bu hadisədən
Bəd xəbər gələcək elə Gəncədən:
İgid Cavad xanın şəhadətindən,
Onun mərdliyindən, cəsarətindən
Eldə danışılan sözlər, söhbətlər
Gəlib çatacaqdır bu günlər bizə.
Qarışıb bugünkü kədərimizə
Gələn nəsillərə miras qalacaq,
Qanla suvarılıb miras bu torpaq.
Bu torpaq uğrunda mərdlər vermişik,
Bir millət görməyən "dərdlər" görmüşük.
Altı gündən sonra şair Gəncədən
Kəndinə qayıtdı, o şad xəbərlə,
Burda qarşılaşdı yeni kədərlə.

Dilboz ocağının gəlini nənəm,
Deyərmiş yazılı kitabdır sinəm.
Oturub ən uzun qış gecələri
Bunu danışarmış gəlinlərinə:
– Necə pozularsa arada fərman
Qazax əldən çıxmır yəhəri dönmüş
İrakli şah bundan hirslənir yaman.
Başında bir dəstə yarlı-yaraqlı,
İlk dəfə əliboş, sorsuz-sovqatsız
Vəkilin evinə gəlir İrakli.
O heç bir xoş-beşi qəbul etməyir,
Vardır gəlişimin səbəbi deyir.
– Mən şaham, sən vəkil, şahlığım üçün.
Gərək o şairi gətirdib bu gün
Mənim gözlərimin qabağında sən,
Gərək bu əmrimi icra edəsən:

Ovdurasan onun iki gözünü:
Ya əvəz edəsən onun özünü! –
Susdu şah qəzəblə deyib sözünü...
Vəkil eşidib bu qanlı fərmanı
Yenə damarında qurudu qanı,
O, necə "kor" qoysun Abdurrəhmanı?
Gəldi qulağına ağlaşma səsi,
Qızının: – "Ay baba, qoyma!" deməsi,
Nəvələr sarmaşdı əl-ayağına,
O, göz yaşlarını silə bilmədi,
Vəkil necə çıxsın şah qabağına,
Bu nə dərddir düşüb, bilə bilmədi,
Dili söz tutmadı, dodağı əsdi.
İrakli icraya yaman tələsdi
Vəkilin üzünə bir baxış baxdı,
Bu baxış o saat qısaltdı vaxtı.
Vəkilin doğrudan böyükdü dərdi:
Mənhus vəzifələr azmı dərd verdi
"Vəzifə çörəyi" yeyən kəslərə?
Döndərib onları həm şikəstlərə
Lazım olmayanda qoz, badam kimi,
İçini yeyərək, qabığın atdı.
Vəkilin də gəlib o vaxtı çatdı:
Ya özü, ya şair?! Fələkətə bax!
Gəlib lap sümüyə dayandı bıçaq.
Vəkil Xanlıqlara çapar göndərdi,
Çapara ən yaxşı köhləni verdi,
Tapşırdı: – Söylə ki, baban xəstədi,
Çoxdandır görməyir, səni istədi. –
Doğrudan ogünkü məclisdən sonra
Ayaq basmamışdı bu evə şair.
Bir mehmanxanadır bu dünya evi,
Hərə bir duyğuyla burda yaşayır*.
Vəkil dönə-dönə dedi çapara
İndi gün gödəkdir, kəsə yol ara!

* Xanlıqlar – şairin kəndi



Yubanmasın, gəlsin dərhal səninlə,
De, uç qırğı kimi öz köhləninlə!
Şairin evinə çatanda çapar
Onun qarşısına qaçdı uşaqlar,
Sandılar babadan gəlibdir sovqat...
Onlar bilmədilər bu gəliş, heyhat,
Necə gəlişdir!
Bu necə çağırış, bu necə işdi
Evdə böyüklər də təşvişə düşdü...
Bəlkə də ağladı vəkilin qızı,
Doldu riqqət ilə şairin gözü.
Dedi: Bir şey olsa göndərrəm xəbər,
Xəbərə gələnlər səni gətirər.
Vaxt keçir, mən indi tez gedəm gərək,
Qonur köhlənini yəhərlədərək,
Qırğı tək yəhərin üstə atlandı,
Cilovu çəkəndə at qanatlandı...
Getdi bütün yolu atı çaparaq,
Atın dırnağında ovuldu torpaq,
Qırx yaşın alovu, odu qanında,
O getdi bu yolu fikr ümmanında...
Yaman cuşə gəldi şair riqqəti,
Riqqətin işığı boğdu zülməti.
Bir an unutdurdu kini, nifrəti.
Dedi: – Sadiq dostum, a qonur köhlən,
Bir qamçı vurmadım heç vaxt sənə mən,
Əgər tez mənzilə çatdırsan məni,
İgid Koroğlunun Qıratı kimi,
Gümüşdən, qızıldan nallaram səni! –
At burda ucadan yaman kişnədi,
Çapar, "murdar" görüb bu heyvan dedi.
Şair dedi nəsə, bir bəd xəbər var,
Onu bizdən qabaq duyur heyvanlar.
Elə ki qapıda o atdan düşür,
Büsatı görəndə halı dəyişir.
Baba İrakli durub yan-yana,
Şüşəbənd eyvandan baxırmış ona.

O uca qamətə, boya, buxuna
Baxanlar deyərdi baxım bir daha,
O öz görkəmilə oxşardı şaha.
O əsmər sifətdə yaraşığa bax,
O aydan işıqlı, ulduzdan parlaq
Gözlərə qıyana, özün qıy, Allah!

Birdən dörd yanını alıb bir dəstə
Onu tez yıxırlar arxası üstə,
Sinəsi üstünə bir kərən qoyub,
Üstündə oturur bir çirkin kişi,
Demə, göz ovmaqmış zalımın işi.
Ovur o gözləri bir an içində,
Söyləyir: – İş bitdi, di yerindən dur,
Şairin üz-gözü al-qan içində
Dərhal sıçrayaraq durur yerindən
Onun qan damırmış bəbəklərindən.
Baxıb ağlayırdı bunu görənlər,
Gülürdü eyvanda fərman verənlər,
Həyəti tutmuşdu qəh-qəh səsləri...
Şair addımını atıb irəli
Şahanə səsilə söylədi: – Allah
Bizə başqa gözlər bəxş eləyibdir,
Gözləri ovulan mütəfəkkirlər
"Qəlbinin gözüylə görər" deyibdir.
Sizinlə danışmaq mənə çox zordur,
Çünki qəlbinizin gözləri kordur.
Əsil kor sizsiniz, dərk edin bunu,
El bilir şahların kor olduğunu –
Bunu eşidəndə vəkil hirsləndi.
Düşündü: özündən şah çıxar indi.
Şüşəbənd eyvandan aşağı endi.
Özünü köhlənin belinə atdı,
Qapıda bir xeyli o at oynatdı.
Qəzəbi soyudu İrakli şahın.
Qəzəbinə gəlsin onlar Allahın!
Gəlinlər sorardı: – Ay ana, şair



Kəndə necə gəldi, nə sayaq çatdı?
Necə qarşıladı camaat onu,
Kəndə kor qayıdan Dilboz oğlunu?
Söz bura çatanda ağlarmış nənəm
Deyərmiş: – Evə bir vay-şüvən düşdü,
Göz gərək görəydi bu vay-şüvəni!...
Elə bil sel gəldi, çay bəndi aşdı,
Kəndin camaatı yaman çaxnaşdı...
Silaha sarıldı, and içdi hamı
Vəkildə qoymasın bu intiqamı.

Şair çağırtdırdı ağsaqqalları,
Dedi: – İntiqamın var öz yolları.
Çağırdıq, eşitdi tanrımız bizi.
Qəsbdən qurtardı vətənimizi.
Şah məğlub oldu, mən qələbə çaldım,
Gözlərimi verib, Qazaxı aldım.
Hansı qiymətlidir, gözmü, vətənmi?
Onlarmı qazandı, söyləyin, mənmi?
Gedib qardaş qanı tökməyin nahaq,
Nahaqqın cəzasın verəcək Allah.
Bunu da deyərmiş cənnətlik nənəm:
Onun görüşünə gələrdi aləm.
Harda eşitsələr bu bəd xəbəri
Yığışıb ölkənin mötəbərləri
Görməyə gələrdi Abdurrəhmanı.
Hələ mən demirəm o Cavad xanı:
Cavad xan başında bir dəstə leşkə,
Şairi görməyə gəldi bir səhər.
Onlar tək oturdu axşama qədər,
Nəsə, nə haqdasa söhbət etdilər.
Gecənin yarısı leşkərlərilə
Tovsun atlarını çapıb getdilər.
Kim deyə bilərdi yeddi il sonra
Xanın gələcəkdir ölüm xəbəri,
Ağladacaq onu çox sevənləri.
Yasa batacaqdır el də, oba da,

Zalım Sisyanovla olan davada
Bir il qədim Gəncə qana boyandı...
Xan təslim olmadı, möhkəm dayandı.
Aldılar Qazaxın, Şəmsəddinin də
Bu qanlı döyüşdə heyfini ondan.
Bir kömək gəlmədi ona heç yandan.
Xanlar arasında ürəkdən, candan
Sevinən də oldu bu milli dərdə,
Bəlkə o zamandan, ondan da qabaq
Paxıllıq "mərəz"i varmış bizlərdə.
Çıxdılar aradan müttəfiq xanlar,
Qan qardaşlarını tək qoydu onlar.
Yeridi üstünə sel kimi ləşkər,
Döyüşlü mərdanə o nər oğlu nər,
O xain qonşular, o ermənilər
Görüb qaçdığını xanların dərhal
Xəyanət etməyə tapdılar macal.
Qalanın sirrini verib düşmənə,
Onlara bir qapı açdılar yenə.
Vurdu bir general köksündən mərdi.
Qanı axa-axa igid Cavad xan
Vurub generalı tez yerə sərdi.

Torpağa qoymadı el qırx gün xanı.
Qırx gün dayanmadı şəhidin qanı.
Axdı damla-damla göz yaşı kimi,
Cənnətməkan oldu Gəncə hakimi.
Bu dərd dirigözlü Abdurrəhmanı
Öldürüb, ömrünü talan eylədi.
Ona öz dərdini yalan eylədi.
Yazıq gecə-gündüz fəğan eylədi.
Aləmə səs saldı dərdi, ələmi...
Oğluna söylədi: – Götür qələmi
Sən yaz, mən söz açım o Cavad xandan,
Bir dastan yaradım o qəhrəmandan.
Damsın hər kəlmədən bir şəhid qanı!
Bu sayaq yarandı o kor şairin



Xana həsr etdiyi mərdlik dastanı.
Şairin qəlbini Cavad xan qəmi
Oyurdu içində bir neştər kimi.
Qan dərinə axdı, göz yaşı üzə,
Şair ağlayırdı söz düzə-düzə...
Belə nəql edərmiş cənnətlik nənəm.
Demə ki, bir nəslə miras qalarmış,
Nəsillərə qalan bu vərəsədən
Başlar gah alçalar, gah ucalarmış.
Dördüncü nəsliyəm şairin mən də
Qohumluğum çatır vəkilə həm də.
Elə bil gözləri ovulan mənəm,
Ya, şah qarşısında məğlub vəkiləm.
Vulkan dağı kimi alışır sinəm...
Şairə bəraət qazandırıb mən
Vəkili ittiham edə bilmərəm.

Bir eldə hökm etsə sultan, şah ya çar.
Vəkillərdə heç vaxt olmaz ixtiyar.
Onlar quş qorxudan müqəvvalar tək,
Yerlərində səssiz dayanıb gərək:
Xalqı qorxutmaqçün ağalarına
Etsinlər kömək.
Qeyrəti olanrlar istefa verər,
Qorxaqlarsa qoltuq altına girər.
İstefa versəydi vəkil o dəmdə
Çox uca olardı başı aləmdə.
Şairin adıyla başım ucalır
İnsan vüqarıyla qələbə çalır.
Oxuyub Cavad xan müxəmməsini,
Duyuram şairin fəryad səsini...
Nə görən gözü var, köməyə çatsın,
"Qafqaz pələngi"lə bir qana batsın.
Qazax igidlərin yığıb başına
Namərd Sisyanova o qan ağlatsın.
Şairin fəryadı əksi-səda tək
Neçə yüz illəri ötüb keçəcək...

Hələ neçə nəslə çatacaq bu qəm.
Elə bil gözləri ovulan mənəm.
Dərəni görmürəm, dağı görmürəm,
Qaranı görmürəm, ağı görmürəm.
Görmürəm sevdiyim mənzərələri
Ulduzlu səmanı, çiçəkli yeri...
Sanki kor şairin dağlar həsrətli
Şerini mən yazıb, mən yaratmışam,
Hər gün həsrət dolu bu misraları
Oxuyub, könlümü çox ağlatmışam.

## DAĞLAR

*(ixtisarla)*

Bivəfa mülki dünyada
Könlü çox viranam, dağlar!
Könlüm istər, gözüm görməz,
Sizə mən heyranam, dağlar!

Bizə çəkdi fələk dağı,
Könlümüz qəmlər ovlağı,
Qaralıb ömrün çırağı,
Ağlaşır pərvanam, dağlar!

Qəsd etmək olmaz cana da,
Can tab etməz hicrana da,
Neçə il zülmətxanada
Bina zindanbanam, dağlar!
Min iki yüz on bir sənə,
Qəzadan ox dəydi mənə,
Dövran bərkəs oldu yenə,
Hicr oduna yanam, dağlar!

Qırx bir sənə oldu yaşım,
Zülmətdə sərgərdan başım,
Bivəfa qohum, qardaşım,
Necə düşmən sanam, dağlar!



Şairəm dünyaya gəldim,
Bir zaman ağlayıb, güldüm,
Məzlumam, zülmlə öldüm,
Bu sözdür nişanam, dağlar!

## EPİLOQ

Əfsus, gözəl dünya fanisən, fani!
Xalqıyçün can verən o canlar hanı?

Öldü Cavadxana dastan yazan da,
Öldü Cavad xan da, o qəhrəman da.

Mərdlər, qəhrəmanlar ölməyir ancaq,
Müqəddəsdir onlar yatdığı torpaq.

Keçsə bu ölümdən yenə yüz illər,
Onları yaşadar gələn nəsillər.

Yaralı bir ürək şair sinəmdə,
Şəhidlər yatdığı torpağı mən də:

Ziyarət edirəm, səcdə qılıram,
Göynəyə-göynəyə sinəmdə yaram...

*1992*

## HƏYATIMDAN SƏHİFƏLƏR

*Ölümlərdən, bölümlərdən,*
*zülümlərdən keçən yollar*

Oğul gözləyirdilər
Mən üçüncü qız oldum.
Oğul gözləyən evdə
Sanmayın ucuz oldum.

Atam gəlib arandan
Bir qoç qurbanı kəsmiş,
Anamın dərdlərini
Azaltmağa tələsmiş.
Nənəm, gözəl Xanımqız
Hər körpənin öz bəxti
Öz qisməti var, demiş.
Bəlkə edəcək bu qız,
Səni bəxtiyar, demiş.

Beşiyim yırğalanmış
Nənəm, babam yaylağı,
İgidlərin oylağı
Ağqayanın döşündə.
El arana köçəndə
Karqaya meşəsində.
Ağlayanda susmuşam
Bülbüllər ötüşəndə,
Qırqovulların səsi
O meşəyə düşəndə
Anam deyərdi sən də:
Öz "qığıltı" səsini,
O səslərə qatardın,
Quşların "laylasıyla"
Xumarlanıb yatardın.
Ayağın yer tutanda
Yerə sığışmadın sən.
İlk addımı atanda
Sənin oldu bu aləm...
Qorxmayıb oddan, sudan,
Dinclik bilmədin bir an.
Yıxıldın, ağlamadın,
Əzildin, ağlamadın,
"Haşarı" qaldı adın.
Ağacların budağı
Sənə yelləncək oldu,
Sevdin gülü, yarpağı,



Dünyan sevinclə doldu...
Dilin söz tutan zaman
Evdə sənin adına
Kimi "qaranquş" dedi,
Kimi "kəpənək" dedi,
Kimi "şirindil" dedi.
Atan isə adına
Ay qızım, "bülbül" dedi.
Sən sübhünü quşlardan
Çox-çox erkən açardın.
Yatağından astaca
Durub, çölə qaçardın.
Yazda kəpənək kimi
Çiçəklər dünyasında
Hey uçardın, uçardın...
Qışda qırov görərdik
Saçlarında hər səhər,
Dodağında nəğmələr.

## II

İlk uşaqlıq şadlığım,
Bu dünya qəmlərindən,
Dərdlərdən azadlığım
Mənim burada bitdi
Bir köçəri quş kimi
Sevinclər uçdu, getdi,
Bir də dönmədi geri.
Ürəyimi dağladı
Şəhid ata kədəri.
Feodal dünyasında
Tamah yurdlar uçurdu.

## III

Gəldi 17-ci il.
Rus çarı taxtdan düşdü,
Bütün aləm dəyişdi.
Azadlığa səslədi

Millət qədri bilənlər
Bizim məhkum milləti,
Qazanmaqçün təzədən
Biz itmiş hürriyyəti
Azad dövlət yaratdıq.
Sevindik, azadlığa,
Biz xoş günlərə çatdıq.
Ancaq bu azadlığın
Çox dar oldu meydanı,
Millət xadimlərinin
Əfsus, töküldü qanı.

IV

Bizə iki tərəfdən
Hücum eylədi yağı,
Gürcü menşevikləri
Erməni daşnakları
Bölmək üçün tələsdi
Bu bəhərli torpağı.
Kəndlərimiz üstünə
Güllə yağışı yağdı,
Top mərmisi töküldü.
Avey dağın o günlər
Daş sinəsi söküldü.
Ancaq yağı bilmədi
Azərbaycan xalqının
Qoçaq oğulları var,
O azğın daşnaklara
Onda "dərs" verdi onlar:
Cərgə-cərgə durdular
Adi tüfənglər ilə
Topları susdurdular

Düşmən ala bilmədi
İstədiyini bizdən.
Sonra güclü bir ordu
Gəlib çatdı "Mərkəz"dən



Son qoyuldu xalqımın
Milli azadlığına,
Əbədi bir "fatihə"
Oxundu şadlığına.

Ölümlər başlanıldı,
"Bölümlər" xoşlanıldı,
Gördük o qanundakı
Toplu, tüfəngli zoru:
Şəmsəddini, Qafanı,
Göyçəni, Zəngəzuru
Erməniyə verdilər.
Təzə bölgülər üçün
Gizli tədbir gördülər:
Əskipara Yaylağı –
Kəndi, meşəsi, dağı,
Kəmərlinin torpağı,
Erməniyə verildi.
Biz çox idik,
Azaldıq.
Az çoxaldı, dirildi.
Bu oldu inqilabın
Bizə ən ilk töhfəsi.
Millətimin haqqını
Tələb eyləyənlərin
Tez susduruldu səsi.

30-cu illərin
Dərdini yazmır qələm,
Şerə, sözə sığışmır
Xalqıma üz verən qəm.
Bir ağsaqqal qocanın
Evimdə bir şəkli var,
Hər baxanda o şəklə
Ölüm gəlmir ki, öləm.
Sinəmdən od püskürür,
Yanğımı yoxdur görən

Məzarı qum çölündə,
Qazaxıstanda qaldı.
O illərin ağrısı
Ürəkdə, canda qaldı.

37-ci ilin
Dərdinə dərd çatarmı:
Bəşərin tarixində
Belə bir zülüm varmı?
Bizim bu illər boyu
Nələr çəkdi başımız:
Bu doxsanın qışında
Qara bayraqlar üstə
Töküldü göz yaşımız.
Qanlı lövhələr yazıb
İllərlə yaddaşımız.
Üç ünvanlı, sərhədli,
Üç bayraqlı olduq biz.
Dilim-dilim bölündü
Bu zəngin vətənimiz.
Müharibə də gördük,
Qanlı döyüş illəri,
Qarşıladıq göz yaşlı
Cəbhələrdən ayaqsız,
Əlsiz, qolsuz,
Dili lal, kor gələn əlilləri
Elə mərdlər yetirdik,
Elə ərlər itirdik,
Sinəmizdə dərd əkib,
Qəm gülləri bitirdik.
İllərlə yol gözlədi
İntizar gözlərimiz,
Əsgər paltarı geydi
Nişanlı qızlarımız.
Ah, mən nələr görmüşəm
Altı yaşımdan bəri.
Şükür, səksən yaşımda



Bu azadlıq xəbəri
Dərdlər əymiş qəddimi
Məni qanadlandırdı,
Ürəyimdə azadlıq
Məşəlləri yandırdı.

Dünyada ən böyük dərd
Millət dərdiymiş demək.
Millət üçün yaşayıb,
Millətçün ölmək gərək.

Anam öldü, ölmədim,
Ancaq illər uzunu
Heç bir şadlıq yenmədi
Qəlbimdəki hüzünü
Atam öldü, ölmədim,
Fəryad etdi ürəyim
Ancaq illər uzunu.
Öldü babam, nənəm də,
Bu yoxluğun atəşi
Heç sönmədi sinəmdə
İki bacı, bir ana
Biz dünyada qaldıq tək.
Halal zəhmətimizlə
Qazandıq halal çörək.
Oldu yaxşı günümüz,
Yaman günlərimiz də.
Qaldıq sankı avarsız,
Fırtınalı dənizdə.
Yıxılmağa qoymadı
Ancaq, namus, ar bizi,
Biz yıxılmış görsəydik
Bu doğma ölkəmizi
Allah bilir, bu dərdə
Bizdə dözüm olmazdı,
Qələm gördüklərimin
Yüzdə birini yazdı.

## BU BƏLA HARDAN GƏLDİ

Qarabağsız qara baxtım ağ olmaz,
Qarabağsız mənim bağçam bağ olmaz,
Düzənim düz, uca dağım dağ olmaz,
Qarabağsız canım bir gün sağ olmaz!
Nigaranam torpağımdan nigaran,
Millətimdən, bayrağımdan, nigaran,
Oğulumdan, uşağımdan nigaran!
Sinələri yurda səngər igidlər
Salam sizə, ey ölümsüz şəhidlər!

* * *

İgidlərimin ölümü
Əydi əyilməz belimi.
Yer götürdü, göy götürmə bu zülümü!
Bu bəla hardan gəldi
Hansı diyardan gəldi?
Niyə yurdlar dağıldı,
Şəhid odlu cavanlar?
Yaz yaralı qələmim,
Bilsin bütün insanlar:
Erməni qəsbə tələsdi
İrəvandan bir yel əsdi
Bu yel, tufan yeliydi.
Erməni qəsbə tələsdi,
Qəsdi Qarabağ eliydi.
Ayağa qalxdılar, gərək:
Qarabağdan Xəzərədək,
Bizim zəngin torpaqları,
Döşü meşəli dağları,
Suyu loğman bulaqları,
Otu dərman yaylaqları
Bol günəşli aranları,
Taxıl yüklü xırmanları,
Qoynu qızıl sünbül dolu



Xəzansız gülüstanları,
Torpağına ilhaq etsin.
Sonra başqa torpaqlara
Əl uzatsın,
Dənizlərdən-dənizlərə
Böyük Hayestan yaratsın.

## SAZİŞLƏR

Gizli oldu bu sazişlər,
Xain işi gizlin işlər.
Fitva verdilər keşişlər:
– "Daha yürüş vaxtı çatıb,
Bizim "dostluq" taxtı üstə
Azərbaycan şirin yatıb.
Oyatmayın, hələ yatsın.
Qoy onları bizim toplar,
Bizim raketlər oyatsın!"

İmzalayıb sazişləri
Erməninin imperiya qardaşları
Erməniyə arxa durdu,
Dedi: – Qorxma, get arxayın,
Böl o yurdu.
Bu köməkdən gör erməni
Qudurdu, necə qudurdu!..
Duzu, çörəyi unutdu,
Xəyanət yolunu dutdu.

## NEÇƏ ELDƏN

Dağlar, dənizlər dalından,
Neçə ölkənin yolundan
İrəvana qatar yüklü,
Uçaq yüklü, gəmi yüklü

Ölkəmizin qəmi yüklü
Qoşun gəldi,
Silah gəldi,
Günah gəldi...
Ermənilər Xan kəndinə
Daşıdılar bu silahı.
Top səslərilə açıldı
Qarabağın o sabahı.
Şəhərlər, kəndlər üstünə
Qurşun yağdı, od ələndi...
Güllər üstə qan çiləndi.
Yurd-yuvası dağılanlar,
Torpağından qovulanlar,
O gün təzə doğulanlar,
Anaların qoltuğunda
Od yurduna səpələndi...

Torpaq doydu, qan tökənlər
Doymadı tökdüyü qandan.
Odu sönmüş Yerevandan
Yurdlara qan, qada gəldi.
Qundağında qana batan
Səbilər fəryada gəldi...

Yüz illərin arxasından
Bir zəhimli səda gəldi:
– "Dostluq" taxtı üstə yatan,
Oyan, bu qəflətdən oyan!
Dur, çağırır səni baban:
Qarabağ mərdlik dastanı,
Od yurdunun gülüstanı,
Üzeyiri yetirən torpaq,
Yad torpağa olmaz ilhaq!
Qacar kimi güclü, qoçaq –
Şahı məğlub edənlərin
İgid nəsli!
Yatmış aslan!



Dur, silahlan!
Nədir bu tökülən qanlar?
İnamsıza inananlar
Vermişdir daim qurbanlar.
Dur, ey qana batan millət!
Yalançı "dostluğ" taxtının
Üstə şirin yatan millət!
Nədir səndəki bu inam?
Nədir səndəki bu qəflət?

Hanı sənin güclü ordun?
Tapdaq olur torpaqları
Ordusu olmayan yurdun.
Hanı sənin silahların,
Səngərlərin?
Əlin yalın, yaran dərin...
Oyan, yatmış millət, oyan!
Dur, çağırır səni baban!

Oyandı yatmış aslanlar,
Səngər sinəli oğlanlar
Oğul şücaətli qızlar,
Salatınlar,
Qaratellər,
Mehribanlar,
Məlahətlər,
Gültəkinlər,
Yüzlər, minlər silahlandı.
İgidlərin hərbi andı
Qana batmış torpaqlara
Səda saldı.
Koroğlunun cəngisini
Yada saldı.
Erməni qaniçənləri
İki xalqı oda saldı,
Orda da ana ağladı,
Burda da ana ağladı...

Orda da qara bağladı,
Burda da qara bağladı
Qız-gəlinlər,
Ağaların cibi doldu,
Xalqa qaldı qara günlər...
Görüb bu qanlı qırğını
Bir soruşan yoxdu bunu:

Ay erməni cavanları,
Fəhlələrin, kəndlilərin,
Yoxsulların oğlanları!
Siz kimlərçün ölürsünüz
Kimlər üçün bölürsünüz
Siz bu qonşu torpaqları?
Hanı sizin cərgənizdə
Zənginlərin uşaqları?
Bığıburma oğulları?
Zəngin ölkələrə düşüb
O zənginlərin yolları
Gözəl qızların qolunda
O cavanların qolları
Hey kef çəkib, rəqs edirlər...
Onların kef xərci üçün
Fəhlə, kəndli balaları
Niyə ölümə gedirlər?
Qarabağdan sizə nə var,
Bunu bilin, ay cavanlar:
Qarabağa balayanlar
Sahib ola bilsə əgər:
Onlar ağa,
Siz onlara muzdlu nökər
Olacaqsız.
Sağ qalsanız bu günləri
Təəssüflə
Onda yada salacaqsız.



Qaniçən batanda qana
Qarabağdan neçə yana
Uzandı bu xərçəng əli.
Topların hədəfi oldu.
İndi qədim qazax eli.
Neçə kəndi topa tutdu,
Şəhərinə raket atdı.
Neçə körpə qana batdı,
Nə qədər insan ağlatdı...
Axır bir gün bu döyüşlər
Əskiparaya da çatdı.

## ƏSKİPARA

Coğaz çayı sahilində
Yurd salmış qədim bir oba,
Qonşu ermənilər ondan
Nə şər görmüş, nə də dava.

Bu yerdə bülbül cəhcəhli
Fındıqlı meşələr vardı,
Qışda yerin döşəyi qar,
Yazda bənövşə olardı.
Dərələri moruq kolu,
Talaları çiçək dolu,
Tayfaların karvan yolu
Bura qədim bir diyardır,
Buludlardan bu torpağa
Rəhmət yağışı yağardı.
Allahın könlüxoş vaxtı
Bu torpağı yaratmışdı.
Qaratel adlı bir qız da
Dağlarında ağ sürülər,
Qızıl naxırlar otlayan
Bu cənnətdə boy atmışdı.

## QARATEL

Qaratel çoban qızıydı,
Bu yerlərin xan qızıydı,
Oğlan sayağı yaşardı,
Dağlara mahnı qoşardı.
Hər gədikdə izi vardı.
İlk döyüş başlayan günü
Cəbhədə gördü özünü.
Şücaətlə qorumaqçün
Öz elini, obasını,
Soyunub qız paltarını
Geydi əsgər libasını.
Elə sevdi, elə sevdi
Cənnət bağı bu torpağı
Məşqlərdə tez öyrəndi
O, silahla "oynamağı".
Döyüşlərdə silahını
Düz tuşladı, gülləsini
Sərrast atdı.
O, ana ağladanların
Analarını ağlatdı.
Aldı neçə şəhid qanı
Qazağın qız qəhrəmanı.

Eldə onun adına
"Dişi aslan" dedilər.
Erməni cəlladları
"Qızıl ilan" dedilər.
"Zəhər"indən o qədər,
O qədər doydu onlar.
Bu "İlan"ın başına
Mükafat qoydu onlar.

Əskipara tufanı
Birdən qopdu, gurladı...
26-ların



Burda töküldü qanı.
Qaratelin başladı
Burda mərdlik dastanı.
Döyüşlərin qızğın vaxtı
Torpağa hey... qanlar axdı.
İgidlərə çatdı xəbər:
Ağır toplarla, tanklarla
Üç yandan gəlir namərdlər.
Döyüşlərdə bu qaydadır:
Daldan kömək gələnəcən
Geri çəkilmək faydadır.
Tez çəkilin siz də dala!
Bu döyüş itgisiz ola!
And içib yurd torpağına
İgidlərim avtomatla
Çıxdılar tank qabağına.
Ölən öldü, qalan qaldı,
Neçə mərdim yara aldı.

Bizim o şir qızı şiri
Tutmaq üçün diri-diri
Ayağından vurdu biri.
Qız büküb dərhal dizini
Dağlara dikdi gözünü...
Dedi son vida sözünü:
– "Canım dağlar!
Gözüm dağlar!
Bizim dağlar!
Bizim dağlar!
Əgər ölsəm qoy itməsin
Sizdə mənim izim dağlar!

Gördü düşmən yaxınlaşır,
Neçəsini yerə sərdi
Xalqımızın bu qız mərdi.
Dedi: – Düşmən, məni dinlə:
Döyüşdəyəm mən səninlə.

Qız düşmənə olmaz təslim!
Şir nəslidir mənim nəslim!
Bu namusum, arım haqqı,
Bu zəngin diyarım haqqı,
Vətən məhəbbətim haqqı!
Ana südüm, qız ismətim,
Yenilməz millətim haqqı!
Mən əsir düşmərəm sənə!
Sinəmdəki qız ürəyi
Hədəf olar öz gülləmə!

VI

O ağ sinəyə dayandı
Bir qara silah lüləsi,
Mərdlik xəbəri apardı
İllərə bü güllə səsi...

O ağ sinə batdı qana,
Şir qızı öldü mərdana.
Bu ölümə yer ağladı,
Göy ağladı,
Qız yıxıldı yanı üstə,
Torpaq onu qucaqladı.

– Ey el qızı, el qızı!
Elin Qaratel qızı!
Yaşar el üçün ölən,
Yaşatmazlar elsizi.
Ey el üçün ölənlər,
Unudarmı el sizi?!

Qaratelin timsalı
Gültəkin, ay Gültəkin!
Sənin də qəbrin üstə
Mən qanlı göz yaşları
Dağ çiçəyimi töküm?



Qara kədərmi əkim?
Ay gözəlim, şəklini
Hansı qələmlə çəkim?

Qız ürəyi məhəbbətli,
Namus ondan da qiymətli,
Torpağına qurban gedən
İgid qızlar!
Şəhid qızlar!
Mərd oğullar!
Bu ölümə,
Bu zülümə
Deməyin ki, ağlamadım.
Həm şairdir,
Həm anadır mənim adım.

Şairlər gizlində ağlar
Göz yaşın görən olmasın.
Dərdi ürəyində saxlar,
Düşmən görüb şən olmasın.

Şairlər gizlində ağlar,
Göz yaşı qəlbinə çağlar
Sinəsi üstə daş bağlar
Ürəklərə qəm dolmasın.

Şairlər simurğ quşudur
Ömür sürər yana-yana,
O aşikarda ağlamaz
Sizin kimi qəhrəmana.

Gizlində ağlaram mən də,
El görməsin məni qəmdə.
Şairəm, odlu sinəmdə
Vaxtsız ölən cavanların,
Dağılan xanımanların,
Köçkün olan insanların
Dərdi ağlar...
El dərdinə elin ancaq
Mərdi ağlar.

## VII

Od yurdunda dağlar uca,
Zirvələri duman olur,
Bu dağldarın yaşı qoca,
Çiçəkləri əlvan olur.
Bu dağlardan su içənlər
Yüz yaşında cavan olur.
Bu torpağın gözəlliyi
Öz-özünə duşman olur.
Neçə qəsbkar gözləri
Bu gözəlliyə zillənir...
Bu torpağı qəsb etməkçün
Odlu silahlar dillənir.
Hörmət sizə!
Rəhmət sizə!
Qoynu bu bar – bəhər dolu
Cəvahirat, gövhər dolu
Qızıl, gümüş, mərmər dolu
Od yurdunun gözəlini,
Neçə şöhrətli elini,
Öz köksüylə qoruyanlar!
Ey Qazilər!
Ey Şəhidlər!
Vüqarlı qızlar!
Oğlanlar!
Keçər aylar,
Ötər illər,
O dağlardan əsən yellər
Sizə daim layla çalar.
Qanınız tökülən yerdə
Uçan durna lələk salar.

Ömrümün bu qürub çağı
Qanınız hopan torpağı
Ziyarətə gəlləm mən də,



Ana ürəyi sinəmdə
Sizin o cənnət bağından,
Od yurdunun torpağından
Aranından, yaylağından
Hər düzündən, hər dağından
Dərib vətən güllərini
Tökərəm qəbriniz üstə.
Qucaq-qucaq, dəstə-dəstə...
Ağlayaram, öpərəm mən
İgidlər, başdaşınızı...
Şairlər gizlində ağlar
Başkəsənlər görməsinlər
Qoy bizim göz yaşımızı.

*1993*

## XOCALI FƏRYADI

(*iki pərdə, drama*)

İŞTİRAK EDƏNLƏ□R:

Xocalının katibi
Xocalı camaatı
Fərhad – (*orta məktəb tələbəsi, snayperçi*)
Qocalar – (*Fərhadın ata və anası, müəllimlər*)
Fərhadın bacısı – (*cavan məktəbli qız*)
Meşədə Fərhadla rastlaşan qaçqınlar
Birinci qoca
İkinci qoca
Fərhadın nişan aldığı düşmən soldatları

*Birinci pərdə və pərdə arxasından müəllif*

Tarix heç bir zaman unutmaz bunu:
Xocalı elinin bu "soy" qırğını –
"Soy" qırğını deyil tək bir millətin,
Bu fəlakətidir bəşəriyyətin,
Siz, ay qəsblərlə ürəyi şənlər,
Küt mişarlar ilə boyun kəsənlər,
Ey dırnaq sökənlər,
Ey göz tikənlər,
Yox, bəşər övladı deyilsiniz siz!
Sizin qarşıdadır mühakiməniz.
Siz fəlakətisiz bəşəriyyətin!
Bəraətiniz də olacaq çətin!

*Pərdə açılır.*



Şellidə, Malıbəylidə atılan topların zərbəsindən Xocalıda evlər titrəyir, divarlar çatlayır, üç gündür həyətlərə, katibin kabinəsi qarşısına tökülüb, "Bizi qurtarın!", "Bizi qurtarın!" deyə fəryad edən camaatın fəryad səsi Ağdamda eşidilir. Ağdam camaatını da çaxnaşmaya salıb.

*Katibin kabineti*

Katib həyəcanlı səslə Bakını çağırır: Bakı! Bakı! deyə qışqırır, Bakıdan cavab gəlməyir. Katib telefonun dəstəyi əlində ayağa durur, öz-özünə deyir:

Katib: – Üç gündür dinməyir, Bakı lal olub,
Burada camaat lap bədhal olub.

(bayırdan "Bizi qurtar!" deyən çağırtı səsləri...)

Üç gündür Bakıdan yoxdur bir xəbər,
Üç gündür çörəksiz qalıbdır şəhər,
Ermənilər tutur bir-bir kəndləri,
Hərbi komissarın yoxdur xəbəri.
Qoyub o satqınlar qılıncı qına,
Gedibdir "ayılar" qış yuxusuna.
Onlar ordunu da çəkib, apardı,
Üzür qan içində bu mərdlər yurdu.
Gəlib Xocalıya çatıb erməni,
Bizim dərdimizin yoxdur dərmanı
Göz yaşı, qan axır gör neçə kənddə,
Bunu yaxşı bilir Prezident də.
Nə bizə səs verir, nə səs eşidir.
Allah, Xocalı da əldənmi gedir?

(telefonun dəstəyini başına vurur, tapançanı çıxardır, həyəcanlı)

Bizə haram olsun kişi papağı,
Versək erməniyə doğma torpağı!

(Özünü vurmaq istəyir, bu anda bayırda qışqıran camaat qapıya hücum edir, qapı bərk-bərk döyülür, katib qapı açır).

Camaat: – Erməni kəsibdir dörd dövrəmizi,
Ay katib, amandır sən qurtar bizi!
Zəng vur, fəryadımız Bakıya çatsın,
Orda yatanları bu səs oyatsın!

Amandır, amandır sən qurtar bizi!
Sənə tapşırmışıq taleyimizi.
Üç gündür nə un var, nə də çörək var,
Ətimizi yeyir bu ac uşaqlar.

(analar qışqırır, uşaqlar ağlaşır... Katib dəstəyi götürüb Bakını çağırır)

– Bakı! Bakı! Bakı!

(Bakı yenə do cavab vermir. Yaxında mərmi partlayır, ev uçur. Katib təntimiş üzünü cavanlara tutur)

Katib: – Cavanlar, son əlac sizə qalıbdır,
Raketdən, tüfəngdən, topdan kimdə var,
Tezcə silahlanın, qoçaq balalar!
Şəhərdən çıxardın qızı, gəlini,
O xain düşmənin murdar əlini
Qoymayın onlara siz toxunmağa.
Yol açın, çıxsınlar arvad, uşağa.
Bir az dayandırın o murdarları
Şenliyi şəhərdən çıxardaq barı!

(Üzünü camaata tutub deyir)

Yollar hər tərəfdən tutulub bilin!
Camaat, siz mənim arxamca gəlin!

(Müqavimətçün gedən cavanlara qoşulmaq istəyən 16-17 yaşlı çəlimsiz bir cavana deyir:

Katib: – Ay oğul, tələsmə, sən bir az toxta.
Çox çətin işlər var hələ qabaqda.
Oğul, adın nədir?
Oğlan: – Adım Fərhaddır.
Katib: – Millətin köməyi-qüdrəti ordu,
Ata-ananınkı, yaxşı övladdır.
İndi bizim qoca müəllimləri,
Bax, o əldən düşmüş arvadı, əri,
Bir də ki, onlara sığınan qızı
Aparıb çıxart bir arxayın yerə,
Sonra qayıt qoşul imkanın olsa,
Bizim müqavimət göstərənlərə.



Fərhad: – Rəhbər, bunu bilin, mən snayperəm.
Gərək öz borcumu döyüşdə verəm.
Onlar mənim atam-anamdır bilin.
Məktəbdə öyrəndik bu sənəti biz,
Atam özü olub müəllimimiz
Xain qonşumuzda nə ki oğlanlar,
Qızlar da snayper atıcılarıdır.
Katib: – Oğul, qoçaq qızlar bizdə də vardır.

(Katib üzünü camaata tutur)

De haydı, camaat, gəlin tərpənək!
Bizi nə gözləyir qarşıda görək?

(Hamı katibin dalınca (2 cərgə) gedir. Anaların dalına sarınmış uşaqlar qışqırır, analar ağlaşır, qocalar yıxıla-qalxa gedirlər. Fərhad katiblə ayaqlaşa bilmir, ata-anasına yolda güllə dəyir, bacı-qardaş onları çiyinlərinə götürmək istəyirlər. Qanına batmış ataları onlara deyir)

Ata: – Ananız keçindi, ölürəm mən də.
Murdarlar indicə dolacaq kəndə.
Sizə qurban olum, quş olun, uçun!
Tez burdan qaçın! (oğluna müraciətlə)
Sənin bundan başqa yoxdur əlacın.
Qaç, düşmən əlinə düşməsin bacın!

(Ata bu sözləri deyib keçinir. Fərhad bacısının əlindən tutub çəkə-çəkə aparır, onlar Ağdam yoluna çıxmaq istərkən oradan pərakəndə qayıdan adamlar Fərhada üz tutub deyirlər)

Camaat: – Getməyin, yolları kəsib namərdlər,
O əliqanlılar, ürəyi sərtlər,
Nə uşaq tanıyır, nə qoca, cavan,
Onları zülmlə qırırlar yaman.
Qızlarımızdan da əsir düşən var.
Şir kimi döyüşür bizim cavanlar.
Bir qoca: – Lap olsun hər biri igid, pəhləvan,
Ordu qabağında bir ovuc cavan
Bakıdan bir kömək gəlməsə əgər
Neyləyə bilər?

Ayaqlanar xanlar, xaqanlar yurdu.
Neyləyə bilərdi bizə erməni,
"Başqası" işlədir bu "dəyirmanı".
Onun ordusudur qabaqda gələn,
Onlar öldürəndi, biz isə ölən.

İkinci qoca: – Meyitlərlə dolub yolların yanı,
Qayalara qalıb elin gümanı.
Əgər bacarsanız gedin dırmaşın,
Oradan birbaşa Şuşaya aşın.
Budur həm son ümid, həm də son güman.
Düşmən bələkdəki körpələrə də
Verməyir aman.

(Oğlandan soruşur:)

Sənin adın nədir?

Oğlan: – Fərhaddır.

Qoca: – Sən heç bilirsənmi bu necə addır?

Fərhad: – Bildim, ya bilmədim, nə xeyri vardır?

Qoca: – Oğul, atan-anan de görüm hanı?

Fərhad: – Onlar da bu qəsbin oldu qurbanı.

Qoca: – Kimdir yanındakı bəs bu qızcığaz?

(atışma səsləri)

Onlar yaxınlaşır, tələsin bir az!

(Fərhad özündən qat-qat güclü, ətli-canlı bacısının qolundan tutub çəkir).

Fərhad: – Gəl gedək, yubanma, ay atam qızı!
İmtahana çəkir bəxtimiz bizi.
O qaya yolları mənə tanışdır.

Bacı: – Can qardaş, sən məni gəl az danışdır,
Gör necə tutulub ayağım, əlim,
Elə bil ay qardaş, sınıbdır belim,
Bir addım getməyə yoxdur taqətim.
Mənim yol getməyim olacaq çətin.
Səni and verirəm o bir Allaha;
Məndən əsirgəmə sən bir gülləni!
Məndən əl çək, bada verərəm səni.

(Oğlan bacısını çiyninə götürmək istəyir, gücü çatmır. Bacı təngnəfəs)



Bacı: – Atamızın qeyrətinə,
Anamızın ismətinə,
Bu yaralı millətinə
And verirəm, öldür məni!
Məni aparar erməni.

*(atışma, səs lap yaxınlaşır, bacı qışqırır)*

Bacı: – Sənə vur deyirəm,
Vur, çıx aradan!
Yazımı bu sayaq yazıb yaradan.

Fərhad: – Ay bacı, neyləyim əlim tutmayır,
Gülləni atmağa gücüm çatmayır.

Bacı: – Kişilər ki, sözü çox uzatmayır,
Vur deyirəm! Gəlir düşmən qoşunu!
Məndən əsirgəmə sən bir qurşunu.
Mən əsir düşərəm, bir düşün bunu.
Çıxart ürəyindən doğma duyğunu!

Fərhad: – Allah, satqınları qoy dönsün daşa!

(üzünü göyə tutur)

Gör nə təklif edir bacı qardaşa?
Can bacı, neyləyim vura bilmirəm,
Gəl bacı qatili eyləmə məni!
Düşmənlərə vurum qoy bu gülləni!
Bacı: – Qurban olum bacı deyən dilinə!
Qardaş, vermə məni düşmən əlinə!
Mən düşmən əlinə düşərsəm əgər:
Onda bu el sənə qeyrətsiz deyər.

(Top, tüfəng gülləlləri, partlayan raketlərin odu şimşək kimi yanıb-sönür)

Bacı: – Vur məni, vur məni
Vur məni! Varsa da əgər qeyrətin!
Əgər çatmayırsa buna cürətin,

(Qardaşının əlindən tapançanı alıb özünün sinəsindən vurur, yerə yıxılır və deyir:)

– Öldürə bilmədin, can qardaş, məni,
Di get, düşmənə at sən o gülləni.

(Ölür)

Fərhad: – Gedirəm, ay bacım, qana-qan alım!
O başkəsənlərdən intiqam alım.

(Bir az getmiş səs eşidib dayanır, bir nəhəng qaya daşına daldalanıb gözləyir. İki nəhəng düşmən soldatı oxuya-oxuya gəlir)

Soldatlar: – Vraqam beda!
A nam pobeda.

(Soldatların biri nəhəng, qarasaçlı, o biri sarısaçlı, ucaboyludur. Fərhad onları nişan alır)

Fərhad: – Bu, şəhidlər qeyrəti üçün!
Bu, qızların isməti üçün!

(Deyib onları yerə sərir, hər ikisi ölür. Fərhad oradan qayanın bir ovuğuna girib, əllərində avtomatlar bu sözləri oxuya-oxuya gələn soldatları, özü bu sözləri deyib, bir-bir nişan alıb, yerə sərir)

Fərhad: – Susdurulmuş əzanlarçün,
Yandırılmış Quranlarçün,
Düzlənən qəbiristanlarçün,
Bu, Xocalı tufanıçün!
Bu, Şəhidlər qanı üçün
Alın cəlladlar!
Sirkə tünd olanda öz qabı çatlar.
Alın! Xocalının bəxşeyişidir!
Burda uşaqlar da bilin, kişidir!
Vətəni qorumaq kişi işidir!

(Onun bir gülləsi də boşa çıxmır. Qayanın dibi düşmən soldatlarının meyitləri ilə dolur, onlar qayanı top, raket atəşinə tuturlar).

Atılan toplar, raketlər qayadan qopardığı qəlpələri onların başına tökür. Fərhad ovudan-ovuğa keçib zirvəyə qalxanda əlindəki qumbaranı oradan onların üstünə atır, özü qayadan aşır, Şuşaya gedir. İndi bunları bizə nəql edir.

*1996*



## MƏHSƏTİ

*Mənzum dram*

### I pərdə

Bir yerdi, bir göydü, sanki bir də mən,
Bir də ki üstündə yosunlar bitən
Uzaq əsrlərin dilsiz qəmxarı
Qırılıb-tökülmüş qəbir daşları.
Dünyanın sirrindən yox verən xəbər,
Kim bilir, onları hansı küləklər
Haradan götürüb, haraya atmış,
Onların altında ya kimlər yatmış.
Mən dalğın, mükəddər, fikrə gedərək
Bir daşın üstündə oturmuşdum tək.

Xəyal öz yerimdən qopardı məni,
Uzaq əsrlərə apardı məni.
Yenə də gündüzü gecəyə qatdım,
Gəlib bizim qədim Gəncəyə çatdım.
Gördüm şəhər dərin sükuta batmış,
Burda minarələr göyə boy atmış.
Gəldi qulağıma bir kaman səsi
Dinlədim, qəlbimi ağladan səsi.
Gecənin bu keçmiş, qərib zamanı
O kimdi dindirir belə kamanı?
Könlü qan ağlayan o sənətkara
Bir təsəlli üçün üz tutdum ora.
Fikirlər içində qapını çaldım,
Gəl! – deyə otaqdan bir cavab aldım.
İçəri girəndə xəyalım çaşdı,
Sanki günə baxdım, gözüm qamaşdı.
Dedim: – nə yaraşır sən kimi cana,
Gecələr şam kimi sübhəcən yana?
Aç mənə bu sirri, söylə görüm bir,
Sən kimsən, etdiyin bu fəryad nədir?
Məhsəti: – Mən sanki qəfəsə düşmüş bir quşam,
Yaman bir əyyamda qız doğulmuşam.

Sığarmı qəfəsə düşən bir ürək?
Bülbülə desələr nəğmədən əl çək,
Ölər qüssəsindən, yaşamaz bir an.
Bir bülbül qədər də deyilmi insan?
Susdurmaq istəyir zəmanə məni,
İçi sənət dolu bu piyaləni
Deyir, öz əlinlə özün vur daşa.
Şersiz, sənətsiz, kamansız yaşa.
Dərdim qadınlığın faciəsidir
Bu bir şair qızın üsyan səsidir.
Müəllif: – *Aman, söz ustası*, Mahir dilavər,
Şairə Məhsəti sənmisən məgər?
Nə xoşdur səninlə belə bir vüsal!
Məni haralara çəkmişdir xəyal?

(Məhsəti kaman çalır, oxuyur):

"Dad ürək əlindən, dad eşq əlindən,
Çoxları tək düşdüm bu möhnətə mən.
Ürəkdir səbəbi bu ahu-zarın
Dad ürək əlindən, dad eşq əlindən".

*(Şairənin xidmətçisi Cahan qarı içəri girir)*

Cahan qarı: – Nə tez oyanmısan a dərdin alım.
Məhsəti: – Yaman intizaram, dəyişib halım,
De, Xətib oğlundan varmı bir xəbər?
Cahan qarı: – İntizar qoyarmı o səni məgər,
Həm məktub göndərmiş, sənə həm turac
Al, bu da məktubu öz əlinlə aç.

(Məhsəti məktubu açıb oxuyur)

Məhsəti: – Bu xətib oğlunun, ay Cahan nənə,
Ovda şairliyi tutubdur yenə.
Sazımı ay nənə, mənə ver sən də,
Xoş olur saz ilə söz birləşəndə.

Qarı sazı gətirir, Məhsəti çalıb oxuyur)

*Nigarımdan uzaqlarda yenə halım pərişandır,*
Görən yarın fəraqında keçən dövran, nə dövrandır!
Sönər hicrinlə, nur qalmaz gözümdə bircə an sənsiz,
Vüsalə yetdiyi anla, sönən nuri özün yandır.



(Məhsəti səslə oxuyur)

Gəzər fikrim xəyalınla düzənlər, dağlar ardında,
Görən yarəb məni Məcnun edən canan, nə canandır?!
Günah olmaz fəraqında qan ağlarsa Xətib oğlu!"
Boyun şümşad, saçın ənbər, sinən yara gülüstandır.

(Məhsəti oxuyub qurtarandan sonra güzgüyə baxır, özündən razı qəhqəhlə gülür.)

Cahan qarı: – Dərdin alım sən,
Yarın nə yazıb ki,
Belə gülürsən?
Məhsəti: – Kişi nəvazişi yaşadır bizi,
Xoş sözlər fəth edir ürəyimizi.
Yazır ki, o mənsiz dəli, cünündur.
Mənim də həyatım, eşqim onundur.
Onsuz neyləyirəm bəri-bəzəyi,
Ərsiz, sınıq olur qadın ürəyi.
Sən də sevmisənmi, ay Cahan nənə?
Cahan qarı: – Mənim vaxtım keçib, a qurban sənə.
Qapısı bağlanıb ürəyimin bil,
Keçib gəncliyimdən gör neçə on il.
Məhsəti: – Ay nənə ürəyim çox nigarandır,
Onsuz gözlərimdə dünya virandır.
Mən Xətib oğluyçun darıxıram yaman.
Sanki, damarımda buza dönür qan.
Cahan qarı: – Qadın sinəsində ay, qızım, ürək,
Kişi nəfəsilə isinsin gərək.
Məhsəti: Ay nənə, bəs kişi ürəyi necə?
Cahan qarı: – Hörümçək tor atar orda gizlicə.
Qadın nəfəsilə isinməsə gər,
Daha kövrək olur qızım, kişilər.
Belə xalq etmişdir bizi yaradan.
Məhsəti: – Sevgisiz yazıqdır, yetimdir insan.
O bəlkə də yanmış məhək daşıdır,
Ən möhkəm sütunu evin – kişidir.
Çıraqdır, bir evdə o sönsə əgər,
O evə zülmətin nəfəsi girər.

(Əlini göyə tutur:)

Mənim çırağım da, Tanrım, gur yansın!
Könlüm bu işıqla qoy işıqlansın.

(Cahan qarı bayıra çıxır, tez də qayıdır.)

Cahan qarı: – Qapına gəlibdir bir qoca kişi.
Məhsəti: – Xoş xəbərlə olsun onun gəlişi.
Cahan qarı: – Üzündən, gözündən qüssə-qəm yağır.
Məhsəti: Gəlmək istəyirsə içəri çağır.

(İçəri yoxsul geyimli nurani bir qoca girir, salam verib susur).

Məhsəti: Atacan, sən kimsən, de adın nədir?
Buraya gəlməkdən muradın nədir?
Goranlı Nəsibdir adım, ay bala,
Adını eşidib çıxmışam yola.
Qoca: O şairə sənsən, ay qızım, deyən,
Altı igid oğul atasıyam mən.
Onlar döyüşlərdə qurban gedəli,
Boğur külfətimi qıtlığın əli.
Kəndliyəm, nə odum, nə ocağım var,
Nə əkib-biçməyə öz torpağım var.
Altı oğul verdim, vətənə qurban,
Onların atası ölüb acından,
Körpə balaları daxmada acdır,
Sənin köməyinə onlar möhtacdır.
Kəklik əti yeyir şah tulaları,
Ölür əsgərlərin ac balaları.
Əlim işləməkdən qabar-qabardır,
Ancaq bunun bizə nə xeyri vardır,
İşləyib, ac ölmüş nəsillərimiz,
Şahların, xanların qullarıyıq biz.

(Kişi doluxsunur)

Məhsəti: Baba, gəlişindən könlüm oldu şad,
Mənə o körpələr qoy olsun övlad.
Sizin göz yaşınız şahlara çatmaz
Yatmış vicdanları bu səs oyatmaz
Min əsgər uşağı ölsün acından,
Şahların bir tükü tərpənməz, baba!
Bir gövhər əskilsə onun tacından



Müqəssir sayılar bu el, bu oba.
Özün ki arifsən, nə deyim sənə,
Babacan, mehrimin ucundan mənə
Vermiş Xətib oğlu xeyli bağ-bağat.
Daha o sənindir, halal malındır.
Qoca: – Qızım, sən qadınsan, ərsə zalımdır.
Məhsəti: – Sən Xətib oğlunu sanma zalım ər,
Onun şair qəlbi dünyaya dəyər.

(Qocaya bir muncuqlu kisə ilə dolu pul verir. Deyir:

Al, kim əsirgəyər səndən varını,
Altı cəngavərin yadigarını
Bu hala salanlar utansın gərək.
Qoca: – Qızım, nə incədir səndəki ürək
Şairdir elin də şahı-sultanı.
Qılınc poza bilməz qələm yazanı.

(Qoca gedir, Məhsəti dalğın, pəncərə önündə dalınca baxıb deyir:)

Məhsəti: – Şahların daş-qaşla dolanda tacı,
Çoxalır millətin yoxsulu, acı.

Bu anda Xətib oğlu qapıdan girir. Oxu yayı, yapıncını bir yana atıb, əlini Məhsətinin çiyninə qoyur.

Xətib oğlu: – Şairəm, gözəlim, bu hal nə haldır,
Yenə bu nə fikir, bu nə xəyaldır?
Dalmısan dünyanın dərd ümmanına...
Şairəm, and olsun sənin canına,
Sənsiz yetim olar kişi vüqarım.
Sənsiz darıxmışam, mənim nigarım!

(Xətib oğlu onun əllərini öpür)

Bu incə, bu zərif şair əlləri
Bəzəyib ömrümdən keçən illəri.
Sənsiz heç olmasın mənim bir anım!
Məhsəti: – Sən də xoş gəlmisən, mənim sultanım!
Məni viran edər sənsizlik qəmi,
Səninlə abaddır könlüm aləmi.
Gəldi qapımıza yoxsul, ixtiyar,
Altı şəhid olmuş əskər atası.

Gəlib, burda bizə gətirdi pənah.
Onu öz gözünlə görsəydin hərgah.
Əgər eşitsəydin çəkdiyi ahı,
Mənim tək, tüstüsüz yanardın sən də.
Özümü unutdum o ah çəkəndə.
Verdim mən mehrimə düşən bağları,
Həm o torpaqları ona hədiyyə.
Xətrinə dəyməsin, bu sənsiz oldu,
Mənim bəxşeyişim bir parça torpaq,
Onun bəxşeyişi altı oğuldu
Yurda, vətənə.
Xətib oğlu: – Mənim varım, yoxum sənə halaldır,
Var-dövlət can deyil, adicə maldır.
Mənim mələyim!
Sənindir bu canım, çarpan ürəyim.

(Əlini köksünün üstünə, Məhsətinin əllərini öz sinəsinin üstünə qoyur).

## II pərdə

Məhsəti öz otağında fikirli oturub astadan kaman çalıb, oxuyur:

Aşiqə tən etmək olmaz, aşiqi-dövran mənəm,
Odlara pərvanə tək, hərdəm yanan ol can mənəm,
Uçma, ey könlüm quşu, xülyaların ardınca gəl,
Saf xəyallardan yaranmış, hər gözəl, xoş an mənəm!
Şairin sevdasını dərk eyləyər arif olan,
Arifin hər cövrünə, hər zülmünə qurban mənəm.

Birdən tələbə qızlar qapını çalıb, şən əhval-ruhiyyə ilə içəri girib Məhsətinin qarşısında baş əyir, ona salam verirlər. Məhsəti onlara oturmaq işarəsi verir. Dərs başlanır.

Məhsəti: – Nargilə, dur o gün Füzulidən öyrəndiyini oxu.

Qız oxuyur: Şəbu hicran yanar canım

(Məhsəti onu dayandırır)

Məhsəti: – Qızım "Şəbu yox, şəbi, demək lazımdır. "Şəb" gecə deməkdir.

Qız xeyli çalıb-oxuyur, Məhsəti ona oturmaq işarəsi verir. Məhsəti Zeynəb adlı qıza müraciət edir.



Məhsəti: – Zeynəb, qızım, qəzəlin gerisini sən oxu. Zeynəb oxuyur:

Füzuli rindi şeydadır,
Dəmadəm xəlqə rüsvadır.
Sorun ki bu nə sevdadır
Bu sevdadan utanmasın!

Məhsəti: – Zeynəb, nə dedin: "Bu sevdadan usanmazmı" kimi oxumalısan. "Utanmasın" kimi yox. Gülşənə müraciət edir. – Gülşən, dünən öyrəndiklərini dur oxu.

Gülşən: "Nə halətdir ki, mən düşdüm
Biyabanlarda avarə,
Həbibim, gəl, təbibim, gəl
Qəmu dərdə edək dərman.

Məhsəti:- Dayan! Sözlərin yerini dəyişdin, "avarə" sözünün qafiyəsi dərman ola bilərmi? Yaxşı fikirləş!

(Gülşən fikirləşir, birdən)

bəli, tapdım. Bunun qafiyəsi: Həbibim gəl, təbibim gəl, Qəmu dərdə edək çarı.

"Dərman" baxın bu bəndin qafiyəsidir.

Nə halətdir ki, mən düşdüm,
Nə istər, bilmirəm canan
Həbibim, gəl, təbibim, gəl,
Qəmu dərdə edək dərman.

Məhsəti: – Qızlar! Qafiyələrə diqqət edin. Füzulinin qəzəlləri qafiyəlidir. Onun ruhu onun şerlərini səhv oxuyanlardan inciyə bilər.

Zeynəb: – Müəllim! Bizim tarizənlərin çoxu bu beytləri belə səhv oxuyurlar.

Təranə: – Müəllimə! İcazə ver mən hər iki beyti oxuyum.

Məhsəti: – Oxu, qızım, oxu!

Təranə: – 1. Nə halətdir ki, mən düşdüm
Biyabanlarda avarə,
Həbibim, gəl, təbibim, gəl,
Qəmu dərdə edək çarə!
2. Nə halətdir ki, mən düşdüm,
Nə istər bilmirəm canan.
Həbibim, gəl, təbibim, gəl.
Qəmu dərdə edək dərman.

**Məhsəti:** – Afərin, Təranə! İndi kim bir el bayatısı oxuyar. Nərgiz, dur sən oxu.

**Nərgiz:** – Çalıb-oxuyur:

Səyyada bax, səyyada
Torunu qurub qayada.
Toruna yarı düşüb,
Kimsəsi yox oyada.

(Məhsəti başını tutur, "bunu sənə kim öyrətdi", deyə soruşur).

**Nərgiz:** – Müğənnilərimizdən eşitmişəm.

**Məhsəti:** – Məndən eşidin: –

Səyyada bax, səyyada
Torunu tərlan qayada.
Toruna yarı düşüb,
Kimsəsi yox oyada.

Dəftərlərinizə yazın.

**Məhsəti:** – Qızlar, dərs qurtardı, gedin, dediklərimi təkrar edin. Nə eşitsəniz məndən soruşmamış onu yadınızda saxlamayın.

(Pərdə örtülür).

## III pərdə

Məhsəti otağında fikirli oturub. Cahan qarı tələsik içəri girir.

**Məhsəti:** – Nə var, nə olubdur, ay Cahan nənə?

**Cahan qarı:** – Nə durmusan belə, a qurban sənə?
Qonaq otağın ağzacan dolub,
Gəl, gör kimlər sənin qonağın olub.

(Məhsəti gedib qonaqları qarşılayır).

**Məhsəti:** – Şer dünyamızın şöhrəti, şanı,
Bizə xoş gəlibdir ustad Xaqani!
Bizim şerimizin dan ulduzları:
Möhtərəm Fələki, Əbulula siz,
Böyük Beyləqanı xoş gəlibsiniz!
Ömrüm bir an sizdən olmasın uzaq,
Nə xoş təsadüfdur, sizə qovuşmaq.

Nizamiyə müraciətlə:



Nizami, çoxdandır görmürəm səni,
Lakin hər sözünü, hər bir kəlməni
İzləyib, məftunun olmuşam inan.
Sən hələ məşriqdə yenicə doğan
Günəşsən, günəş tək parla və yüksəl!
Qoy bizim sənətə yeni bir təməl.

**Xaqani:** – Şairə, bəyəndik tədbirinizi
Gəldik təbrik edək ürəkdən sizi,
Məktəbi açmaqda hünər etdiniz,
Siz yenə dövrandan öndə getdiniz,

**Məhsəti:** – Sizə minnətdaram ey böyük ustad!
İndi az da olsa qəlbim olur şad.
Vurğunam gördüyüm istedadlara,
Bilmirəm əl açıb, üz tutum hara?
Elmin, istedadın qarşısında hədd
Nadanlar qanundan çəkməsin sərhəd.
Yalqızam, yetməyir gücüm dövrana,
Elmsiz, savadsız olarsa ana –
Əlində xar olar nəsillərimiz.
Dövranla döyüşə girişmişik biz.
Bəxtiyar olmarıq bir quru ahla,
Oğlumuz, qızımız hansı silahla
Bu sərt tufanlara köksünü gərər?
Tanıya bilərmi bizi millətlər?
Təməlsiz daşları coşqun ləpələr
Qoparıb, daima yerindən atmış.
O nəhəng daşlardan çınqıl yaratmış.
Aqibəti budur cahil millətin.
Mənim arzum çoxdur, yollarım çətin.

**Xaqani:** – Doğrudan gəncəyə yaraşıqsınız,
Elmə və sənətə siz aşıqsınız.
İzin ver, biz gedək, ayrılaq cismən,
Öz yanında zənn et daim bizi sən.

(Nizami onun əlini öpür, gedirlər).

## IV pərdə

Şah Səncər dalğın, şah taxtı üstündə oturub Xəyyamın rübailərini oxuyur. Vezir içəri girib, şahın önündə təzim edir.

Şəh Səncər: – Bəsdir bu təzimin, vəzir, dur,
Ürəyim sıxılır, yanımda otur.
Söylə xalq içində görək nə vardır?
Vəzir: Şah özü sirr bilən pərvərdigardır.
Məhsəti hər haqqı artıq unutmuş,
Uymuş fitnələrə, şər yolu tutmuş.

(Şah qəzəblə üzünü çevirib kitaba baxır. Acıqlı vəziyyətdə deyir:)

Şah Səncər: – Vəzir, şər işləyən tez düşər şərə.
Bəs nədir tədbirin bu fitnələrə?
Vəzir: Mən nə tədbir töküm, ey insaflı şah!
Tutub duman kimi göyləri günah.
Məclisdə şərbəti al şərab olan,
Toylarda oxuyub, o kaman çalan
Qadının adına lənət və lənət!
Onun güvəndiyi bir kəs var əlbət?
Şah: – Vəzir, *qəzəbimi çıxarma yaddan,*
Bəsdir şikayətin mənə o addan.
Vəzir: Mən susa bilmərəm ey şahi-cahan!
Yaranı deşməkçün yetişmiş zaman.
Şərab içib, arı, namusu atmaq,
*Naməhrəm gözlərə naz-işvə satmaq,*
Sevimli sultanım, axı günahdır.
Mən kiməm, bu xalqın atası şahdır.
Şah: – Vəzir, qəzəbimi coşdurma, bəsdir!
Hökmümü verməyə gəl, az tələsdir.
Çünki, qarşımdakı bir qadındır, bil!
Qadınla bəd rəftar kişilik dəyil.
*Alınır sorağım Rumdan, Çindən,*
Səlcuq dövlətinin varisiyəm mən
Qarşımı kəsən də bax, mənim budur,
Nə üçün vəzirim bunu unudur?
Vəzir: – Bağışla, qəlbini sıxdımsa, şahım!
Həddi var savabın və günahın.



Səndən nə gizlədim, gəlib şəhərdən
Bu gün mötəbərlər düşdülər dizə
Ki, böyük şahımız nə deyir bizə?
Rəvamı bir qadın azdırsın bizi,
Azdırsın haqq yoldan külfətimizi.
Şah: (Hirsli) Nə qadın, nə günah, nə savab, vəzir?
Fikrini gizlətmə, açıq söylə bir,
O kimdir incidir mötəbərləri?
Vəzir: – Gəncə mahalında illərdən bəri
Ata-analara o uddurur qan,
*Hər qızın əlinə verib bir kaman*
Özü məktəb açıb, təlim edir, şah!
Bunca küfürləri götürməz Allah.
Bütün şairləri yığıb başına,
Məhsəti Gəncədə olmuş hökmüran.
Yoxdur bu fitnənin önündə duran.
Şah: – Daha bəsdir, vəzir, sən məni tanı!
Yetər, hirsləndirmə qızmış aslanı!
Rəvamı dünyanı sarsıdan Səncər,
*Zəif* bir qadına sıyırsın xəncər?
Vəzir: – Sənə fəda olum, səxavətli şah!
O, səndən güclüdür, olunuz agah!
Onun qayğısını çəkməyin hədər,
İstəsə dalınca bütün el gedər.
Hələ *qorxuram ki, o afəti-şər,*
Böyük sultana da gətirə xətər.
Şah: – (Qəzəbli)
Bəsdir, yetər daha bu səfsətələr!
Sözü çox uzatma, danışma hədər.
Yorulmuşam, gəlsin qoy rəqqasələr
Bir şən məclis düzəlt, darıxdım yaman,
Şərqin gözəlləri olsunlar rəqsan.
Mahir müğənnilər, kamançalanlar
Çağırtdır gəlsinlər həm udla onlar
Oxusun qəzəllər, qədim dastanlar,

(Vəzir sevinir, indi fürsətdir, Məhsətinin bir rübaisin oxutduraram ki,... kamançalanı çağırıb Məhsətinin iki rübaisini ona verib, məclisdə ancaq bunları oxumasını tapşırır. (Məclis başlanır. Məşhur müğənni kaman çalıb oxuyur:)

Müğənni: – Kef əhli təzədən işrətə başlar,
Kef edər əldə cam, qarşısında yar.
Bəxşiş verməyi də öyrənib səndən,
Kef günü o badə qaldıran şahlar.

* * *

Dur çəngə-cərg vuraq, bir ülfət qataq,
Şərab içək, arı-namusu sataq.
Hiylə şüşəsini çalıb daşlara
Cə namazı bir cam şəraba sataq.

(Şah fikirdən ayılıb, hirsli deyir:)

Şah: – Kimdir, kim bu arı-namusu satan,
Cənamazı bir cam şəraba satan,
Bəxşeyiş verməyi öyrədən şaha?

(Vəzir sevinmiş)

Vəzir: Biz çoxdan batmışıq şahım, günaha.
Başını kəsərlər banlasa fərə.
Şahımız nə deyir bu küfürlərə?
Şair Məhsətinin sözüdür bunlar,
Onda qalmamışdır nə namus, nə ar!
Şah: – Gecikmə sən tez ol, onu tap, vəzir!
Gəlsin hüzuruma, söhbət edək bir.

Məhsəti şahın hüzurunda.
Başına qara kəlağayı örtmüş, zil qara paltar geymiş, şah bir müddət ona tamaşa edir.
Sonra özünü toplayıb, sakit səslə soruşur:

Şah: – Əgər açıq olsa arvadın üzü,
Ondan yüzmin fitnə, min fəsad törər,
Sən, dinin hökmünü bilmirsən məgər,
Üzü açıq gəldin məclisə nədən?
Məhsəti: – Hökmdarım, buna pis baxmıram mən,
Üzünü gizlətmək mənə gəlir ar,
Üzünü gizlədər eybi olanlar.
Mənim nəyim varsa ancaq dünyada,
Təmiz qəlbim ilə, üzümdür o da.
Həm də çarşaf örtmək bizlərə yaddı,
Bizim qanunlarda qadın azaddır.



Orda nə çarşaf var, nə hərəmxana.
Təbiət qoynunda hər igid ana
Olmuş öz ərinin işdə yoldaşı.
Biz çəkən dərdləri çəkməmiş başı.
Şah: Şairə qədəhə şərab tökəndə,
Qadınlıq adından nə qalır səndə?
Məhsəti: – Qədəhdə içdiyim mey deyildir, şah!
Qanlı göz yaşımı mən içmişəm, ah!
Qandan göz yaşlarım şəraba dönmüş
Bəlkə də gözlərə o mey görünmüş?
Qıymaram, körpələr bəsləyən ana
Şərabla qarışıq süd versin ona.
Şah: – Bəs sənin yoldaşın olanda kaman,
Məndən hansı üzlə umursan aman?
Məhsəti: – Mərhəmətli şahım, əlimdəki bil,
Ağlayan könlümdür, kamanım deyil.
Mənə bir könlü də çoxmu gördü ah!
Onu məndən alsa, nə qazanar şah!
Şah: – Şairə, qələmin küfür saçanda,
Qadınsan, qapını yadlar açanda,
Məclislər düzəldib, rəqs edəndə sən,
Söylə, şah önündə nə deyəcəksən?
Məhsəti: – Xalqa xidmət edir mənim qələmim,
Qapımı yad deyil, dost açır mənim.
Şah bunu bilir ki, mən sənətkaram,
Sənət olan yerdə həmişə varam.
Şah: – Alimi yoxdurmu qədim Gəncənin?
Şairsən, məktəblə nə işin sənin?
Məhsəti: – Gərək şah bu dərdi duya dərindən,
Qüdrətli bir xalqın nəsillərindən
Elimsiz, biliksiz, əliçomaqlı
Çoban yaratmağa şah deyil haqlı.
Vəzir: Mərhəmətli şahım! Bu məlunəni
Rədd eylə, yolundan çıxardar səni.
Qadınla şeytanın əməli birdir.
Belə bir arvadın yeri – qəbirdir.
Şah: (acıqlı) Adi arvad deyil, o sənətkardır,

Vəzir! Həqarətin də həddi vardır.
Təbliğinlə məni çaşdırma, bəsdir!
Az məni qırğına, qana tələsdir.
Sənətkara əgər əl qaldırsa şah
Bunu qəbul etməz o böyük Allah.
Yaz ki, tərk eyləsin bir az Gəncəni,
Sussun bir qədər,
Bu söz-söhbətlər,
Yersiz qeybətlər.
Məhsəti: – Ədalət naminə, şah, əmr et məni
Bu doğma Gəncədə öldürsün cəllad!
Günahdır vəziri eləməmək şad!
Şairin anası vətəndirsə, gər,
Vətəndə ölməklə o nə itirər.
Vəzir: – Tamam rəzalətdir bu sözlər, ey şah!
Bunu öldürtməsən edərsən günah.
Şah: (acıqlı) Qurtaraq söhbəti, sözü, vəzir gəl!
Bəsdir, qoy əmrimə olunsun əməl!

## V pərdə

Xətib oğlu qəmlərə batmış, oturub intizarlı Məhsətini gözləyir.
Məhsəti içəri girir, Xətib oğlu onun əllərini köksünə basıb soruşur:

Xətib oğlu: – Aldığın töhfələr nə oldu şahdan?
Məhsəti: – Üçgünlük vaxt oldu şahdan aldığım,
Səninlə baş-başa burda qaldığım
Son vüsal anıdır bu dəqiqələr.
Məni, Xətib oğlu, öldürür kədər.
Şahın əmri budur: sürgün olam tək.
Xətiboğlu: – Aman, bu həsrətə dözərmi ürək?
Məhsəti: – Bağışla, yanında var günahlarım,
Səni çox incitdi, sonsuz ahlarım...
Başına bir durub, min dolanmadım,
Qarşında çıraq tək, bircə yanmadım,
Belim bükülmədi xidmətində, yar!
Bir gün eyləmədim səni bəxtiyar.
Sən gecə yastığa tək qoydun başı,



Qələm oldu mənə ömür yoldaşı.
Şam kimi əridim uzun gecələr,
Kişi dost olsa da bunlardan bezər.
Məndən sənət aldı eşqi, ilhamı,
Sən, niyə götürdün içi boş camı?
Çox dedim, incitsə bu halım səni,
Daşa çal, içi boş bu piyaləni,
Elə bir "cam" tap ki, mey daşsın ondan,
Həzz apar günlərlə içdiyin zaman.
Xətib oğlu: – Şairəm, çəkdiyin bu ah, nə ahdır?
Dostunu incitmək, dosta günahdır.
Mey də sən, cam da sən, nəşə də sənsən,
Sən Xətib oğluna həyat verənsən.
Mən səni sanmadım adi bir qadın,
Sərrafı başqadır adi arvadın.
Adi mey içməyə etmədin həvəs,
Sənsiz haram olsun mənə hər nəfəs!
Mənim könül dostum, ey nurlu çıraq!
Gözümüz bu nurdan olmasın iraq.
Adətdir, gül ətri saçılar güldən,
Su coşqun olanda çıxır sahildən,
Sənə nə yaraşır başa dolanmaq,
Bəs deyilmi sənət oduna yanmaq!
Sənin ki, öz mənan, öz aləmin var,
Yararmı hüsnünə o işvə, nazlar?
Tək işvədə deyil qadının canı,
İşvə də nəhayət yorur insanı,
Dərin söz istəyir o zaman ürək,
Onda, sənin kimi bir dünya gərək.
Belə bir dəryadan hər coşqun ləpə,
Sənin sözlərin tək, incilər səpə!..
Təbin coşqun olsun, sözlərin şirin.
Mən sənin dostunam, deyiləm ərin!
Məhsəti: – Mən günah işlədim, səni sandım ər.
İnsan öz hökmündə yanıla bilər.

## VI pərdə

Gecəyarısı, Məhsətinin qapısı camaatla dolub, onunla görüşə gəliblər. Şah adamları əllərində qamçılar camaata hücum edib qışqırırlar:

– Dağılın! Dağılın, camaat! Yoxsa...

Camaat arasında qadınlar, kişilər, şahın adamlarına qarşı dururlar. Onlar əllərini köksləirinə vurub, şah adamlarının üstünə yeriyirlər. Qadınlar sinələri açıb:

Qadınlar: Alın, xəncərləri,
Nə günahımız var, nə təqsirimiz.
Ustadla görüşə gəlmişiksə biz
Deyin, bunun şaha nə zərəri var?
Vurun, qana batsın sizin qılınclar.

(Goranlı qoca Nəsib irəli keçib:

Nə olsun ki, bu gün şah qullarısız,
Siz ki, bu Gəncənin oğullarısız
O, sizə anadır, siz ona oğul!
Oğul anasına çıxarmı asi?
Sizi çaşdırmasın o şah libası.
Çəkilin, çəkilin, oğullar, dala!
Qoyun xalq hörmətlə salsınlar yola,
Bu qədim Gəncənin şair qızını.
Ya qismət! Kim görər bir də üzünü.
Eşidək biz onun qoy son sözünü.

(Gənclər qədəm-qədəm dala çəkilirlər, içəridən Məhsəti, Xətib oğlu, Nizami, Xaqani, Fələki, Cahan qarı, bağban bayıra çıxırlar. Camaat ona təzim edir. Camaat arasından bir qadın:

– Sizə salam olsun ey ustadımız!
Şöhrətdir Gəncəyə şair adınız.

(Hamı ağlayır, şahın adamları: Görüş qurtardı, sarbanlar hardasınız? Dəvələri sürün qapıya).

**Pərdə**

Müəllif pərdə arxasından:

Müəllif: – Çoxdan uzaqlaşmış analıq edən.
Batan günəş kimi fikrə gedərək,
Bir təpə üstündə oturmuşdur tək.
Keçir xəyalından doğma elləri.



Əsir yaz nəğməli sabah yelləri!
O, səba yelindən edir sifariş:
Dolaşdın dünyanı sən qarış-qarış,
Məhsəti: – Dayan, sabah yeli, bir məni dinlə!
Gəl dönək Gəncəyə bir an səninlə.
Öpüm o cənnətin mən torpağını,
Söndürüm sinəmdə həsrət dağını.

(Durnaları görüb deyir)

Salam olsun sizə, ey qatar-qatar,
Doğma yuvalara dönən durnalar!
Siz də Məhsətidən bəxtiyarsınız!
Özünüz sahibi-ixtiyarsınız!
Dayanın bircə an o göy çəməndə,
Sizinlə baş-başa dayanım mən də.
O doğma torpağa sürtüb üzümü,
Deyim ellərimə mən son sözümü.

(Çoban tütəyinin səsi gəlir)

Sən ey xoş avazla səslənən tütək,
Mənim dərdlərimi gəl, birgə tək,
Könlümdə bir həsrət seli çağlayır,
Ney kimi ürəyim tənha ağlayır.
Ürək burda qalır, üzülür candan,
Aman, ürəksiz də yaşarmı insan?

(Uzaqdan başı qarlı Kəpəz görünür, Məhsəti dağa müraciətlə)

Məhsəti: – Əlvida, Kəpəzim, dağlar sultanı!
Neçə qəsbkarı, xaqanı, xanı
Sən bu zirvələrdə saldın atından.
Zülümlə ayrılıb el-obasından
Bəs niyə öz qızın qan ağlayır, qan!
Doğma obasından, elindən pünhan
Səni tərk edir!
O, uzaq diyara sürgünə gedir.
Sərbanbaşı: – Günəşlə açılır şükür bu səhər.

Məhsətinin qarşısına gəlir.

Sərbanbaşı – Səfərə hazırdır çoxdan dəvələr.

Ey adı möhtərəm, ey xətri əziz!
Bir sənin əmrinə müntəzirik biz!
Məhsəti: – Əlvida, ey bizim doğma torpaqlar!
Əlvida zirvəsi dumanlı dağlar!
Əlvida suları doğma bulaqlar

(Gedirlər, dəvələrin zınqırov səsləri)

Zəncanda. Məhsəti eli üzündə pəncərə qarşısında oturub hecazı seyr edir. Qaranquşun cəhcəhini eşidib:

Məhsəti: – Ey bahar elçisi, tənha qaranquş!
Səsi həsrətimi alışdıran quş!
Qanad saxla, tanı bu pərişanı!
Mənə doğma eldən xəbərin hanı?
Gördünmü boş qalan bizim eyvanı?
Orda mənim kimi yuvanmı qaldı?
Mənim kimi elin, obanmı qaldı?

(Əlini göyə tutur)

Yarəb! Vətən etmə mənə qürbəti!
O müqəddəslərin üzü hörmətli!
Məndən əsirgəmə bu mərhəməti!
Ey Gəncə həsrəti! Gəncə həsrəti!
Qəlbimdə nə üçün belə yanırsan?
İllər keçdikcə də alovlanırsan...
İlk qədəm basdığım vətən torpağı!
Ey dərdli sinəmin çal-çarpaz dağı
Gəncə həsrəti!
Yarəb! Vətən etmə mənə qürbəti!

(Səhnə arxasından müəllif:)

Müəllif: – Oyanmış gecənin dərin çağında
O, yenə dərdiylə öz yatağında.
İpək baş örtüyü dala sürümüş,
Xurmayı saçları köksünə düşmüş.
Əlində bir qələm, dalıb dərindən
Yazır Nizamiyə kədərlərindən:
Məhsətinin Nizamiyə məktubu
Dərdli xəyalımın yaxın həmdəmi,



Sahilsiz bir sudur könlümün qəmi...
Məni yad ellərdə yandırır fəraq,
Doğma ellərimdən düşmüşəm uzaq.
... Ey gözəlliyiylə bizə şux salan,
Sən ey Xarabata bir işıq salan,
Əqildə bir cahan, yaşda təzə ay,
Şeirin, sənətkarın qəbridir saray.
Şərq oldu bu suda üzən hər qayıq,
Biz batdıq, sən isə, olginən ayıq.
Günəşsən, üzünü tutmasın bulud,
Saraydan, şöhrətdən özünü gen tut!
Bu bir nəsihətdir, saxla yadında,
Əzizim Nizami, sənin adında
Duyacaq nəsillər ehtişamını.
Ellər çeşməsindən doldur camını.
Mən getdim, siz isə salamat qalın!
Yaşayın, yaradın, sevin, qocalın!
Tale məni sizdən aralı saldı,
Əlim dostlar deyə, uzalı qaldı.
Düşdü qüssələrdən saçlarıma dən,
Uzaqda can versəm əgər Gəncədən
Yenə də qəbrimi vətəndə qazın,
Başdaşım üstündə bunları yazın:
*Göydə ulduz söndü, günəş ucaldı.*
Məhsəti öldüsə, Nizami qaldı.

## NİZAMİNİN MƏHSƏTİYƏ MƏKTUBU

Şairə, qəbul et bizdən salamı,
Öpüb göz üstünə qoydum naməni,
Fələk çox görməsin Gəncəyə səni.
Bizi bir an tutma könlündən iraq,
Xoşdur qaranlıqda yananda çıraq.
Səni ağlatsa da bu acı xəbər:
Yoxdur sən gördüyün o mötəbərlər:
Bizdə kim olmamış saray qurbanı?

Şeirin ustadları nə oldu, hanı?
Payı möhnət oldu Əbulülanın,
Qırdı zəncirini şöhrətin-şanın.
Şabranın qaranlıq zindanlarında
Fələki el deyib eylədi fəğan.
Xaqani adını qoydu – Xəlqani,
Onun da qürbətdə çürüdü canı.
Batdı Beyləkanı qızıl qanına...
Lənət sarayların şöhrət-şanına.
Orda nə vardır ki, mən edim həvəs?
Qəbir deyilmidir quş üçün qəfəs?
O şanlar, şöhrətlər bir quru səsdir.
Mənim nəyim varsa, o mənə bəsdir.
Könlüm başqa eşqin pərvanəsidir,
Mənə həyat verən xalqın səsidir.
Bizdən əsirgəmə heç vaxt naməni,
Doğrudur, incitdi zəmanə səni,
Qəm yemə! – Hər zaman başını dik tut!
Hər dərddən güclü ol, sən dərdi unut!
Kədərsiz kim vardır bizim dünyada,
Sən öz sözlərini bir gətir yada:
... Qəlbinə eşqdən söz yazan hər kəs,
Bir ləhzə ömrünə puç deyə bilməz.

(Nizami məktubu yola salır)

## VIII

Nizami şah Səncərin qəbulunda.

Ş a h  S ə n c ə r : – Nizami, bilirsən zamandır daha,
Yerdə şaha inan, göydə Allaha.
Mən də qocalmışam, – qarışmış halım,
Sarayım, dövlətim, cahi-cəlalım
Rövnəq verəcəkdir sənətinə, gəl!
Gəl, qoyaq birlikdə sənətə təməl.
Mən bizim ellərə atayamsa, gər,
Sən oğul olmaqdan çəkməzsən zərər.

(Nizami xeyli fikrə gedir, sonra deyir:)



N i z a m i : – Şahım, məni salma bunca çətinə,
Qəfəs ölüm verər quş xilqətinə.
Şair azadlığın övladıdır, şah!
Sarayı şahlarçün yaradıb Allah!
Sığmaz saraylara şair xilqəti,
O dərk edə bilməz bu şan-şöhrəti.
Bura, bir təmənna gətirdi məni,
Anasız qoymasın şahım Gəncəni.
Böyük Məhsətini qaytar vətənə,
Baxın, bu məktubda nə yazır mənə:
Ya rəb! Vətən etmə mənə qürbəti!
O müqəddəslərin üzü hörməti.
Məndən əsirgəmə bu mərhəməti!"
– Şah! Məndən təmənna, səndən mərhəmət!
Qoyma şairəni öldürsün həsrət,
V ə z i r : – Şair, çəkmə burda onun adını,
Sən, gəl o kamanla, mey ustadını
Etmə bu ellərə bir daha ana"!
Böyüksən, özünü salma böhtana!
Ş a h : – Nizami, fikrində gəl, inad etmə!
Sən yenə dövranın ziddinə getmə!
Onu Səncər deyil, xalq sürgün etmiş.
Bütün qanunların ziddinə getmiş
*Mey içib, ney çalan bir qadının sən*
Nə haqla əfvini tələb edirsən?
N i z a m i : – *Məni şairliyim bura çəkdi, şah!*
Bu inamım üçün məndədir günah.
Şeirə və sənətə vurğun sandığım,
Bütün soltanlardan çox inandığım,
Böyük Səncəri də bu tac ilə taxt
Heyiflər olsun ki, elədi bədbəxt.

(Hirsli saraydan çıxıb gedir. Müəllif səhnə arxasından.)

İllər bir su kimi axdı, çağladı,
Hər gün bir dərd ilə dünya ağladı.
Düşdü cavanların saçlarına dən,
Qocalardan köçüb, çox oldu gedən.
Çevirdi şahın da fələk bəxtini,
Bir gün boş buraxıb tacı-taxtını

Qocalmış sultanı ölüm apardı,
Əcəl vəziri də bir gün qopardı,
Solğun yarpaq kimi torpağa atdı,
O da şah Səncərin yanında yatdı.

Məhsətinin evi

Məhsəti qayıdıb, qapısı camaatla dolub, ağır xəstədir. Xətib oğlu, Nizami, dostları, tanışları onun yatağının ətrafındadırlar.

Xətib oğlu: – Məhsəti, Şairəm, ey qibləgahım!
Bitdi qüssələrim, qurtardı ahım.
Mən nə xoşbəxtəm ki, sənə qovuşdum,
Bu gün, sabah mən bir köçəri quşdum.
Məhsəti: – Əziz Xətib oğlu, böyük Nizami, dostum, qardaşım!
Əcəl yastığına əyilib başım,
Bilin ki, bu səfər ayrı səfərdir,
Çəkilən səyilər artıq hədərdir.
Vətən torpağına qovuşdum, şükür!
Vətəndə olacaq yatdığım qəbir.
Artıq aman yoxdur əcəl atından,
Şikayət etmirəm mən həyatımdan.
Dostlar, yetişsə də getmək zamanım,
Həyat eşqi ilə qaynayır qanım.
Gətirin, dillənsin susan kamanım!

(Kamanı gətirirlər, titrək əllərilə kamanı alıb çalır-oxuyur:)

Bu yerlər iftixarımdır,
Bu torpaqlar diyarımdır,
Vətən sevdalı yarımdır,
Yaşar daim xəyalda.
Qəm-pünhanı tərk etdim,
Vətən torpağına yetdim,
Üfüqlərdən sönüb getdim,
El agah oldu halımdan.

(Kaman əlindən düşür, başı yastığa düşür. Xətib oğlu onun başını qucaqlayır. Ağlayır).

Nizami: – Yol uzaq, dünya qaranlıq, könlümüz hicran dolu,
Şairə! Olsun yolun cənnət yolu! deyib hıçqırır...

**Pərdə.**



## MÜNDƏRİCAT

Biz od üstündə doğulduq (*Mirvarid Dilbazi*) .................. 4

### ÖPÜN BU QANLI TORPAĞI

Qanlı Yanvar .................. 6
Nigaranlıq içindəyəm .................. 6
Qızıl ordu – ana fəryadı .................. 7
Şəhidlər qəbristanında .................. 8
Şəhidlərin ildönümü .................. 9
Səngərləri sinələrdən qurdular .................. 10
Ağlama gəlinim, qızım ağlama .................. 11
Haqq sevən ordumuza .................. 12
İnsan olmaz mən dözümdə .................. 12
Od söndü, külüm qaldı .................. 13
Qorxmaz .................. 13
İnsan adlı əcinnələr .................. 14
20 noyabr qurbanlarına ağlayanlara .................. 15
Təki arada qan olmasın .................. 16
Baş və dil .................. 17
Baş və ayaqlar .................. 17
Bu ölümdü, ya həyatdı .................. 18
Vətən qəhrəmanları .................. 19
Mən anayam .................. 19
Düşməninə qardaş desən .................. 20
Tək ağac .................. 21
Nigaranam .................. 21
Təklənmiş millətim .................. 22
Hıçqıra-hıçqıra .................. 23
Azadlıq qurban verir .................. 24
Bölümdə qaldıqca vətən torpağı .................. 24
Vətən dərdi .................. 25
Qaz balası .................. 27
Dünyada tək adlar qalır .................. 27
Silva Kaputikyana açıq məktub .................. 28
Milyonçunun yoxsul qızı .................. 32

Dünya dərdi ....34
Haqq və ədalət! ....35
Vətən oğul istəyir ....36
Topxana dərdi ....37
Sultanbud dərdi ....37
Ordu qəzeti ....38
Tərcümeyi haldan parçalar ....39

## TÜRKİYƏYƏ GEDƏN YOLLAR

Mustafa Kamal Atatürk ....41
Qəriblərim ....42
Türkiyəyə gedən yollar ....42
Türk elləri ....43
Yaşıl irmaq ....44
Sarp ....44
Ağpinar ....45
Boz külümdən ....46
Özüm döndüm başdaşına ....46
O qatar nə qatardı ....47
Sən gedəndə ....48
Yolunu gözlədiklərim ....49
Gözü yolda qalanlarım ....50
Kamal Karan ....51
Orxan ....51
Qərib Rəhman ....52
Rəqibin varsa ....54

## VƏTƏN OĞULSUZ OLMASIN

Aqil mötəbər ....55
Oğul qeyrəti ....56
Şücaətli əzizim ....57
Qurtardın bölümdən Azərbaycanı ....58
Sən dedin dünyaya kimdir qəsbkar ....59
Vətən oğlu ....60
Təbəssüm və təfəkkür ....60



Müdriklik ....61
Vətən oğulsuz olmasın ....62
Altı yüz il ....63
Unudulmaz Zərifə xanımın əziz xatirəsinə ....64
Ana xeyir-duası ....65
Vətən oğulsuz olmasın silsiləsindən ....65
Ölkə-ölkə ....66

## QOYMAYIN AĞLAYIM MƏNİ

Bir ömür yaşadım ....67
Azərbaycanım ....68
Bakı ....68
Sazlı-sözlü Qarabağ ....69
Yurd deyib ağlama ....70
Qarabağ şikəstəsi ....70
Şeiri qılıncla yaz ....71
Niyə Azərbaycan dilim-dilimdir ....72
Qoymayın ağlayım məni ....73
Ağla, kamanım, ağla ....74
Kərim baba ....74
Oğul olanda da olasan qoçaq ....75
Qanadı qanlı qaranquş ....76
Savalanın təsbehi ....77
Ümid yolu ....78
Qüdrətimiz-qeyrətimiz ....79
Ağlar elsiz qalan dağlar ....79
Son zəfər gününə qədər ....80
Gülablıya məktub ....80
Şuşada dağlar dumandı ....82
Durnam, dağlara xoş gəldin ....82
Qarabağdan köçən quşlar ....83
Şəhid anası ....84
Həsrətəm sizə ....84
Bu millət sonsuz deyil ....85
Od ələnər ....85
Danko kimi ....86

İstiqlal nəğməsi .....87
Qafrazın qartalı .....88
Kimdir bu dağ çəkən Azərbaycana .....88
Körpələr .....89
Əfqan torpağında qalanlarım .....90
Vedinin yanı dağlar .....91
Erməni hiyləsi .....91
Məzarını itirdik .....92
Göyçə dərdi .....93
Ağlar qalan Göyçə gölüm .....93
Avropanın nə vecinə .....94
Dağ kimi görünür səhrada təpə .....95
Yüngüllük .....95

**VƏZİFƏ MƏHƏK DAŞIDIR**

Məhək daşı .....96
Məsul iş .....97
Dünyanın yolu .....98
Ölüdən intiqam .....99
Olarmı? .....99
Zirvədən baxanlar .....100
Gördük .....100
Kəşflər .....101
Getmək üçün gəlmişik biz .....102
Rübailər .....103
Pulun hökmranlığı .....104
Prezidentlik davası .....105
Düşüncələr .....106
Yüngül adamlarla .....107

**İTHAFLAR**

Nizami .....108
Füzuli .....108
Ey Füzuli .....109
Füzulini dinlərkən .....109



Oxu, Rəşid .....110
M.Ə.Rəsulzadənin əksi qarşısında .....111
Firudin bəy Köçərliyə .....112
Heydərbaba, Şəhriyarın necə oldu .....112
Ölmə, Mədinə, amandı! .....113
Saz-söz qalandır .....113
Böyük Hüseyn Cavidə .....114
Müşfiqi öldürdülər .....115
Sən körpəsən .....116
Cavadım .....118
Abşeronun adamları .....119
Həyat müəllimim .....120
Heç igid yolsuz olmasın .....121
Fani dünya .....121
Xilaskar .....126
Nəvəm Laləyə .....126
Anamıza ana deyən .....127
Ana yadigarı .....128
Azərbaycan qızıyam .....129
Karvan yolu .....130
Fikirlərin ümmanında .....130
Ürəyimdə bir Qarabağ qəmi var .....131
Məni fikirli görsən .....132
Ağlama, Sevdam, ağlama .....133
Kədərli şairlik yolunu seçdim .....134
Hanı .....135
Hardasınız .....135
Olmasa .....136
O qızı tanı .....136
Dənizi fəth edənlərin .....137
Bənövşəni dərmədim .....137
Daşlarda iziniz varmı .....138
Yaman nigaranam Azərbaycandan .....138
Kişilər .....139
Ölümlə üz-üzə durduğum anlar .....140
Qəm oydu qəlbimizi .....140
Oxu, Zeynəb! .....141

Nə zənginəm, nə yoxsulam ....142
Əliağa Vahidə ....142
Ana deyib ....143
Son mənzildə haqq-hesab ....143
Ana məktubu ....144
Gəlsin ....146

## İNSAN VƏ MƏHƏBBƏT

### Lirika

Bəxtimlə söhbət ....148
Günəşin arxasınca ....149
Ey həbibim ....149
Bir eşqə sadiqəm ....149
Məhəbbət ....150
Sən gedəli ....151
Bu eşq şair xəyalıymış ....151
Sənsiz ....151
Çıraq olsan ....152
Hardasan ....152
Sən su olsan ....153
Sən yol üstə ....153
Mən ki uşaq deyiləm ....154
Məni məftun edən ....154
Sənsizlik ....154
Ey bixəbər ....155
Gözüyaşlı xatirələr ....155
Heyran olduğum ....156
Mən kədər mülkündə şaham ....156
Göy mənə həsrət çəkir ....157
Qanadlar büküldü ....157
Apar ....157
Qaya daşı ....158
Qəhqəhə ilə ....158
Evimdə ....158
Niyə ....158
Elə bildim ....159



Ana ....159
Təbib ....159
Salyan səfəri ....160
Nə təyyarə uçaydı ....160
Yollara baxacaq ....161
Mənəm-mən ....161
Məhəbbət karvanım ....162
Neylərdin ....163
Dindirmə ....163
Gözümdə yaş, başımda qar ....164
Dərdim ortağı ....165
Cənnət quşum ....166
Anam yuxuma gəlmir ....167
İldönümü ....167
Laləm ....168
Od ustundə çiçək bitməz ....168
Yaz dumanı ....169
Mən ölmək istəmirəm ....170
Bizim pişik ....170
Quzular mələşəndə ....171
Qırıq qayıqda ....172
Anamın duası ....172
Qarğa bülbül yuvasında ....173
Xəbərin varmı ....173
Şair olmaq ....174
Bülbül cəhcəhli dünya ....175
Eşq ilə doluya ....175
Qarı ağac becərir ....175
Qapımı döyürlər ....176
Ağlama yarım, ağlama ....177
Kəndimiz yadıma düşdü ....178
Qış torpağında ....178
Qubada bahar ....179
Ay bülbüllər ....180
Əsil qadın ....180
Meşələr yadıma düşdü ....181
Duyğular ....182

Qadının əri gərək ....183
Allahın əziz qulu ....183
Mənim də çinara çox bənzərim var ....183
Əhval-ruhiyyə ....184
Nə şıltağam ....184
Sevgi pərisi ....185
Halal olsun sənə qanım ....185
Lirik duyğu ....186
Səhrada tək qalmış ....186
Tarizən ....186
Ustad müğənni ....187
Kəpənək qız ....188
Lirik duyğu ....189
İstəsəydim ....189
Sevənlər toxusun, sevməyənlər yox ....190
Məhəbbət köçəri quşdur ....191
Sevib-sevilən qızlar ....191
Yuxu görürdü qarı ....192
Hanı ....193

**POEMALAR**

Avey dağla söhbət ....194
*Kor şair* ....207
Dağlar ....222
Epiloq ....223
Həyatımdan səhifələr ....223
Bu bəla hardan gəldi ....230
Sazişlər ....231
Neçə eldən ....231
Əskipara ....235
Qaratel ....236

**PYESLƏR**

Xocalı fəryadı ....242
Məhsəti ....249



**MİRVARİD DİLBAZİ**

SEÇİLMİŞ ƏSƏRLƏRİ

"LİDER NƏŞRİYYAT"

BAKI-2004

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Yasəmən Abbasova*

Yığılmağa verilmişdir 01.08.2004. Çapa imzalanmışdır 20.11.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 17,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 176.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.

**000005**